**Müəllif: Haqq yolunda müəssisənin yazıçılar hey’əti.**

## Usulid-dindən dərslər

### Birinci dərs.

### Dində araşdırmanın lüzumu.

Bə’ziləri belə güman edirlər ki, dini ələ gətirmək üçün araşdırmada onlar heç bir mə’suliyyət daşımır və din barədə fikirləşməyin heç bir lüzum yoxdur.

Biz bunların gümanlarının səhv olduğunu aşağıdakı cümlələrdə açıqlayacaq və dində araşdırmanın 2 cəhətdən lazım olduğunu söyləyəcəyik.

1-Əqlin hökmünə əsasən hər bir şəxs ona edilən yaxşılıqların qarşısında təşəkkür etməlidir.

2-Həmçinin əql hər bir təhlükə və zərərin (hətta ehtimal verilsə belə) qarşısını almağı lazım bilir.

Indi gəlin bu iki cəhətin hər birini ayrı-ayrılıqda araşdıraq:

#### 1-Şükr etmək borcu

Biz hamımız bu dünyada həyatın ne’mətlərindən bəhrələnirik. Həzm, tənəffüs, ürək, və sair orqanların hər biri öz növbəsində bizim düşündüyümüzdən və elmimizdən daha artıq qiymətlidir. Eləcə də Allah insana Günəşin nuru, bitkilər, mə,dənlər, yeraltı sərvətlər və başqa bu kimi ne’mətlər bəxş etmiş və insan Allahın ona verdiyi elm sayəsində bu ne’mətlərdən lazımi qədər istifadə edə bilər. Ən başlıcası isə odur ki, böyük dağlar parçalayıb sudan, dəmirdən güclü və zərif şeyləri hazırlayan da məhz insanın bu iste’dadıdır.

Indi belə bir sualla üzləşirik ki, bu qədər ne’mətləri bizə əta edəni tanıyaraq onlan təşəkkür etməmək olarmı? Əgər xeyriyyəçi bir kişi ata-anasını itirən körpəni övladlığa

götürüb yaşayışını tə’min edərsə, tərbiyəsində çalışarsa, uşaq böyüdükdə isə onu oxutdurub hər bir ne’məti onun ixtiyarında qoyarsa və beləliklə də hər cəhətdən onun yaşayışını tə’min edərsə, onda bu uşaq ilk növbədə o şəxsi tanıyaraq onun qədrini bilməli, daha sonra ona təşəkkür etməlidirmi?

Buna əsasən öz vücudumuza olan ne’mətlər barədə düşünmək və sonra da o ne’mətlərin şükrünü yerinə yetirmək üçün Allahı tanımaq bizim vəzifəmizdir. Buna görə də əql bizə doğru dini tanıyıb ona itaət etməyi əmr edir. Doğru yolu tapmayıb hələ azğınlıqlar içərisində avara qalmış şəxs mütləq əsaslı və yol göstərən dəlilər ilə doğru yolu və həqiqi dini tanımaq üçün çalışmalı mə’nəviyyat həyatının bulağını və doğru dini əldə etdikdən sonra xatircəmliklə öz yaradanının şükrünü etməlidir.

### 2-Ehtimal verilən təhlükənin qarşısını almaq

Əgər bir uşaq paltarınızda bir əqrəb olması xəbərini sizə versə dərhal yerinizdən qalxıb paltarınızı yoxlayacaq və əqrəbi tapmaq üçün paltarın hər tərəfini axtaracaqsınız. Həmçinin əgər gecə vaxtı səfər edərkən quldurların pusquda durması xəbərini eşitsəniz salamat və təhlükəsiz yolu tapmayınca yolunuza davam etməyəcəksiniz.

Yuxarıdakı iki misaldan aydın olur ki, ehtimal verilən təhlükənin qarşısını almaq əqlin hökmünə əsasən vacibdir. Düzdür, ola bilər bə’zi təhlükələrin bir o qədər də əhəmiyyəti olmasın və bə’ziləri ona diqqət etməsin, ancaq insanın ölümü ilə nəticələnə biləcək təhlükəyə qarşı heç vaxt e’tinasız yanaşmaq olmaz.

### Ən qorxulu təhlükə

Insanların yaşayış tarixində bə’zi insanlar doğru danışmaq üzrə ad çıxarmışlar. Onlar özlərini Allahın elçisi tanıtdırıb insanları Allaha iman gətirməyə (inanmağa) və bir sıra əməlləri yerinə yetirməyə də’vət etmişlər. Onların ardıcıl olaraq apardıqları sə’ylər və

çəkdikləri zəhmətlər nəticəsində dünyanın hər tərəfində bir çoxları onlara iman gətirmişlər. Isa (ə)-ın təvəllüdü Məsihi tarixinin, Mühəmməd (s)-in hicrəti isə Islam tarixinin başlanğıcı kimi qeyd olunmuşdur.

Indi özümüzə belə bir sual müraciət edək: -Bu peyğəmbərlərin sözləri camaatı dinə və xüsusi qanunlara də'vət etməklə yanaşı pis əməllərinin cəzasından qorxutmaları, ədalət məhkəməsində Allah qarşısında mühakimə olunacaqları xəbəri, özləri qiyamətin şiddətli əzabından nalə edib camaatı qorxutmaları bir uşağın ehtimal verilən təhlükə barədə verdiyi xəbər qədər də bizim üçün bir rol oynamır? Dünyanın həqiqi dindarlarının sözlərindən əməllərindən göz yummaq heç insafdandırmı? Halbuki, onlar öz əqidə və imanlarında son nəfəslərinə qədər sabit qalmış və əllərindən gələni belə əsirgəməmişlər.

Mə'lumdur ki, insan pak qəlbli peyğəmbərlərin sözlərinə inanmasa da insanda ən azı bu fikir yaranır ki, ola bilər onlar doğru desinlər. Əgər peyğəmbərlərin dediyi doğru çıxdığı halda bizm işimiz nə olacaq? Biz Allahın ədalət məhkəməsində nə cavab verəcəyik?

Elə buna görə də əql bizə ehtimal verilən təhlükənin qarşısını almağı vacib edərək deyirlər ki, öz vəzifəsinə əməl edənlər ölümdən sonra vüs'ətli bir aləm və əbədi ne'mətlər gözləyir. Həmçinin onlar xəbər verirlər ki, bu dünyadan sonra xatircəmlik və ruh asayişi ilə dolu başqa bir aləm vardır. Orada artıq heç bir qəm, qüssə, qorxu və xəstəlik yoxdur. Bu əhəmiyyətli xəbərlərə e'tinasız yanaşmağı əql bizə icazə verərmi? Günahın cəzası var-deyə bizləri pis əməllərdən çəkindirən peyğəmbərlərin sözlərinə əhəmiyyət verməmək, dinin ardınca gedib onda fikirləşməmək olarmı?

## Ikinci dərs

### Görünməyən varlıqlarla tanış olaq

Biz uca, gözəl və səliqəli bir bina gördükdə dərhal binanın mühəndisinin, me'marının və bənnasının öz ixtisasında

böyük məharətə sahib olduğunu düşünürük. O səliqəli binanı gördükdə fikrimiz mühəndisin elmli və bilikli bir şəxs olmaşsına yönəlir. Eləcə də avtomobil, təyyarə, kompyüter və başqa sənaye mərkəzlərini müşahidə etdikdə biz şübhəsiz ki, elmli və bilikli usta ixtiraçıların olmasını düşünməklə yanaşı eyni zamanda onların elm və biliklərindən də xəbərdar oluruq.

Tikilən binanın və istehsal olunan məhsulları düzəldənin olmasını e'tiraf etmək üçün heç də onların özünü gözlə görməyiniz lazım deiyl. Əgər onları görsək də yenə onların elm və biliklərini zahiri hislərimizlə anlaya bilmərik. Lakin bununla belə biz yenə də onların elm və biliklərinə inanırıq. Bunun səbəbi nədir? Səbəbi odur ki, onların düzəz⚬Á‹Y□¿□È朵

橢橢킄킄Y츮ᅌᅌ篩

————————————Hι◎◎◎lήήήO□∧ḋḋḋ◎≾

거거거8겨t괜ŭ≾颾◎dž결결"껿껿껿꿹꿹꿹黇◎1

䕷◎䕷◎䕷◎䕷◎䕷◎䕷◎$鬒◎η侀◎◎鞫◎uḋ꿹꿹꿹

꿹꿹鞫◎⚬Á‹Y□¿□È朵

椭椭퀵퀵Y쿭ᕪ1䈽

———————————ᷫHɩ๏๏๏lήήήO□∧ḋḋḋ๏⋦

거거거8겨t괜ŭ⋦颰๏dž결결"곒곒곒귉귉귉颣๏1

霢๏霢๏霢๏霢๏霢๏霢๏$鳥๏Ƞ仴๏๏鞫๏uḋ귉귉귉

귉귉鞫๏⊸Á‹Y□¿□È枽

椭椭퀵퀵Y쿭ᕪ1䈽

———————————ᷫHɩ๏๏๏lήήή**O**□∧**ḋḋḋ**⚜

**⋦거거거**8겨t괜ŭ⋦颰๏dž결결"곒곒곒귉귉귉颣๏

1霢๏霢๏霢๏霢๏霢๏霢๏$鳥๏Ƞ仴๏๏鞫๏uḋ귉귉귉

귉귉鞫๏a gəlməyən iyləri iyləyir, acı və şirin dadları dadır, soyuqla istiliyi duyur və bərlə yumşağı hiss edirik.

**2-Hissiyat orqanları vasitəsilə duyulmayan varlıqlar.**

Biz bu həqiqətlərin varlığını göstərdikləri tə'sirləri mütaliə etməklə anlaya bilirik. Əlbəttə bu həqiqətlərin hamısı heç də eyni deyildir. Bə'zi varlıqlar maddidir, bə'ziləri isə qeyri-maddi, yə'ni maddənin hüdud və xüsusiyyətlərindən kənardır. Indi onların bə'zisinə işarə edirik.

Elektrik: Ikisindən birində elektrik cərayanı olan naqillərə baxmaqla onlarda elektrikin olduğunu duya bilmərik. Yalnız elektrik cərayanının tə'siri (məsələn lampanın yanması) ilə onlarda cərayanın olduğunu

anlaay bilərik. Deməli, elektrik cərayanını bilavasitə gözümüzlə görməsək də o öz varlığını qoruyub saxlayır.

Cazibə qüvvəsi: Əgər əlinizdə olan kitabı əlinizdən buraxsanız yerə düşəcək. Başqa sözlə desək yer onu özünə tərəf cəzb edəcək. Bu hansı qüvvədir ki, biz onu birbaşa hisslərimiz ilə duymuruq? Bu cazibə qüvvəsi də gözə görünməyən həqiqətlərindəndir. Ancaq onun nəticəsi olan cisimlərin məhz yerə düşməsindən onun varlığına bizdə inam yaranır.

Maqnit: Bir parça dəmirin kənarında bir qədər maqnit qoysaq zahirdə gördüyümüzdən başqa heç bir qüvvə olmaz. Ancaq maqnit dəmiri özünə tərəf çəkdikdə maqnitin əhatə etdiyi fəzada maqnitlik xasiyyəti olduğunu başa düşürük.

Gözə görünməyən nur: Əgər günəşin ağ rəngli nurunu büllur qabın üstünə salsaq, büllur qabın o biri tərəfindən yeddi rəng görəcəyik. Bu yeddi rəng qırmızı, narıncı, sarı, yaşıl, göy, bənövşəyi və qırmızıya bənzər rənglərdən ibarətdir. Halbuki alimlərin nəzərinə görə bu nurlardan əlavə orada gözə görsənməyən hərarətli və kimyəvi tə'sirli başqa nurlar da vardır. Bu nurları açıq qırmızı və bənövşəyi rəngə bənzər adlandırırlar.

Min səkkiz yüzüncü ildə Herşel adlı bir fizik və astroloq gözə görünməyən nurun mövcud olub-olmamasını araşdırmaq fikrinə düşdü. Termometri qırmızıdan bənövşəyi rəngə qədər yeddi rəngli nur görünən bir pərdə üzərinə qoyur. Növbə ilə hər bir rəngin hərarətini ölçür. Qırmızı rəngi ölçən zaman termometrin hərarətinin çoxaldığını gördükdə bu qərara gəldi ki, açıq qırmızı adlı başqa gözə görsənməyən bir nur da vardır. Bu nurun hərarəti başqa nurların hərarətindən daha çoxdur. Həmin nurun hərarətinin tə'siri nəticəsində bəşər açıq qırmızı rəngli nurun mövcud olmasını anladı.

Eləhəmin dövrdə Vlaston adlı başqa bir ali kimyəvi bir maddəni açıq bənövşəyi rəngli nurun altına qoyur. Gözlədiyinin əksinə olaraq o başa düşdü ki, heç bir nurun gözə görünmədiyi yer də kimyəvi maddəni

qaraldan başqa bir səbəb vardır. Sonralar başa düşdülər ki, bədənin dərisi həmin kimyəvi nurun tə'sirindən günəş altında öz rəngini dəyişir.

Beləliklə bənövşəyi rəngli nurdan əlavə başqa gözə görünməyən nurun varlığı sübuta yetərək "açıq bənövşəyi" adlandırıldı.

Eşildilməyən səslər: bir çox səslər vardır ki, biz onları eşitmirik. Bu tipli səsləri eşildilməyən səslər adlandırırlar. Biz onları göstərdiyi tə'sirlər nəticəsində anlayırıq. Tibb və sənaye sahələrində bunlardan istifadə edilir.

Düşüncə: Biz hamımız özümüzdən xəbardarıq, yə'ni varlığımızı dərk edib anlayırıq. Bizdə özümüzdən xaricdə başqa mövzular haqqında da bir sıra düşüncələr vardır ki, onlara aşağıdakı cümlələr ilə ifadə edirik:

-Riyaziyyatın ən çətin məsələsini həll etdim.

-Filan məsələ haqqında çox fikirləşdikdən sonra başa düşdüm ki, düzdür.

Həmçinin insan öz bildiklərindən də xəbərdardır, yə'ni, bilməyəni bilir. Düşüncə görməli və eşitməli bir şey deyildir ki, insan onu gözü ilə görsüqn və yaxud qulağı ilə eşitsin. Əksinə, düşüncə hiss edilməyən bir həqiqətdir ki, hər bir insan görmək, eşitmək və başqa zahiri qüvvələrdən başqa bir qüvvə ilə onu öz vücudunda hiss edir. Başqaları isə onun göstərdiyi tə'sir vasitəsilə deiyl, əksinə onun göstərdiyi tə'sir vasitəsi ilə varlığından xəbərdar ola bilərlər. Məsələn bir alim elmi məsələlərdən birinin həllini izah etdikdə onun həmin məsələni başa düşməsi mə'lum olur. Eləcə də bir alimdən onun riyazi məsələlərdən xəbərdar olub-olmaması barədə soruşduqda "xəbərsiz deyiləm (mə'lumatım var)"-deyə cavab verərsə, onda başa düşəcəyik ki, o, öz mə'lumatından xəbərdar olaraq özünə arxayındır. Yə'ni, o, riyaziyyat məsələlərindən xəbərdar olduğunu bilir.

Zehni təsəvvür: Insan zehnində istədiyi şəkili yarada bilər. Məsələn Efel qülləsi kimi bir qülləni xarici aləmdə düzəltmək üçün

yüzlərlə işçiyə və bir çox materiallara ehtiyac olduğu halda zehn aləmində belə bir qülləni bir anın içərisində inşa etmək olar. Hətta onun min bərabərini belə heç bir zəhmətsiz düzəltmək mümkündür. Həmçinin xarici aləmdə mövcud olmayan şeyləri də zehndə təsəvvür etmək olar. Məsələn zehnimizdə çoxlu başı, əli, ayağı olan bir idv təsəvvür edək. Mə'lumdur ki, bizim zehnimizdə təsəvvür etdiyimizi olduğu kimi dərk etməyə başqalarının qüdrəti yoxdur. Çünki bu, görməli və ya eşitməli bir şey deyildir. Biz başqasını onun əsərləri və ya danışığımız vasitəsilə xəbərdar edə bilərik.

Məhəbbət, nifrət və qərar: Hər bir insan bə'zi şeyləri xoşlayır, bə'zi şeylərdən isə bunun əksinə olaraq xoşu gəlmir. Eləcə də insan həmişə öz həyatında qərar çıxarmağa ehtiyac duyur. Xoşuna gəldiyi hər hansı bir iş barədə əvvəl qərara gəlir, sonra isə onoa əməl edir və istədiyi işdən isə göz yumaraq arxasınca getməmək qərarına gəlir. Heç bir şəxs əsərləri və göstərdiyi əməllər vasitəsindən başqa bir yolla bilavasitə başqasının qərarından, nəyi xoşlamadığından xəbərdar ola bilməz. Çünki məhəbbət, nifrət və qərar çıxarmaq görməli, eşidməli və hiss edilməli bir şey deyil ki, zahiri hisslər vasitəsilə onu duymaq mümkün olsun.

Həyat: Gözümüzün önündə gözəl bir cücə suya düşərək boğulur və biz onu sudan çıxarana qədər ölür. Bu heyvanın həyat tərzində həmin an nə kimi dəyişikliklər baş verir? Onun indiki vəziyyəti ilə bir an bundan qabaqkı vəziyyətində nə fərq vardır ki, o daha tərpənmir, oyanmır və yemək yemir?

Çarəsizlikdən deməliyik ik, diri heyvanda həyat adlı bir şey vardır ki, həmin şey ölüdə yoxdur. Bu həyat hiss ediləsi bir şey deyil. Biz sadəcə onun hərəkət etmə, yem yemə və bu kimi başqa xüsusiyyətlərdən ibarət olan əsərlərindən onun diri olmasını dərk edirik. Qeyd etdiyimiz bu elmi həqiqətlərdən aydın olur ki, hissiyat orqanları vasitəsilə dərk ediyimiz mövcüdlarından əlavə bir sıra başqa mövcudlar da vardır. Bu mövcudlar bilavasitə hiss olunmur və biz onları əsərlərin vasitəsilə dər edə bilirik.

Beləliklə buradan bu nəticəni alarıq ki, gözə görünməyən hər hansı bir şeyi görmədiyimizə görə onu inkar edə bilmərik.

Çünki gözə görünməməklə mövcud olmaq arasında böyük fərq var və bu iki şey bir-birindən ayrıdır. Bir şeyin varlığını anlamaq heç də onun gözlə görünməisnə və yaxud digər zahiri hissiyat orqanlarına bağlı deyildir. Əksinə, əql də bir şeyin əsərləri vasitəsi ilə həmin şeyin varlığını dərk edə bilər. Necə ki, yuxarıda qeyd etdiyimiz (əsərlərin vasitəsi ilə dərk edilən) elmi həqiqətləri heç də bir şəxs inkar edə bilməz. Biz Allahın da bu həqiqətlər kimi olduğunu demək istəmirik. Çünki, Allah bunlardan yüksək bir həqiqətdir.

Heç birşey Ona tay və bərabər ola bilməz. Lakin bizim məqsədimiz budur ki, bu şeylərin varlığını əsərlərinin vasitəsi ilə anladığımız kimi Allahın varlığını da Onun aləmdəki əsərləri vasitəsi ilə anlayaq. Deməli yalnız zahiri gözlə baxan insanlar Allahı görmədikləri üçün Onu inkar edirlər. Onların batini və mə'nəvi gözü kordkr. Çünki bildik ki, əqlin hökmü ilə Allahın əsərlərindən biri olan yaranışdakı dəqiq nizam vasitəsilə Onun varlığını anlaya bilərik. Ancaq sən zahiri gözlə görünməyini  görmək üçün qəlbinin gözünü aç.

Çünki hər bir varlıqda Allahdan bir nişanə və əlamət var. Ən əsas məsələ budur ki, Allahın əsərləri və Onun qüdrəti (yə'ni dünya və dünyada yaşayanlar) barədə mütaliə etmək bizi onun varlığını anlamağa bir vasitə olmasından əlavə və bunu da bizə çatdıracaq ki, bütün dünya və dünyada yaşayanlar Onun əsərlərindəndir. Onun əsəri təkcə bir yerə və bir məkana məxsus deyildir. Bütün yaranmışların hər birində Allahın bir nişanəsi var. Deməli Onun Özü başqa tayı-bərabəri olmayan bir həqiqətdir. O,  məhdud olmuyan, bütün kamalların sahibi və eybdən pak bir varlıqdır.

Beləliklə Allahın əsərləri barədə mütaliə etdikdə iki şey diqqətimizi cəlb edir.

1-Bütün məxluqat Onun nişanələrindən olan dünyanı yaratmış Allahın varlığını anlamaq.

2-Əsərlərin məhdudlaşmamasından, bir yerə və bir məkana xas olmamasından başa düşürük ki, O, məhdud olmayan və bütün kamallara sahib olan bir varlıqdır. Baxmayaraq ki, onun həqiqətini tam dərk edə bilmirik.

Imam Rza (ə)-ın xadimi Məhəmməd ibn Abdullah Xorasani deyir: "Bir neçə nəfər imam Rza (ə)-ın hüzurunda oturmuşdu.

Elə bu vaxt Allahı inkar edənlərdən biri içəri daxil oldu. Imam Rza (ə) ona buyurdu: "Əgər sizin dediiyniz kimi Allah, peyğəmbər, hesab-kitab yoxdursa, onda bizim namaz, oruc, zəkat və imanımızın bizə nə ziyanı olacaq?" O kişi cavab vermədi. (Yə'ni bu o deməkdir ki, heç bir ziyanı olmayacaq)

Həzrət buyurdu: "Yox, əgər bizim dediyimiz kimi Allah, məad, din, qiyamət günü varsa, onda siz bədbəxt olmamısınızmı?"

(Aydındır ki, əqlin hökmü ilə hər bir şəxs bu dünyadan sonra başqa bir dünyanın olmasını güman etsə belə bədbəxtçiliyə və fəlakətə düçar olmasın deyə gərək dinin qayda-qanunlarına əməl etsin).

O kişi soruşdu:

Sizin e'tiqad bəsləyib inandığınız Allah necə və haradadır?

Imam buyurdu: "Sənin sualın səhvdir. Məkan və necəliyi Özünün məkan və keyfiyyəti olmayan Allah yaratmışdır. Deməli Onu bu yollarla tanımaq olmaz. Allah zahiri hissiyyat orqanlarının heç biri ilə duyulmaz və bir şeylə müqayisə oldunmaz." O kişi dedi: "Əgər hissiyyat orqanlarının heç biri ilə duyulmursa deməli yoxdur."

Imam buyurdu: "Vay olsun sənə (gör düşüncən nə qədər məhduddur ki,) hissiyat orqanlarının Onu anlamaqdan aciz olduğuna görə Onun Allahlığını inkar edirsən. Ancaq bizim də Onu dərk etməkdə aciz olmağımıza baxmayaraq yenə də məhz Onun bizim yeganə Allahımız olduğuna inannırıq."

Kafir kişi dedi: "Deyin görək Allah hansı zaman olubdur?"

Imam buyurdu: "Sən Allahın hansı zamanda olmadığını de, mən də sənə Onun

hansı zamanda olduğunu deyim. (Yə'ni, Allah zamandan qabaq olmuş və zamanı da Onun Özü yaratmışdır)."

-O kişi dedi: "Allahın varlığını sübut etmək üçün dəliliniz nədir?"

Həzrət buyurdu: "Mən öz bədənim haqqında fikirləşdikdə görürəmki, onun uzunluğuna, eninə heç bir şey artırıb və yaxud azalda bilmirəm. Eləcə də sağlamlıq və xəstəliyimi istədiyim kimi edə bilmirəm. (Bə'zi vaxtlar bir xəstlikdən sağalmaq üçün nə qədər çalışıramsa, mümkün olmur). Elə buna görə və həmçinin Günəş, ulduzlar, Yer və göyün bu cür nizamlanmasından anlayıram ki, mənim bədənimiz və bu dünyanın (alim və qüdrətli)bir yaradanı var.[1]

**Üçüncü dərs.**

**Nizam aləmindən nümunələr.**

Bu dünyada kiçik zərrəciklər tutmuş böyük planetlərə qədər hər nəyə baxsaq hesablanmış və dəqiqlənmş nizamlıqdan bir nişanə gözə görünəcək. Belə ki, bu, böyük alimlərin də heyrətinə səbəb olmuşdur. Asburi insitutunun təbiətşünaslıq müəllimi Sesil Boysi Haman belə yazır:

Həmişə mikroskop altında bir damla suya baxdıqda və yaxud Teleskop ilə uzaq ulduzlara tamaşa etdikdə çox heyrətlənirəm.

Təbiətə hakim olan hökmlərin, qanunların sübutuna əsasən alimlər təbiət qanunlarını açıqlamağa çalışırlar. Əks tədqirdə bu sahədə görülən hər bir iş faydasız olardı.

Elə yaşadığımız Yer kürəsinin Günəşə nisbət böyüklük-kiçiklik, yaxınlıq-uzaqlıq baxımından, öz oxu ətrafında hərəkəti etdiyi sür'əti elə nizamlanmışdır ki, yaşayış və həyat üçün əlverişli bir mərkəzə çevrilmişdir. Çünki əgər hazırkı şəraitdə azacıq dəyişiklik olsa bərpası mümkün olmayan ziyanlar meydana gələcək.

Çox hissəsini həyat bəxş edici qazlar təşkil edən cəvv o qədər qalındır ki, qalxan kimi dayanaraq yer kürəsini gündə göydən enəcək 20 milyon daşın qarşısını alır. Bu

[1] –Üsuli-Kafi c-1, səh-78.

daşlar gün ərzində saniyədə 50km sür’ətlə yer kürəsinə tərəf axır.

Yer səthinin hərarətinin yaşayışa uyğun tənzimlənməsi həmin cəvvin öhdəsindədir. Eləcə də okeanlarda suyun buxarlanmasının yerə nəql olunması da bu cəvvin öhdəsindədir. Əgər bu nəql olunmasa yer kürəsinin bütün quraqlıqları istifadə üçün yararsız olardı.[1]

Niyə uzağa gedək? Hər şeydən yaxın öz varlığımızdır.

Insanın yaranışında olan sirlər o qədər çoxdur ki, bütün dünya alimləri neçə il apardıqları axtarış və tədqiqatlardan sonra hələ də bu sirlərin hamsını açıqlıya bilməmişlər.

Doktor Aleksis Karl neçə il apardığı tədqiqatlardan sonra “Insan tanınmış bir varlıq” adlı kitab yazmış və həmin kitabda hələ biologiya və digər elmlərin insan bədəninin həqiqətini dərk etməməsinə və habelə bir çox məsələlərin elmə bəlli olmadığını e’tiraf etmişdir. indi öz varlığımızda olan sirlərdən bir neçə nümunəyə diqqət edin.

Bədən hüceyrələri:

Insan bədəni bir quruluş olaraq kiçik hüceyrələrdən təşkil olunmuşdur. Onların hər biri ayrı-ayrılıqda canlı varlıqdır. Onlar da digər canlılar kimi yaşamaqla yanaşı, qidalanma, həzm etmə, cəzb etmə, dəf etmə və artım proseslərini lazımıncasına yerinə yetirirlər. Hüceyrələrin tərkibində dəmir, mis, kalsium kimi filizlər və kükürd kimi qeyri-filiz maddələr vardır. Bu hüceyrələrin sayı hər bir normal insan bədənində 10 milyon milyarddır. Bu canlı hüceyrələr əlbir olub eyni məqsədə xidmət edirlər. Onlar zəif taqətli və tez inciyəndirlər. Onlar vaxtı-vaxtında qidalanmalıdırlar. Qan ürəyin köməyi ilə bu vəzifəni layiqincəsinə yerinə yetirir. Ürəyin quruluş sistemi elə tənzimlənmşdir ki, o, damarların vasitəsi ilə qanı bədənin istənilən üzvünə çatdıra bilir. Qan qida maddəsini hüceyrələrə çatdırdıqdan

---

[1]-Allahən varlığının sübutu. Səh 19-22. Bu kitab qırx alimin qələmiylə The Evidence of sod nan Expandins unuvezse adı ilə yazılıb

sonra, hüceyrələrdə toplaşan tünd rəngli zəhərli maddələri özünə cəzb edib ürəyə çatdırır. Ürək isə ona təmizləyib yenidən yenidən açıq rəngdə bütün bədənə qayıtması üçün qan təmizləyici orqanı olan ağ ciyərlərə ötürür.

Bədənin ümümi işlərində qarışıqlıq yaranmasın deyə qan böyrəklərdən ötüb keçəndə onun tərkibindəki zəhərli maddələrin bir hissəsi də təmizlənir. Bir hüceyrənin təşkilində böyük rol oynayan filiz və ya qeyri-filiz maddələrin tərkibi, eləcə də bu günki ziyalıları heyrətə gətirən ürək və onun fəaliyyət sistemi yüksək və mükəmməl bir nəzmin olduğunu sübut etmirmi?

Insan bədənini sirli, eyni zamanda nizamlı bir aləm kimi adlandırdığımızın nəyi boşboğazlıqdır?

Beləliklə də dünyanın mükəmməl bir nizam əsasında qurulmasını təsdiqləməliyik. Təbii ki, hər bir nizamın da qüdrətli və bilikli yaradanı vardır.

## IV DƏRS

## NIZAMI YARADAN KIMDIR?

Insanlan bu gün bir çox çətin işlərini müxtəlif maşınların köməyi ilə asanlıqla yerinə yetirirlər. Insanı heyrətləndirən qurğulardan biri də kompüterdir. Yəqin ki, onun işlərindən az-çox xəbardarsınız. Məsələn bə’zi kompüterlər yaddaşına yazılmış xəstənin keçmiş xəstəliklərini bir nreçə dəqiqə ərzində həkimin ixtiyarında qərar verir. Bu kompüterin keçən ilki, yaxud on il bundan qabaq qeyd olunmuş xəstəlikləri araşdırıb müalicə yolunu təklif etməyə belə imkanı çatır. Bu qurğu lazım olan dərmanı xəstaxananın aptekinə sifariş verməklə yanaşı həkimə də həmin dərmanı xəstəyə çatdırılmasını xəbər verməyi bacarır. Bir çox böyük zavod və müəssisələrdə qurğuların tənzimlənməşsi üçün kompüterdən istifadə olunur. Bu qurğunun təsadüf nəticəsində

meydana gəlməsi mümkündürmü? Yoxsa onun heyrətləndirici nizamı qurğusunun huşlu və iste’dadlı olmasının şahididir?

Şübhəsiz ki, bu aparat qarşısında oturub işləyən şəxs onun quruğusunun böyük iste’dada və dərin düşüncəyə malik olduğundan xəbərdar olacaq.

**Avtomatik mətbəx**

“Orbis” adlı bir aparat bir saat ərzində min nəfərdən çox adam üçün istənilən yeməyi bişirməyə qadirdir.

Bə’zi ölkələrdə yol kənarı restoranlarda bu aparatdan istifadə olunur. Bu aparatın işi iyirmi mahir aşpazın işinə bərabərdir. Müsafir maşınını restoranın yanında saxlayıb yanındakı mikrofonun düyməsini basdıqda avtomatik olaraq “nə yeməyi istəyirsiniz?” sualı verilir. Bir neçə müxtəlif yeməyi sifariş etdikdən sonra təxminən səkkiz dəqiqə on bir saniyədən sonra ofisant yeməyi gətirir.

**Özü işləyən mətbəx aparatının iş tərzi**

Müştəri düyməni basdıqda qurğunun işığı yanır. Müştəri müxtəlif yeməkləri sifariş verdikcə qurğunun qarşısında əyləşmiş şəxs də müəyyən düymələri basır. Elə bu vaxt qurğu işə başlayır. Əvvəlcə qurğu öz bıçağı vasitəsilə çörəyi doğrayır. Sonra isə bir parça əti ocağa göndərir. Bu ət dörd dəqiqə yeddi saniyə ərzində kabab olur. Daha sonra avtomatik şəkildə kabab çörəyin üstünə qoyulur. Başqa yeməklər də bu tərtiblə hazırlanır.

Yeməklər hazırlanıb başa çatdıqdan sonra xüsusi plastik bağlamalara qoyulub müştəriyə çatdırılır. Görəsən bu avtomatik “Orbis” qurğusu heç bir nizamlayıcısı olmadan təsadüf nəticəsində yaranıb, yoxsa bir neçə və yaxud bir alimin zəhmətinin dəqiq hesablamalar nəticəsində əldə etdikləri kəşfin nəticəsidir?

Şübhəsiz ki, yuxarıdakı misallar da müşahidə etdiyiniz nizam-intizam bir nizamlayıcı və ixtiraçının fikrinin nəticəsidir. Belə ki, əgər ixtiraçı dəqiq hesablamalar

nəticəsində belə bir qurğunu kəşf etməsəydi bu qurğu meydana gəlməzdi.

Bütün bu dediklərimizdən ümumi və qəti bir qənaətə

Gəlmək olar ki, nizam-intizamın bilikli və qüdrətli bir mənbəyi olmalıdır, təsadüfə gəlincə isə o, əsla nizam-intizamın mənşəyi ola bilməz. Çünki hər bir şeiyn özünəməxsus bir tə'siri vardır. Buz kimi suyu yandırmaq xüsusiyyətinə malik olmasının qeyri-mümkün olduğu kimi nizam-intizamın da təsadüf nəticəsində yaranması qeyri-mümkündür.

Yuxarıda qeyd etdiklərimizi əsas götürərək deyirik ki, beyin sinir sistemi, həzm orqanı, ürək, göz və digər bədən üzvlərindəki nizam-intizam bu dünyanın bilikli və qüdrətli bir nizamlayıcısının varlığına kifayətedici sübut və canlı şahiddir. Yaradılış aləminin nizam-intizamının sirlərinə nə qədər yaradanın əzəmətini dərk edəcəyik. Insanın beyininin kompüterdən əskik olduğunu demək olarmı?

Yəqin ki, bunların hamısının dünyanın qülrətli və bilikli yaradanının və nizamlayıcısının əzəmtinə şahid olduğunu təsdiq edəcəksiniz? Üstəlik insanda dərrakə və şüurlu olmasına onu yaradanın alim və şüurlu olmasına açıq-aydın bir sübutdur. Çünki dərrakə və şüura malik olmayan varlığın öz yaratdığı məxluqa dərrakə və şüur verməsi qeyri-mümkündür.

Qur'an bir çox ayələrdə bu həqiqətə işarə edir. O, cümlədən buyurur: "Göyləri, gördüyünüz kimi, dayaqsız olaraq yüksəklikdən, sonra ərşi yaradıb hökmü altına alan, müəyyən vaxta qədər dolanan Günəşi və Ayı tabe edən, bütün işləri yoluna qoyan, ayələri müfəssət izah edən məhz Allahdır. (Bütün bu dəlilərdən sonra) Rəbbinizlə qarşılaşacağınıza (qiyamət günü dirilib haqq-hesab üçün hüzurunda duracağınıza), bəlkə inanasınız!"[1]

[1] –Rəd surəsi 2-ci ayə.

# V DƏRS

# TƏBIƏTIN SIRRLƏRI ÜZƏ

# ÇIXIR

Bəşər elminin heyrət doğuran inkişafı nəticəsində bizə qaranlıq qalan məsələlər bir-birinin ardınca açıqlanır və bu tərəqqi fiziologiya və praktiki elmlər sahəsindəki yanlış iddiaları əsaslı şəkildə sübut edir. Məsələn "keçmişdə bə'zi bədən üzvlərini" faydasız olduğu güman edilirdi. Ancaq bu gün artıq elm bir çox axtarış və təhqiqatlardan sonra həmin üzvlərin əhəmiyyətli faydalara malik olduğunu sübut etmişdir. Bundan sonra təhqiqat vəsaitlərinin inqkişafı nəticəsində bir çox başqa faydalar da kəşf ediləcəkdir. Bu mövzunun aydın olması üçün aşağıdakı nümunələrə nəzər salaq.

1-Teymus vəzisi: Teymus sinə qəfəsində cənağ sümüyünün altında və hülqumun üzərində yerləşən kiçik bir vəzidir. Teymus vəzisinin fəaliyyəti mə'lum deyildir. Bə'zi keçmiş alimlər bu vəzini lazımsız üzv hesab edirdilər. Lakin bu gün artıq mə'lum olmuşdur ki, Teymus vəzisinin bədənə hücum gətirən biganə amillərin qarşısında göstərilən müqavimətdə böyük rolu vardır.

Bə'zi alimlər belə iddia edirlər ki, insan yetkinlik dövrünə yetişdikdən sonra bu vəzinin cinsi fəaliyyətlərin və bədənin inkişafında əhəmiyyətli tə'siri var. Bu vəzini kəsib götürməklə isə cinsiyyət üzvü süstləşir və bununla da yetkinlik öz vaxtından gec meydana gəlir.

2-Epifis vəzisi: Bu vəzi Teymus vəzisindən də incə bir vəzidir. Epifis vəzisi

beynin daxilində yerləşir. Keçmişdə fiziolaqlar bu vəzinin lazımsız olduğunu güman etsələr də bu gün alimlər sübut etmişlər ki, bu vəzinin cinsi fəaliyyətləri ram etməkdə və vaxtından tez həyata keçən yetkinliyin qarşısını almaqda böyük tə'siri vardır. Həmçinin bundan əlavə onun bir sıra başqa fəaliyyətləri də vardır ki, bu fəaliyyətlərin iş prosesinin pozulmağı ölümlə nəticələnir.

3-Qalxana bənzər vəzilər: Əvvələr həkimlər qalxana bənzər vəziləri lazımsız olduğunu güman edib onları şişdiyi təqdirdə dərhal cərrahiyyə əməliyyatı apararaq kəsib götürürdülər.

Ancaq bü gün artıq mütəxəssislər bu qalxana bənzər vəzilərin bədəndə böyük əhəmiyyət kəsb etdiyini sübuta yetirmiş və onların yalnız zərurət məqamında kəsilməsini məqsədəuyğun bilmişlər.

Bu qalxana bənzər vəzilər leykasitlər ifraz edirlər ki, onlar da öz növbəsində mikrobların qaşısını alır. Bunlar bir istehkam kimi tənəffüs borularının qarşısında duraraq tənəffüsü təmizləyib mikrobları məhv edirlər. Havanın ekologiyası pozulduqda və mikrobldar artdıqda qalxana bənzər vəzilər daha çox fəaliyyət göstərir ki, bu da onların işləməsinə gətirib çıxarır. Aşağıdakı amillər qalxana bənzər vəzilərin kəsilməsinin düzgün olmadığını təsdiqləyir:

a) Bu vəzilərin kəsilməsi boğazda mikrobların işini azadlığına və onların boğaza, hülquma və ağ ciyərlərədaxil olmasına, eləcə də bronxit və ağ ciyərlərin şişməsi kimi xəstəliklərin meydana gəlməsinə səbəb olur.

b) Qalxana bənzər vəziləri kəsdikdə burunun və hulqumun daxili dərisi normal dəri qalınlığından daha nazik olur ki, bu da boğazın və burunun qurumasına səbəb olur. Bundan əlavə boğaz ağrıdıqda qalxana bənzərvəzilər şişərək təhlükə çırağı tək həkimi boğazın ağrımasından tə'yin edilməsi çox çətin olakr və ürək revmatizm və bu kimi xəstəliklərə tutula bilər.

4-Apendisit: Bə'zi alimlər uzun-uzadı təhqiqatlardan sonra bu qənaətə gəlmişlər ki,

apedisit xərçəng xəstəliyinə qarşı mübarizədə böyük rol oynayır və onun məcburiyyət qarşısında kəsilməsi istisna olmaqla kəsilib götürülməsi xərçəng xəstəliyinin özünü büruzə verməsinə səbəb olur.

"Cama" adlı tibbi jurnal yazır: Xərçəng xəstəliyinə tutulması ehtimalı olan şəxslərdə apedisiti kəsib götürməyin bdöyük tə'siri var. Bu iş onlarda xərçəng xəstəliyinin meydana gəlməsinə səbəb ola bilər.

Yuxarıdakı qeyd olunanlrı və yüzlərlə bu kimi digər nümunələri mütaliə etdikdə aydın olur ki, bir şeyin faydalı olub olmamasını tə'yin edə bilmədikdə heç də onu faydasız sanmamalı, əksinə, gələcəkdə onun sirlərinin və göstərdiyi tə'sirlərin elm sayəsində üzə çıxacağını gözləməliyik.

Çünki bəşəriyyətin bir çox nəaliyyətlər əldə etməsinə baxmayaraq hələ ilk mərhələləri keçir və təbiətin yalnız və yalnız cüz'i məsələləri öyrənilmişdir.

Eynşteyn "Nisbiyyət fələsəfəsi" əsərində yazır: "Təbiət barədə aparılmış araşdırmalar bizə çox şeylər öyrətmişdir. Ancaq buna baxmayaraq təbiət sirlərinin əksəriyyəti bizim üçün hələ də müəammalı olaraq qalır."

Vilyam Ceyms deyir: "Mə'lumtımızın bizə mə'lum olmayan şeylərə nisbəti bir damla suyun ucsuz-bucaqsız okeana olan nisbəti kimidir."

Buna əsasən hər hansı bir varlığın sirlərindən xəbərsiz olmaları nəticəsində onu artıq və lazımsız bir şey sanan materialistlər səhv etmirlərmi?! Halbuki, diqqət etsələr bilməməklə olmamaq arasında böyük fərq olduğunu asanlıqla başa düşəcəklər. Insanın bir şeyi bilməməsi heç də həmin şeyin olmamasına sübut deyil.

Aydındır ki, milyardlarla varlıqdan bir-ikisinin xüsusiyyətini bilməmək insana dünyanın heyratəmiz şəkildə nizamlanması vasitəsilə yaradanın şüurlu bir valıq olmasını anlamağa kifayət edər. Əgər elmi və məntiqi məsələlərlə dolu olan bir kitab əldə edib oxuyarkən bir neçə cümlə sizin üçün qaranlıq qaldıqda həmin kitab barəsində necə mühakimə yürüdərsiniz? Dərin düşcələrdən meydana gəlmiş bütün o faydalı

mövzulardan göz yummaq olarmı?! Əsla yox. Elə isə e’tiraf etməliyik ki, (ş’er).

**VII DƏRS.**

**Hər an Allaha ehtiycımız var.**

**Ixtiraçı ilə yaradanın fərqi:**

Aşağıdakı misallara diqqət etsəniz dünyadakı əşyaların öz yaradıcısına nə qədər ehtiyac duyduğunu görəcəkiniz.

1)Təyyarə düzəldənin onu təyyarənin hazırlanmasında nə kimi rolu vavr və onun işi nədir? Təyyarə düzəldən onu sərnişin və ya yük daşımaq üçün filiz hissəciklərini və digər lazım olan materialları lazımi şəkildə və hesablanmış formullar əsasında bir-birinin üzərində yerləşdirir.

Əlbəttə təyyarə düzəldənin işi onun əllərinin hərəkətindən ibarətdir. O, mövcud olan şəraitdə lazımi materialları müxtəlif şəkildə hazırlayır, işini qurtarmaqla əlləri də hərəkətdən dayanır. Lakin təyyarənin filiz hissəciklərinin mühərrik, işıq və oturacağın hazırlanması heç də onu düzəldənin işi deyil. Düzdür, bu hissələr də bilavasitə hazırlayanın əməyi nəticəsində meydana gəlir, ancaq bunların o şəxsə heç bir bağlılığı yoxdur.

2)Istəyirik ev düzəldək və hər cür tikinti materialları da hazırdır. Indi nəyə ehtiyacımız var? Bənna və fəhlə tikinti materiallarını hazırlamaq üçündür, yoxsa hazır olan materialları xüsusi üslubla qurmaq üçün? Aydın məsələlədir ki, tikinti materiallarının hazırlanmasında bənna və fəhləyə ehtiyacımız yoxdur. Bizim yalnız materiallardan istifadə edərək mövcud olan şəraitin vasitəsi ilə nəzərdə tutulmuş evin hazırlanmasında bu şəxslərə ehtiyacımız var.

3)Efel qülləsinin görməyən şəxs onun xüsusiyyətlərini eşitdikdə bir göz qırpımında onu öz zehnində canlandırır və hətta onu zehnində daha da yüksək və camaatın qüllənin yuxarısına qalxmasını da təsəvvür edilən bu qüllə ötən misallardan fərqli olaraq məhz onu öz zehnində təsəvvür edən şəxsə məxsusdur. Təyyarə ilə evin hazırlanması üçün lazım olan materiallar təyyarə və evi hazırlayan şəxsə məxsus deyil, lakin qüllə zehnində təsəvvür edən şəxsin bu təsəvvürü

onun özünə məxsusdur. Elə bu səbəbdən də xəyalda canlanan bir şeyin xarici aləmdə tabeçiliyi yoxdur və təsəvvür edən şəxs öz təsəvvürünü istədiyi qədər genişləndirə bilər. Deməli, zehində təsəvvür edilən surətlərin hamısı bizim öz varlığımızdan yaranır. Biz bu surətləri istədiyimiz vaxta qədər xəyalımızda canlandırar, istədiyimiz anda da onları zehnimizdən uzaqlaşdıra bilərik.

Sonuncu misaldan belə nəticə alarıq ki, başqasının köməyi ilə əmələ gələn heç bir varlığın özü-özlüyündə müstəqilliyi yoxdur və onun hər bir an öz yaradanına ehtiyacı vardır.

Indi gərək yoxluqdan yaranıb varlıqları Allah tərəfindən olan məxluqatın vəziyyəti necədir? Onların da hər an öz yaradanına ehtiyacları varmı? Ola bilər bə'ziləri belə güman etsinlər ki, dünyadakı məxluqatların yaradıldıqdan sonra daha həyat yaşayışlarında yaradana ehtiyac yoxdur? Bu fikir təmamilə səhvdir. Çünki zehnimizdə canlandırdığımız surətlər kimi dünyadakı məxluqatlar da Allahın yaratdıqlarıdır və hər an öz yaşayışlarının davamında yaradana ehtiyacları vardır. Bu mövzunun izahı üçün zehnimizdə öz ixtiyarı ilə yol gedən, danışan və iş görən sün'i bir insan təsəvvür edin. Bu sün'i insan öz varlığında müstəqildirmi?

Mə'lumdur ki, onun varlığı sizin əlinizdədir. Belə ki, siz onu zehninidə canlandırdığınız müddətdə yaşayacaq, zehninizdən çıxardığınız andan e'tibarən puç olacaqdır. Bütün aləmlərin yaradılışının Allah tərəfindjən olması da eynilə bu cürdür. Məxluqatın hamısı Onun yaratdıqları olub özlərinin heç bir şeyi yoxdur. Onların hamısı məhz Allaha möhtacdır. Əgər Allah istəməsə onlar bir an olsun belə mövcud olmazlar.

Allah-təala Qur'ani-Kərimdə buyurur: “Ey insanlar! Siz Allaha möhtacsınız. Allah isə heçnəyə möhtac deyildir, hər cür şükrə layiqdir! Əgər istəsə, sizi yox edib yerinizə başqa bir məxluq gətirər.”[1]

Bu mövzu Islamın daim öz ardıcıllarının diqqətini ona cəlb etdiyi bir həqiqətdir.

---

[1] –Fatir surəsi 15-16-cı ayə.

Məslən Islam namazda səcdədən sonra qalxarkən “Allahın qüdrəti və gücu ilə qalxıb dururam” sözünü deməyi bizə tövsiyə edir.

Biz əgər doğrudan da Allah qarşısında heç bir müstəqilliyə sahib olmadığımıza, xoşbəxtlik yolunda çalışmağımız üçün təkcə Onun bizi muxtar yaratmasına və yalnız Onun geniş yayılmış mərhəmətinin bizə aid olmasına diqqət etdikdə ixtiyarsız olaraq Onun qarşısında alnımızı səcdəgaha qoyub deyəcəyik: “Uca olan və həmd olunan Rəbbim pakdır.”

## VIII DƏRS.

## HEÇ BIR ŞEYƏ

## EHTIYACI OLMAYAN

## ALLAH.

**Sabit və sınaqdan çıxarılmış bir qanun**

Bu dünya kiçik atom zərrəciklərindən təşkil olunmuş maddi bir dünyadır.

Dünyadakı məxluqların hər birinin özünəməxsus məkanı və tə’siri vardır. Elə buna görə də onların iş prosesi və tə’sirləri hər yerdə eyni cür deyildir. Onların tə’sirini7 yetişməsində yaxınlıq və uzaqlığın böyük rolu var.onlara nə qədər yaxın olsaq bir o qədər tə’sirləri də çox olacaq, lakin onlardan nə qədər uzaq olsaq bir o qədər tə’sirləri də az olacaqdır. Hətta mümkündür çox uzaqlığın nəticəsində tə’sirləri təmamilə aradan getsin.

Indi bu məsələnin aydın olması üçün bir neçəsə misala nəzər salaq.

1)Maqnitin gücü bütün məsafələrdə eyni səviyyədə deyildir. Dəmir maqinitə nə qədər yaxın olarsa, bir o qədər yüksək gücl cəzb

edilər. Maqnitdən iki santimetr fasiləsi olan dəmirin cəzb edilməsi qüvvəsi maqnitdən on santimetr fasiləsi olan dəmirin cəzb edilmə qüvvəsindən çoxdur.

2)Venera planetinin səthindəki Günəş hərarəti Yer kürəsinin səthindəki Günəş hərarəti ilə bərabər deyildir. Venera planeti Günəşə yaxın olduğundan daha çox hərarət cəzb edir və buna görə də Yer kürəsindən istidir.

3)Yanan bir lampanın nuru ola bilsin yüz metrə qədər saçsın. Ancaq bütün bu məsafə boyu bu lampanın nuru eyni səviyyədə deyildir. Lampaya yaxınlaşdıqda işığın miqdarı da çoxalır.

4)Şe'r deyən bir şairin və yaxud nitq söyləyən bir natiqin səsi ola bilər əlli metrə qədər çatsın, ancaq bütün bu məsafə boyu səsin səviyyəsi eyni deyildir. Danışana yaxınlaşdıqca səs daha aydın eşidilir, uzaqlaşdıqca isə səs eşidilmir.

5)Hər hansı vəzifə sahibi yalnız öz şəxsi fəaliyyətləri ilə kifayətlənib başqalarından, hətta gündlik vasitələrdən belə istifadə etməzsə, təbii ki, o heç bir nüfuz tapmayacaqdır. Çünki onun şəxsi fəaliyytləri ancaq müəyyən bir ərazini əhatə edir və özündən uzaq olan insanların arasında heç vaxt nüfuz tapa bilməz. Eləcə də əksinə, əgər o başqalarından və gündəlik vasitələrdən istifadə etsə, özündən çox uzaq ərazidə də nüfuz tapa biləcək. Bu nüfuz isə şübhəsiz ki, onun şəxsi fəaliyyətləri nəticəsində deiyl, məhz onu dəstəkləyənlərin təbliği sayəsində əldə olunur. Bununla belə onun öz tərəfdarlarına uzaq və ya yaxın olması onların həmin şəxsi də dəstəkləməsində böyük rol oynayır və uzaq və ya yaxınlıq burada öz tə'sirini göstərir.

Yuxarıdakı misallardan aydın olur ki, məkanı olan hər hansı bir varlığın göstərdiyi tə'sir hər yerdə eyni səviyyədə deyildir. Nə qədər onun məkanına, mərkəz nöqtəsinə yaxın olsaq bir o qədər tə'siri də çox olacaq və nə qədər ondan uzaq olsaq tə'siri də az olacaq.

**Allahın müəyyən bir yeri varmı?**

Ola bilər bə’ziləri belə güman etsinlər ki, Günəş və digər maddi varlıqlar kimi Allahın da məkanı var və o, göylərin üzərində özünə taxt qurub oradan məxluqatın işinə yetişir. Halbuki, heç də belə deyildir. Çünki Allahın yaratdığı bu dünyadakı nizam-intizam hər yerdə eyni səviyyədədir. Dəryaların dibindən tutmuş kəhkaşanlara qədər hamısında nizam-intizam hakimdir. Dünyada elə bir yer tapılmaz ki, orada kifayət qədər nizam-intizam olmasın. Əlbəttə heç də belə təsəvvür edilməməlidir ki, nizam-intizamın bir mərkəz nöqtəsi var və nə qədərp ondan uzaqlaşsaq nizam-intizam getdikcə azalacaq və yaxud tamamilə yox olub hərci-mərclik hökm sürəcək. Əgər Allahın da digər maddi varlıqlar kimi məkanı olsaydı şübhəsiz ki, onun da tə’siri dünya yaradılışında eyni olmazdı. Bunu nəzərə alaraq belə nəticəyə gəlirik ki, Allahın məkanı və mərkəzi yoxdur. Axı məkanın ödzünü də Allah yaratmışdır və heç vaxt  yaradanın öz yaratdığına ehtiyacı olmaz.

Allahın ixtiraçılarla da müqayisə etmək olmaz. Çünik ötən dərslərdə qeyd etdiyimiz kimi ixtiraçılar yaradan deyildirlər. Onların yeganə nəaliyyəti o olmuşdur ki, onlar bir sıra əşyanın xüsusiyyətlərini tanımaqla onları bir-birinə birləşdirib yeni bir vasitə ələ gətirib bəşərin ixtiyarında qərar veriblər. Hətta bə’zi vaxtlar onların özlərinin də ona ehtiyacı olur. Ancaq bütün məxluqatı yaradan Allahın heç vaxt Öz yaratdıqlarına ehtiyacı yoxdur.

**Allah görsənmir?!**

Indi ki, Allahın məkanı olmadığını bildik, onda mə’lum olur ki, O, cisim də deyildir. Çünki cismin məkana  ehtiyacı var və məkanı olmayan heç bir cisim yoxdur. Allah cisim olmadığına görə gözə də görünməz. Çünik göz yalnız cisimləri görür.

**Allahın heç bir şeyə ehtiyacı yoxdur.**

Bütün yemək-içməyi, yaşayış üçün lazım olan avadanlıqlar və eləcə də bütün məxluqatı Allah yaratdığı üçn bunların heç birinə ehtiyacı olmadığını da e’tiraf etməliyik.

Deməli, Allah heç bir şeyə ehtiyacı olmayan kamil bir həqiqətdir. Allahın bəşər kimi yeməyə, yaşayış ləvazimatlarına və məkana eh tiyacı yoxdur. Əksinə, bunların hamısının Ona ehtiyacı var. Ola bilər belə bir sual verəsiniz ki, cisim olmayan, məkanı olmayan və gözə görünməyən Allah bəs nədir? Onun varlığını necə sübut edə bilərik?

Bu məsələnin aydın olması üçün aşağıdakı misala diqqət edin: Biz dey bilərik ki:

Elektrik donmuş varlıq deyildir.

Elektrik maye  deyildir.

Elektrik qaz deyildir.

Diqqət yetirsəniz görərik ki, bu yoxluqların elektrikinvarlığı ilə zeç bir ziddiyyəti yoxdur və elektrikin donmuş, maye, qaz olmaması heç də onun ümumiyyətlə olmamasına sübut deyil. Elektrik var, sadəcə o, bu sadalananlardan fərqli bir həqiqətdir.

Indi isə Allah barəsində deyirik:

Ehtiyacsız Allah cisim deyildir.

Ehtiyacsız Allahın məkanı yoxdur.

Ehtiyacsız Allah gözə görünmür.

Ehtiyacsız Allahın heç bir şeyə ehtiyacı yoxdur.

Bu o deməkdir ki, bu nöqsanların heç birinin varlıqlar mənşəyi olan Allahın məhdud olmayan kamil varlığına yol tapmaz. Onda nə varsa hamısı mütləq kamal və ehtiyacsızlıqdır. Məhz bu xüsusiyyətlər Onun zatının digər məxluqatdan fərqlənməsinə səbəb olar.

Budur Ona inandığımız Allah!

Belə Allahı əql və fitrət qəbul edir və ağıla sahibi olan heç bir insaflı şəxs Onun varlığını inkar etməz. Bu inama diqqət yetirib onu Allahı bəşərin sırasında qərar verən və Onun üçün övlad, cisim və bu kimi bəşər sifətlərini təsəvvür edən dəstənin əqidəsi ilə müqayisə etdikdə pak Islam dininin həmin dəstələrdəqn fərqləndiyini və nə qədər uca olduğunu görürük.

Ümumiyyətlə demək olar ki, materialistlərin bir çoxu həqiqi Allahın (Islamın tanıtdırdığı Allah) layiqincəsinə

onlara tanıtdırılmamasına görə Allahı inkar etmişlər.

## IX DƏRS

## BÜTÜN DÜNYADA

## TÜKƏNMƏZ ELM HÖKM

## SÜRÜR

### Tükənməz elm-ə'la nəticə

Yol çəkilişində itifadə edilən böyük və çox qüvvətli traktorların müxtəlif əhəmiyyətli işlər görməsi onun mühəndisinin elminə bir sübutudr. Belə olan halda e'tiarf etməliyik ki, onun mühəndisi fiziki formul və mexaniki qanunları çox gözəl bilmişdir.

Bəşəriyyətin bütün ixtiraları ixtiraçının böyük iste'dada malik olduğunu göstərir.

Nəticəni dəqiq və ə'la dərəcədə olması ixtiraçının elminin yüksək və kamil olmasını göstərir.

### Müqayisə ediləsi deyil

Bu dünyanın əzəmət və sirləri bir traktor, yaxud bəşərin başqa düzəltdikləri ilə müqayisə ediləsi bir şey deyildir. Dünya məxluqlarındakı saysız-hesabsız incəliklər zehinlərdə Allahın sonsuz elmini canlandırır.

Indi aşağıdakı misallara diqqət edin.

1)Nyuton deyir: “Biz qulaq və göz barəsində mütaliə etməklə başa düşürük ki, qulağı yaradan səs barəsindəki bütün qanunlardan, gözü yaradan isə görmə

barəsindəki bütün qanunlardan tamamilə xəbardar olmuşdur. Səmalardakı nizam-intizam barədə mütaliə etdikdə onları xüsusi nizamlıq ilə idarə edən böyük bir həqiqətin olduğunu düşünürük.”

2)Adi bir yaradanın bədən quruluşu həddən artıq heyrətləndiricidir. Bu heyvan qaranlıqda heç bir maneəyə rastlaşmadan yolu tapması üçün radar kimi fəzada dalğalar ötürür. Əgər yolun üstünədə maneə olsa dalğalar ona dəyib geri qayıdar və beləliklə yarasa özü yolunu axtarıb tapır.

3)Əsəb sisteminin ən geniş hissəsi beyin pərdəsidir. Bu pərdə çox nazik təxminən 1/5mm-dən 4mm-ə qədər olub bütünlüklə hüceyrələrlə əhatə olunmuşdur. Bu pərdənin genişliyi isə təxminən 2300 kv sm-dir. Bu pərdədə təxminən 9/3 milyard əsəb hüceyrəlsi yerləşir. Bunların hamısı bir-birinin üzərində yerləşmişdir.

4)Həşaratların kiçik olmasına baxmayaraq çox heyrətləndirici incəliklərdən təşkil olmuşlar. Məsələn olnların adi göz əvəzinə mürəkkəb gözləri var. Bu göz omatid adlı görmə zərrələrindən təşkil olmuşdur. Görmə hissələrinin hər biri adi göz kimi (xaricdən daxilə tərəf) bütünlüklə pərdələrdən təşkil olunmuşdur.

Omatid zərrəciklərin sayı həşaratlarda müxtəlifdir. Gecə parıldayan böcəkdə 2500, “Asiyabək” böcəyində isə 10000-dən 28000-ə qədərdir. Həşaratlar başlarını fırlada bilmədiyi üçün arxa və ya kənarlarında yerləşən əşayları bu gözlərin vasitəsi ilə müşahidə edirlər.

Yuxarıdakı misallardan aydın olur ki, dünyanı yaradan tam diqqətlə və öz tükənməz elmi ilə məxluqları yaratmışdır. Indi belə bir sual meydana gəlir ki, Allah dünyanı yaratdıqdan sonra onun hər bir şeyindən xəbərdardırmı?

Bəli.

Allah həzr bir şeydən, hardan-hara qədər olur-olsun xəbərdardır.

Uzaqda yerləşən ulduzlardan səmalara .......

Dağların ətəyində yerləşən dərələrdən ......

Yarpaqların sakit küləyin vasitəsi ilə əsməsindən ........

Meşələrdə səslənən bülbüllərin qəmli səsindən ........

Budaqların və yarpaqların arasında yerləşən böcəklərdən .........

Bütün dünya sularında yerləşən saysız-hesabsız balıqlardan, onların rənglərindən və növlərindən ..........

Ağaclar arasında təzə doğulmuş gözəl ceyran balalarından .........

Daşlar arasında bitmiş mirvari qönçələrdən ...........

Bəli, Allah hər şeydən ucalan dağların yüksəkliyindən, bükülmüş səmalardan, uzanan dərya və səhralardan, gizli mə'dənlərdən, mağaralardan xəbardardır.

**Allahın buyurduğu kəlam nə qədər gözəldir!**

"Qeybin açarları Allahın yanındadır. Onları ancaq O (Allah) bilir. Allah suda və quruda nə varsa bilir. Yerə düşən eli bir yarpaq yoxdur ki, Allah onu bilməsin. Yerin zülmətləri içində elə bir toxum, (kainatda) elə bir şey yoxdur ki, açıq-aydın kitabda olmasın!"[1]

**Nə üçün Allah alimdir**

Çünik xaliq və yaradan öz yaratdığına tamamilə agahdır və həmişə diqqəti onun üzərindədir. Necəki biz öz xəyallarımızda yaratdığımız surətlərdən qafil deyilik və tam diqqətimizi onlara yönəldirik. Hər nə qədər istəsək onları xəyallarımızda saxlayaraq. Ancaq diqqətimizi onlardan kəsdikdə isə yox olurlar.

Əgər siz xəyalınızda bir insanı təsəvvür etsəniz, mütləq onun bütün hərəkətlərindən də xəbərdar olacaqsınız və heç vaxt onun işləri sizin üçün gizli qalmayacaqdır. Axı xəyalınızdakı insan sizin öz zehni təsəvvürünüzdür.

Belə ki, o, təsəvvür edilməzdən qabaq yox idi, siz isə onu təsəvvürünüzlə yaratdınız.

[1] –Ən'am –59-cu ayə.

Dünya və dünyadakı Allah da onlardan əsla qafil olmaz. Əlbəttə bizim xəyalımızda surətləri yaratmağımızla Allahın dünyanı yaratmasında fərq budur ki, bizim özümüzün də həqiqətdə Ona ehtiyacımız və varlığımız Onun sayəsindədir. Ancaq Allah hər cəhətdən və hər kəsdən ehtiyacsızdır. Bütün məxluqları yaradan da Odur. Elə buna görə də yalnız Onu həqiqi yaradan adlandırırıq.

**Yaradanla düzəldənin fərqi**

Kompüteri düzəldən şəxs onun yaradanı sayılmır. O, sadəcə olaraq mövcud olan şeyləri texniki yollarla xüsusi bir şəxslə salmışdır. Gələcəkdə daha bu qurğunun hesablanmasından, bu və ya digər sənədi özündə arxivləşdirərək yaddaşında saxlamasından xəbardar deyillər. Çünki onlar öz düzəltdiklərini icad etməmiş yoxluqdan varlıq yaratmamışlar. Onlar yalnız xarici aləmdə hazır olan olan maddələri bir-birinə birləşdirməklə şəkillərini dəyişdirhmişlər. Məsələn, təyyarənin düzəldilməsi üçün işlədilən materialların hamısı xammal olaraq mə'dənlərdə yerləşir. Bu materiallar çıxarılıb əridilərək qəlbə salındıqdan sonra təyyarə şəklini özünə alır.

Deməli, ixtiraçılar öz düzəltdiklərini yaratmamış, əksinə, maddələrin şəklini dəyişiblər. Elə buna görə də öz düzəldiklərindən həmişə xəbardar deyillər. Elə isə onları yaradan və xəlq edən adlandırmaq olmaz. Bə'zi vaxtlar onların yaradıcı adladırılması isə məcazi və qeyri-həqiqi mə'nadadır.

Hər bir şeyi yaradan Allah isə həmişə onların işindən xəbardardır. Çünki həqiqi yaradandır.

Qur'ani-Kərim buyurur:

-Məgər yaradan sizin gizli saxladığınız hər şeyi bilməzmi?[1]

Indi bilirik ki, biz və bütün dünya məxluqları əzəmətli Allahın hüzurundan uzaq deyilik. Hər yerdə olsaq, hər hansı öölkəyə səyahət etsək dəryaların dərinliyinə,

[1] –Mülk-14.

göylərin qəlbinə, dərələrin dibinə belə getsək yenə Onun diqqətindən gizli olmayacağıq. Zərrə qədər yaxşı və ya pis iş görəni görür, onun mükafatını və yaxud cəzasını verəcək.

Məgər belə Allahı olan və ona iman gətirən bir şəxs heç günahın, pisliklərin dalınca gedərmi?...

## X DƏRS

## BACARIQ VƏ

## HAKIMIYYƏTDƏ TƏNHA

### Sirli və geniş dünya

Məxcluqların hər birinin yaradılışına azacıq diqqət yaradanın misilsiz qüdrətini ağılda cilvələndirir. Misald olaraq aşağıdakı nümunələrə diqqət yetirin.

1)Insan bədənin müdafiə orqanı uzun müddətdir ki, fizioloqların diqqətini özünə cəlbetmişdir.

Bədənin müdafiə edici orqanı (Lymphe) lənəfavi vəziləri,[1] (Thymus) Təymus vəzisini dalağı, qara ciyəri və sümüyün iliyini əhatə edən dolaşıq bir orqandır. Bu üzvlərdəki hüceyrələrin quruluş cəhətindən bir-birilə fərqlənməsinə baxmayaraq eyni məqsəd güdürlər.

O, da mikrob və zəhər kimi yad ünsirlərin qarşısında müqavimətdir. Bu

[1] –Lənafavi- Leykositlərin bir növüdür.

əsnada lənəfavi vəzidə mərkəzləşən leykositlər böyük rol oynayır.

Xaricdən bədənə hər hansı bir cism daxil olduqda (7-30 mikrona qədər ölçüsü olan) leykositlərin diqqəti dərhal mikrobların yollarla xətlərin genişlənməsinin qarşısını alır.

Bədən bu mövcudların köməyi ilə yad ünsürlərlə mübarizədə müxtəlif üslublardan istifadə edir və xaricdən daxil olna hər hansı bir cismin qarşısında onu tə’sirsiz etmək üçün “Antikkur” və ya “Padtən” maddə hazırlayır.

Bədəndə hazırlanan padtənlərin müxtəlif növləri var. Onlardan bə’zisi yalnız mikrobu parçalayıb məhv edir, bə’zisi heyvanların həşaratların dərmanların zəhərini məhv edir. Bə’zisi mikrobların fəaliyyətinin qarşısını alır, bə’zisi zəhərli maddələri zəiflədir və başqa bir qismi isə (digər şəxsin qanının bədənə köçürülməsi nəticəsində) yad elektrositlərin daxil olduğu zaman fəaliyyət göstərir.

Maraqlı məsələlərdən biri də budur ki, bədən hər hansı xarici maddənin (hətta elmin indiyədək kəşf etmədiyi maddələrin) qarşısında ona uyğun padtən hazırlamağa qadirdir.

2)Palmar dağəndakı Leon rəsədxanasının rəisi Atezoni kitabında deyir: “Palmar rəsədxanasının teleskopunu düzəltməmişdən qabaq dünyanın genişliyi bizim nəzərimizdə 500 illik işıq məsafəsi qədər idi. ancaq bu teleskop bizim dünyanın genişliyinin 1000 illik işıq məsafəsində olduğunu göstərdi. Nəticədə milyonlarla yeni kəhkəşanlar kəşf edildi. Hətta bu kəhkəşanların bə’zisi milyon illik işıq məsafəsi qədər bizimlə fasiləsi var. Lakin milyon illik işıq məsafəsi qədər fasilənin ardından böyük, əzəmətli və qaranlıq bir fəza görünü. O fəzada heç bir şey görünmür, yə’ni, işıq oradan ötüb keçmədiyi üçün rəsədxanasının teleskopu heç bir şey göstərmir. Ancaq şübhəsiz ki, o böyük və qaranlıq fəzada bimz dünyanı öz cazibə qüvvəsi ilə saxlayan 100 milyonlarla kəhkəşanlar yerləşir.

Gözə çarpan bu əzəmətli dünya 100 milyon kəhkəşanları ilə böyük bir dünyanın kiçik zərrəsindən başqa bir şey deyildir. Hələ

mən inanmıram ki, o yanın fəzasının ardında başqa bir dünya olmasın.”

Bizim rəhbərimiz Əmirəlmö’minin Əli (ə) buyurur:

“Pərvərdigara, Sənin hikmətindən biz yalnız bu qədər anlayırıq ki, Sən sağsan, heç kəsə ehtiyacın yoxdur və Sən əsla yuxulamırsan.

Heç fikir Səni anlaya bilməz və heç bir göz Səni görməz.

Sən isə gözləri görür hamının ömründən xəbardarsan və hər bir şeyə qüdrətin yetir.

Sənin yaradılışından bir şey dərk etiməməyimizə baxmayaraq, Sənin qüdrətin qarşısında heyranıq, əzəmət və hökmranlığın qarşısında baş əyirik.

Halbuki qeybdəki qeyb pərdəsinin cnəticəsində gözlərimizin görə bilmədiyi, ağlımızın da düşünə bilmədiyi bizə gizli qalan şeylər[1] çox böyükdür.”

[1] –Nəhcül bəlağə. 159-cu xütbə.

Bəli, Allah misilsiz qüdrəti ilə hər bir şeyi yaradıb və heç bir şey Onun hökmranlıq çərçivəsindən kənar deyildir.

Yaradılmış bu dünyanın varlığı məhz Allahın istəyi ilədir və hər nə qədər istəsə öz yerində qalacaq. Ulduzlar, ay, günəş və başqa planetlər Onun qüdrəti ilə dövr edib hərəkətə gəlirlər. Yaradılmış dünyanın nizamı Onun əlindədir. Istədiyi vaxt onu aradan aparıb yeni aləm yaradır. Belə deyil ki, dünyanı yaratmış və ondan əl çəkmiş olsun. Əksinə, hər bir şeyin hərəkəti, döyüntüsü, varlığı və davamı Onun istək və ifadəsi ilədir. Onun istək və iradəsi olmadan heç bir şey nə yarana bilər nə də öz varlığını qoruyub saxlayar. Elə isə yaradan, saxlayan, nəzarət edən və hökm edən Allahdır.

**Təbiət nizamından üstün bir nizam.**

Doğrudur ki, Allah  bu dünyada təbiət nizamı yaratmışdır və elə bu təbiət nizamına əsasən gələcək, hadisələri heablayıb tə’yin etmək olar. Ancaq bə’zi hallarda Allah  Öz geniş yayılmış qüdrətinin bir hissəsini

cilvələndirir və Öz istəyi ilə təbiət nizamına hakim olan üstün bir nizam yaradır.

Bu üstünlük təşkil verən nizamın nümunələri tarixdə və gündəlik həyatımızda gözə çarpır. Belə hallarda Allahın dünya işlərinə daha da artıq nəzarət etməsini müşahidə edirik. Gah miskinləri əziz edir, gah da əzizləri miskin edir. Buna görə də Allaha möhkəm inamı olan insanlar həyatdan heç vaxt naümid olmurlar. Onlar hər hansı çıxılmaz vəziyyətdə yenə də qəmli sinələrinin qaranlıqlarında ümid şö'ləsi yanır və Allahın köməyi ilə nicat tapmaqları üçün özlərinə təsəlli verirlər...

Musa (ə) ilə Fir'onun hekayətini hamımız oxuyub eşitmişik. Fir'ona zülmkarlıqda çatan olmazdı. O, Bəni-Israildə yeni doğulan oğlan uşaqlarını öldürtməklə güman edirdi ki, bu tədbir və cəhdləri ilə Allahın köməkliyinin qarşısını ala biləcək. (Ona xəbər verilmişdi ki, Bəni-Israşildən bir kişi onun tax-tacını dağıdacaq).

Ancaq onun zəhmətlərinin hamısı əbəs yerə idi. Nəhayət və'd edilmiş körpə dünyaya göz açmışdı! Uşağın anasına ilşam olduki, uşqağı bir qutuya qoyub Nil çayına buraxsın. Nil çayı onu Fir'onun qəsrinə apardı. Fir'onun həayt yoldaşı qutunu gördükdə sudan çıxartdı. Elə ki, qutuda körpəni gördü Fir'ondan onu övladlığa qəbul etməyi xahiş etdi. Allah Öz qüdrəti ilə Fir'onun qorxduğu körpəni onun öz sayəsində qoruyub saxladı. Elə ki, uşaq böyüdü Fir'onun taxt-tacını alt-üst etdi.

Eləcədə Allah Öz qüdrəti ilə Yusfin tamahkar qardaşlarının tədbir və hiylələrini boşa çıxartdı. Quyuya düşmüş Yusifi quyudan çıxarıb Misirin padşazı etdi...

Məkkənin kafirləri də sözləşmişdilər ki, Islamın əziz Peyğəmbərini aradan götürsünlər. Müsəlmanlara əziyyət verirdilər, hətta peyğəmbəri səhabələri ilə birlikdə bir neçə il Əbutalibin şə'bində iqtisadi mühasirədə saxladılar. Nəhayət belə qərara gəldilər ki, peyğəmbəri öldürsünlər. Elə güman edirdilər ki, bu tədbir və hiylələri ilə öz məqsədlərinə çatacaqlar. Lakin Allahın iradəsi və qüdrəti peyğəmbəri qoruyub

saxlayaraq islamı günbəgün ucaltdı, qüreyş və müşriklərin isə xar etdi.

Sadaladıqlarımızdan bu kimi digər nümunələrdən belə nəticəyə gəlirik ki, mövcud olan dünyanın nizamı qüdrətli Allahın əlindədir və dünyanın hər bir işi Onun izni ilə baş verir.hər vaxt istəsə və məsləhət olsa təbiət nizamına hakim olan başqa bir nizam yaradar.

Indi əql və fitrət bu əzəmətli və mehriban qüdrətin qarşısında təşəkkür etməyi, eləcə də bəndəlik qaydasına riayət edib yaradanla müxalifətçilik etməməyi bizə əmr edir.

Allahın qüdrəti bizləri müxtəlif mərhələlərdən keçirərək iste'dad və əqlin bu mərhələsinə yetirib. Indi onu unutmaq bizə yaraşırlarmı?

Allahı tanıyıb belə bir qüdrəti və alim arxası olduğunu başa düşən şəxs heç bir çətinlikdən qorxmaz. Belə bir şəxsin nəzərində qarşısına çıxan hər bir çətinlik həll ediləisdir. Nəticədə Allaha imandan qidalanan sınmaz iradə ilə öz məqsədinə çatmaq üçün çalışır və heç bir maneədən qorxmur. Çünki həmin, şəxs onu bütün çətinliklərdən qalib çıxarmağa qüdrəti olan əzəmətli bir qüdrətin sayəsi altında görür.

Əziz peyğəmbərimizin böyük dəstələrin, ağır hadisələrin qarşısında durmağa, bütün çətinliklərlə mübarizə etməyə, yeganə Allahı ibadət etməyin əsasına möhkəmləndirmək insanlıq və fəzilət məktəbinin təməlini qurmağa güc verən məhz Allaha və Onun misilsiz qüdrətinə inam və iman olmuşdur.

Əgər insanın qəlbi dünyanı yaradan Allaha imandan coşub daşsa və həqiqət aşiqliyi iəl dalğalansa heç vaxt özünü tək, həvəssiz və ümidsiz təsəvvür etməz. Daim Allahın nuru onu qəlbinin guşələrini işıqlandırar. Təbii ki, belə bir şəxs özünü daha artıq eşqlə, məhəbbətlə gözəl və yaxşı yaşamaq üçün hazırlayır.

## XI DƏRS

## YALNIZ ALLAHA IBADƏT EDIRIK

Bəşər dünyaya qədəm qoyduğu gündən həmişə məxluqların başlanğıc və illətini dərk etməyə çalışıb və çalışmaqdır. Illəti və həqiqi başlanğıcı sitayiş etmək üçün axtarmaq insanın pak fitrətini tələb etdiyi xüsusiyyətdir.

Cəmiyyətdən və adət-ən'ənlərdən uzaq yaşayan insan ilk dəfə öz ətrafına baxdıqda torpağı, asimanı, gecə-gündüzü, günəşi, ayı, ulduzları və onların çıxması və batmasını, habelə küləyin əsməsini, yağışın yağmasını, fəsillərin dəyişməsini, otların cücərməsini, ağacların bar verməsini, müxtəlif heyvanların hərəkətini, artımını, qidalanmasını və təlabatlarının ödənilməsini müşahidə edir. Özünə baxdıqda da ayaq, göz, qulaq, burun, ağız, diş və digər üzvlərində hər birinin öz işini gördüyünü və hamının birlikdə insanın yaşamasını tə'min edən yeganə məqsəd güddüyünü görür. Sonra onların bir-biri ilə necə əlaqələndiyi barədə fikirləşdikdə onların sıx əlaqədə olmasını və bir-birinə bağlılığını başa düşür. Belə ki, onlar vahid bir nizam-intizamın onda hakim kəsilmiş vahid bir orqanı təşkil edirlər. Bu vahid nizam-intizamda aşağıdakı xüsusiyyətlər insanın diqqətini özünə cəlb edir:

1)Bu nizam-intizamın mütləq bir yaradakı olmalıdır. Çünki bu heyrətləndirici nizam-intizam adi bir təsadüf nəticəsində yarana bilməz.

2)Bunların hamısının birlikdə bütün hissələrin ayrı-ayrılıqda (o cümlədən insanın) yaradılışında bir məqsəd vardır. Bunlar əbəs yerə yaradılmamışdır.

3)Belə quruluşun yaradanı qüdrətli və böyükdür. Onun qarşısında baş əymək lazımdır. Deməli, onun əzəməti qarşısında baş əyib ona sitayiş və ibadət etməliyik.

4)Bu böyük yaradan bu quruluşun hər bir hissəsindən, eləcə də baş verən hər bir hadisədən, o cümlədən insanların əməllərindən agahdar və həhr bir şeyi əhatə etmişdir.

buna əsasən insanın öz Allahını ibadət etməsi üçün heç bir vasitəyə ehtiyacı yoxdur. Ibadət yalnız Allaha edilməli, mələk, ulduz, büt, övliya və apk insanları vasitə kimi ibadət etmək yersizdir.

## Bəşərin tövhiddən sapmasının səbəbləri

Qeyd olunanları hamısı hələ düşüncəsi mühitin yanlış adət-ən'ənələrini və ailənin səhv tərbiyəsi ilə pozulmamış insana aiddir. Bəşər təbiətinin və əxlaqının yeganə varlığı ibadət etməsini tələb etməsini tələb etməyin mə'nası da məhz budur.

Indi gəlin görək bəşərin fitrətin əsas yollundan şirkin əyri yoluna çəkən səbəblər nədir. Biz onlardan bə'zilərini burada qeyd edirik:

1)Bütpərəstlərin bə'ziləri deyirdilər: "Allah bizim əql və düşüncəmiz çərçivəsindən xaric olduğuna və Ona üz tutub ibadət etmək üçün heç bir cəhət olmadığına görə çarəsiz qalıb. Allahla öz aramızda vasitə olub bizi Allaha yaxınlaşdırmaq bə'zi Onun dərgahına yaxın və hörmətə malik olan bə'zi əşya və insanları özümüzdən razı salmaq üçün ibadət edirik." Bunların bu məsələdən xəbəri yoxdur ki, Allahın heç bir cəhət olmamasına baxmayaraq O, hər bir şeyi əhatə etmiş və hər yerdə vardır. Buna əsasən hansə tərəfə üz tutsaq, Allahın pak zatını önümüzdə görəcəyik. Elə isə Onun müqəddəs dərgahına baş əyib vasitəsiz şəkildə Ona sitayiş edə bilərik. Qur'ani-Kərim də bir daha bu mə'nanı vurğulayır: "Hansı tərəfə yönəlsəniz (üz tutsanız) Allah ordadır."[1]

2)Bə'zi vaxtlar qəbilənin hörmətli adamı öldükdən sonra onun hörmət və xatirəsini yaşatmaq məqsədilə onun böyük bir heykəlini düzəldirdilər. Allahın ibadət etməklə yanaşı həmin heykələ də baxırdılar. Getdikcə camaatın diqqəti Allahdan yayınırdı. Heykələ ehtiram isə özünə ibadət şəklini alır və bütlər düzəldərək ibadət edilməsinə səbəb olurdu. Tarixi faktlar da bunu təsdiqləyir. Məsələn Qabilin övladları öz böyüklərinin xatirəsini yaşatmaq üçün onun abidəsini düzəltmiş, lakin getdikcə ona həddən artıq çox ehtiram bəsləməkləri onun qarşısında torpağa alın qoyub ona ibadət etmələrinə səbəb oldu.[2] Sonrakı nəsillər öz ata-babalarının əqidə və təsəvvürləri

---

[1] -Bəqərə-115.

[2] -Biharul ənvar 3-cü cild-səh 250.

barəsində diqqətsiz olub düşünmədikləri üçün hid fitrətdən uzaq düşüb qapalı şirk yolunda azdılar.

**Dinlərin müşrikliyə qarşı mübarizəsi**

Səmavi dinlər daima insanları qapalı şirk yolundan düzgün tövhid yoluna yönəltməyə çalışmışdır. Qur'ani-Kərim ulu peyğəmbərlərin şirki yıxırdıb insanların diqqətini yeganə Allaha gəlb edilməsi üçün apardıqları fəaliyyətləri qeyd edərək tə'rifləyir.

O cümlədən Həzrət Ibrahim (ə) buyurur:

Bu bütlər nədir ki, onlara ibadət edirsiniz?

Dedilər:-Biz dədə-babalarımızın bizdən qabaq axtarıb qədəm qoyduğu yolu davam etdiririk.

Ibrahim (ə) öz-özündə belə qərara gəldi ki, o ağılsızları eşitmək və görmək yolu ilə başa salsın. Buna grə də bir gün bütxanaya daxil olub bütləri balta ilə sındırırdı. Camaat bu hadisədən xəbər tutduqda bərk qəzəblənib Ibrahim (ə) dedi: Bizim Allahlarımıza qarşı bu işi görmüsən?

Onlar Ibrahimə (ə)-ın cavabdan öz adət və əqidələrinin əbəs olduğunu başa düşdülər.

Ibrahim (ə) buyurdu: Onların özlərindən soruşun.

Onlar fikrə getdikdən sonra xəcalətlə dedilər:

-Sən özün bilirsən ki, bunlar danışa bilmirlər.

Ibrahim (ə) buyurdu: Bəs nəyə görə hətta özlərini belə müdafiə etməyə qüdrəti olmayan bütlərə ibadət edirsiniz? Nə üçün düzgün fikirləşmirsiniz?[1]

Bu dahi rəhbərlər həmişə xatırlayıblar ki, hər hansı vəziyyətdə və hər bir yerdə Allahla bilavasitə əlaqə saxlamaq mümkündür və yalnız əzəmətli Allahın hüzurunda baş əyilməlidir. Ibadətdə uca Allahdan başqa heç bir şey və heç bir şəxs nəzərdə tutulmamalı, ibadət və sitayiş yalnız yeganə Allaha olunmalıdır. Hətta əgər ibadətdə Allahdan

[1] -Ənbiya 51-70-ci ayələr; Saffat 82-98-ci ayələr.

başqasına azacıqda olsa diqqət yönəlsə, yə’ni, ibadət həm Allah üçün, həm də Allahdan başqası üçün yerinə yetirilsə, o ibadətdən zərrə qədər də qəbul olunmaz.

## TOVHIDIN NƏTICƏLƏRI

### 1-Şəxsiyyət və azadlıq

Allahı yeganə bilib Onun hər bir şeyə alim və qüdrətli olmasına, bütün məxluqları yaratmasına əqidəsi olan şəxs heç vaxt başqalarının qarşısında yaltaqlıq etməz. Hətta ən güclü qüdrətlər və ən böyük sərvətlər o şəxsi bəndəliyə və baş əyməyə vadar edə bilməz. Bu cür şəxs yalnız yeganə Allahın qarşısında baş əyib səcdə edir və yalnız Onun əzəməti qarşısında alnını torpağa qoyur.

Qədim iranlılar diktator padşahları Allahın nişanələri zənn edib onların qarşısında məntiqsiz şəkildə təslim olaraq öz şəxsi və ictimai azadlıqlarından məhrum olurdular.

Qadisiyyə döyüşündə ərəb sərkərdəsi Iran sərkərləsi ilə görüşərkən iranlıların yaşayış rifahına e’tina etmədən yerə əyləşdi. Sasani sərkərdəsi ondan ərəblərin məqsədini soruşduqda o cavab verib, dedi: “Allah bizi camaatı insanların ibadətindən Allah ibadətinə, köləlikdən azadlığa və batil dinlərin zülmündən Islam dininə ədalətinə də’vət etmək üçün göndərmişdir.”[1]

### 2-Həqiqi və cahanşümul ədaləti

Tövhid sayəsində Allaha ibadət edənlərin heç birinin hikmət və ədalət əsasında nizamlanmış Ilahi qanunlara tabe olmaqdan başqa bir çarələri yoxdur. Aydın məsələdir ki, Ilahi qanunlara tabe olmaq əsl ədalətin genişlənməsinə və hər cür zülmün məhv olub aradan getməsinə səbəb olacaq. Tövhiddən fərqli olaraq bütpərəstlər və müşriklər isə heç vaxt öz aralarında əsl ədalət bərpa edə bilməzlər. Çünki hər qəbilə özünə bir Allah seçərək ona arxalanıb digər

[1] -Tarixi-Təbəri, cild 5, səh.2269-2271.

qəbilələrə təcavüz edir, bunun nəticəsində də əsl ədalət aradan gedir, onun yerini isə cahillik, ayrıseçkilik, zülmkarlıq və zorakılıq tutur.

Söylədiklərimizdən bu nəticəni alırıq ki, həqiqi tövhid sözün əsl mə’nasında insanı azad, sağlam düşüncəli, birlik və xatircçmlik əsasında tərbiyə edərək zülm, təcavüz və ayrıseçkilik toruna düşməsinin qarşısını alır. Dediklərimizdən aşağıdakı müqəddəs kəlamın mə’nası bizim üçün aydın olur:

“Nicat tapmağınız üçün sidq ürəklə deyin ki, Allahdan başqa Allah yoxdur.”

## XII DƏRS

## HANSI BIRI:

## HÖRMÜZ VƏ

## AHURAMƏZDA, YOXSA

## YEGANƏ ALLAH?

### Yaxşılıqlar və pisliklər

Sənəviyyə (yə'ni ikiliyin qəbul edən) adlı bir dəstə dünya məxluqlarını iki cür təsəvvür edirdilər: Xeyir və şər. Buna əsaslanaraq dünya üçün iki başlanğıc iddia edərək deyirdilər ki, yaxşılıqlar hörmüzdən, opisliklər isə Ahuraməzdadan meydana gəlmişdir. Onlar bu düşüncələri ilə istəyirdilər Allahı hər bir eyb, nöqsan və pislikdən pak bilsinlər. Lakin başqa bir tərəfdən şirkə düçar olub Allaha şərik qoşmalarından xəbərsiz idilər. Digər tərəfdən də dünya məxluqlarını xeyir və şər olaraq iki hissəyə bölməkdə də səhv etmişlər. Çünki əgər dünyanın ümumi nizamına diqqət etsək, mə'lum olar ki, dünyada heç bir xeyr və şər mövcud deyil əksinə, "hər bir şey öz yerində gözəldir." Eləcə də onlarn elə düşünürlər ki, pisliklər yaxşılıqlardan ayrıdır və bunun nəticəsində də bu çətinliyi həll etmək üçün dünyanın 2 başlanğıcından meydana gəlməsini iddia edərək deyirlər ki, yaxşılıqlar bir başlanğıcından, pisliklər isə başqa bir başlanğıcından meydana gəlir. Halbu ki, bir çox hallarda diqqət etdikdə mə'lum olur ki, bu iki dəstənin varlığının bir-birindən heç də ayrı deyillər. Məsələn, yağış əkin sahələrinə lazımlı olduğu üçün yaxşıdır, lakin həmən yağışı başqa bir şəxs ümümi baxışla baxdıqda pis bilib deyə bilər ki, yağış kasıbların samanlı palçıqdan düzəldilmiş evlərini uçurur.

Sənəviyyələrin irəli sürdüyü çıxış yolu ilə çətinliklər həll olmur. Çünki bu yağışın yaxşılığının varlığı pisliyinin varlığından heç

də ayrı deyil yə’ni, onlar iki varlıq deyil ki, biri (yaxşı) bir Allahdan, digəri isə (pislik) başqa Allahdandır.

Ancaq Islami mətinlərdən (yə’ni Qur’andan, rəvayətdən) istifadə edilən və sağlam əqlin təsdin etdiyi çıxış yolu bundan ibarətdir ki, əgər bütün şeyləri məsələn susuzluq, aclıq, soyuq, istilik sinirlərin həsasiyyəti və bu kimi şeylərin birini yaxşı zənn etməyən üzdən baxan bir şəxsin görünüşü ilə baxsaq və bunları təklikdə deyil, dünya nizamının bir hissəsi kimi nəzərimizə gətirsək, bunların hamısının dünyanın ümumi nizamında lazımlı  və yaxşı olduğunu müşahidə edəcəyik.

Indi gəlin dediklərimizi daha köklü şəkildə araşdıraq.

**Təhlükdən qaçmanın səbəbləri**

Insan bədəni ət və sümükdən təşkil olub daima təhlükə qarşısındadır. Təkcə bir parça od bir neçə dəqiqə ərzində onu kül etməyə qadirdir. Həmin bədənin kəsici və dağıdıcı şeylər ilə üzləşməyə də taqəti yoxdur. Adi bir zərbə və toqquşma insan bədənini dağıtmağa kifayət edir.

Allah insanın təhlüklərdən amanda qalması üçün bədəndə də bir sıra xəbardaredici qüvvələr yaratmışdır.

1)Ilk baxışda bədən də heç də müsbət rol oynamadığını güman etdiyimiz aclıq və susuzluq hissi bədəndə böyük rol oynayır. Bu hissiyat milyardlarla canlı hüceyrənin həyatını qoruyur. Əgər insanda bu hisiyyat olmasa, bədən hüceyrələri su və yemək çatışmazlığı nəticəsində zəifləyir və beləliklə də insan labüd ölüm təhlükəsi ilə üzləşir.

2)Sinirlərin həssaslığı ağrı hiss edilməsi Allahın insana verdiyi ne’mətlərdən biridir. Insan sinirləri azacıq narahatçılıq hiss etdikdə xətər zəngini səsləndirərək insanı ona əlac etməyə vadar edən dəqiq telefon naqilinə bənzəyir. Əgər ağrı hissi olmasa, xəstələr müalicə fikrinə düşməzlər. Əgər sinirlər narahatçılığı dərk teməsə, yaxud ondan qafil olarsa, dəri ət odla əlaqədə olarkən yanıb kül ola bilər, yaxud da bərk və isti əşyalarla üzləşdikdə tamamilə dağılıb sümüklə sına

bilər. Deməli, bu hisslərdə qatılıq və sərtlik görürüksə, bilməliyik ki sərtliyin bu dərəcəsi təhlükə e'lan edən qırmızı işıqdan başqa bir şey deyil. Bu sərtlik insana sağlamlıq yolunun yenidən açılıb həyatının davamı üçün öz varlığının sağlamlığı barəsində daha da artıq tələsməyi bildirir.

## Insanın çətiniliklər qucağında böyüməsi

Alimlər deyirlər ki, təbiət aləmi təkamül dünyasıdır. Təkamülə yetişmək isə çətinliklərlə bağlıdır. Çünki insan ruhunu möhkəmləndirərək onun polad kimi vücudunu bərkidən məhz çətinliklər nəticəsində meydana çıxır. Insan varlığının tərbiyəsi elə bir mərhələyə çatmalıdır ki, onun nazla bəslənmiş vücudu çətinliklərin tə'siri nəticəsində parçalanıb daxildən xaricə yol taparaq öz təkamülünə yetişməlidir. Dahi şəxslər həyatlarında bir çox acılıqlar, böhranlar və çətinliklərlə rastlaşan insanlardır. Napaleon deyirdi: "Çətinliklər insanın iste'dadını artırır."

Çətinliklər və müşkülat bəşərin yatmış qüvvələrini oydan amillərdən biridir. Belə olduqdan sonra insa maddi, mə'nəvi, elmi və sənət sahələrindəki nailiyyətlərini daha da artıra bilər. Dahi şəxslərin əksəriyyətinin imkansız ailədə yetişməşsinin səbəbi onların böhranlarla yaşayış çətinlikləri ilə üzləşməsidir. Nəticədə onların fikir qüvvələri çox çalışmaqlığın sayəsində daha da üzə çıxır.

Elmin və mədəniyyətin tarixindən aydın olurr ki, bəşəriyyətin elm və mədəniyyət tərqçisi çətinliklərlə üzləşdikdən sonra ələ gəlmişdir. Çünki çətinliklərlə üzləşdikdən sonra ələ gəlmişdir. Çünki çətinliklər insanı çarə tapmaq fikrinə salır, nəticədə insanı yaxşı vəziyyət əldə etməyə vadar edir. Deməli, çətinliklərin səbəbi ilə tanış olmadan onları pis hesab edən şəxslər yanılırlar.

## Yaxşılıq və pisliklərin ölçüsü

Soyuq, isti və bu kimi dicər amilləri pis bilən qədim iranlılar və arilərin səhvləri,

yalnız öz vəziyyətlərini dünya məxluqlarının yaxşıları və pisləri üçün ölçü qərar verməsində idi. halbuki yaxşılıq və pisliyin ölçüsü insanın xeyirvə ziyanı deyil. Hər hansı bir şeyin yaxşı və ya pis olmasını onun yaradılış nizamındakı roluna baxıb müəyyənləşdirmək lazımdır. Onların səhv düşüncələrində pis hesab etdikləri isti və soyuq dünyanı nəzərdə tutan təbiətşünasın nəzərində faydalıdır və onun mövcud olmasını canlıların, bitkilərin və bəşərin kamilliyə yetişməsi üçün lazım bilir.

Öz şəxsi xeyrini və zərərini məxluqların yaxşı və pis olması üçün qərar götürən şəxslərin fikir tərzi eynilə buna bənzəyir ki, qarışqalar insan və onun düzəltdikləri barədə desinlər ki, insan bizi tapdalayıb əzməkdən başqa heç bir iş görmür və yaxud deyinlər ki, təyyarə və avtomobilin bizə heç bir xeyri olmadığı üçnü faydasız və zərərlidir.

Qarışqaların bəşər və onun düzəltdikləri barəsində bu cür düşünməsi düzdürmü? Onların səhvi nədir? Səhvləri şəxsi mənafelərini yaxşı və pis üçün ölçü qərar vermələri cəhətindən deyilmi? Eləcə də bu fikir tərzi buna bənzəyir ki, Hind okeanın sahilində yaşyanlar sahil məntəqələrinin havasını isti və rutubətli edən buxar barəsində desinlər ki, bu buxarın nə faydası var? Yaşayışımızı bir-birinə qatıb fəaliyyətlərimizi davam etdirməyin qarşısını alır. Bu cür hökm yürütmə düzdürmü? Halbuki, biz bilirik ki, buxar dəniz sahilindən qalxan küləyin vasitəsi ilə hərəkət edərək səhraların isti və qızmar məntəqələrini sirab edir, eləcə də susuz ağaclara yeni ruh bağışlayır və havanı normalaşdıraraq milyonlarla insanın həyatını tə’min edir. Belə hökm yürütməyin səhvi sadəcə olaraq odur ki, sahildə yaşayanlar ümumi cəmiyyətin mənafeyini kənara qoyub təkcə öz vəziyyətlərini düşünürlər.

Söylədiklərimzdən bu nəticə alarıq ki, heç bir şeyi səthi baxışla faydasız düşünmək olmaz əksinə, gərək hər bir varlığın bütün düeya məxluqlarına nisbət tə’sir və xasiyyətini hazır ki, eləcə də keçmiş və

gələcək zamanlarda nəzərdə tutduqdan sonra hökm yürüdməlidir.

### Hörmuz və Ahurməzda

Indi bildiki ki, iranlıların dünya məxluqlarını iki dəstəyə yaxşı və pisə ayırmaqdan meydana gələn Harmuz və Ahurməzdaya olan əqidələrinin səhv olmuşudr. Çünki onlar məxluqatın varlığının fəlsəfəsi ilə tanış olmadan və yaradılış nizamını nəzərdə tutmamış onları iki dəstəyə xeyrə və şərə (yaxşılıqlara və pisliklərə) bölürdülər. Birinci dəstəni hörmüzün, pislikləri isə Ahurməzdanın ypratdığı bilirdilər. Eləcə də Hörmuz ilə Ahurməzdanın bir-biri ilə daima mübarizə aparmasını və Ahurməzdanın həmişə pisliklər törətməsini düşünurdülər. Onlar camaatı divlərin və çirkin ruhların vasitəsilə qorxudurdular. Hətta deyirdilər ki, ölüm divi suya daxil olub insanların əl və ayağını bağlamaqla onları boğur. Bu sahədə başqa mövhumataları da bə’yan etməklə həyatı vəhşətli və qorxulu tanıtdırılar. Onlar heç də ziyalılar sünnəsi əsasında hökm yürütmürdülər və yalnız şəxsi xeyir və zərərlərini dünya məxluqatının yaxşılığı və pisliyi üçün ölçü götürürdülər.[1]

[1] -Avestanın vəndidadı , 5-ci fəsl, 118-ci səh.

## XIII DƏRS

## ƏDALƏTLI ALLAH

### Ötən dərslərə bir baxış

Ötən dərslərdə aşağıdakı məsələləri öyrəndik:

1)Varlıq və onun təəccüblü nizamı alim və qüdrətli Allahın varlığına doğru şahiddir.

2)Allahın elmi və qüdrəti bizim məhdud əqlimizə araşdırıla bilməz. Çünki dünyada Onun misilsiz bilk və qüdrətindən gördüklərimiz yaratdıqlarının əzəmətli toplusundan kiçik bir hissədir. Bunların hər biri Allahın sonsuz elminə və məhdudiyyətsiz qüdrətinə canlı subutdur.

3)Allah bütün məxluqatın daimi ehtiyaclarının qarşısında tam ehtiacsızdır və heç bir şeyə ehtiyacı yoxdur.

4)Allah lütf-mərhəməti nəticəsində heç vaxt ne'mətlərini bəndələrindən əsirgəmir.

Özü Qur'ani-Kərimdə buyurur: "Sizin üçün yeri məskən, göy cavan edən, sizə surət verən, surətlərinizi gözəlləşdirən, sizə təmiz (pak) ne'mətlərdən ruzi verən Allahdır! Bu sizin Rəbbiniz olan Allahdır. Aləmlərin Rəbbi olan Allah nə qədər ucadır (nə qədər uludur)!"

Indi belə bir sualla üzləşirik ki, bütün ne'mətləri bəndələrinin istifadəsi üçün yaradan Allahın zalım olmasını əql qəbul edirmi? Bunu da bilirik ki, zülm nadanlıq, qüdrətsizlək yaxud vəzifə  güdmək bu kimi

şeylərin nəticəsində meydana gəlir. Allahın pak zatı isə bu kimi şeylərdən uzaqdır.

Zülümlərin mənşəyini araşdırsaq aşağıdakı səbəblərlə rastlaşacağıq:

**1)Mövqenin itməsi qorxusu**

Digər müəssisənin meydana gəlməsi ilə öz müəssisəsinin mənafeyini təhlükədə görüb iflasa uğrayacağından qorxan müəssisə sahibi mümkün olan hər hansı bir vasitə ilə öz rəqibi ilə mübarizə edəcək. Bu, yalnız oyaq vicdanı və möhkəm imanı olan şəxs barəsində istisna qəbul edə bilər.

2)**Məhrum olmaq**

Bə'zi vaxtlar bir çox zəhmətdən sonra öz haqqını qəsbkardan ala bilməyən bir şəxs ifrata vararaq öz tərəf müqabilini zəiflətmək üçün müxtəlif növ xəsarətə əl atır.

Məhrumiyyətə qarşı reaksiya bə'zi şəxslərdə özünü vəhşi cinayətlər törətməklə biruzə verir. Bu kimi şəxslər yüksək bir vəzifəyə çatdıqda zülm etməyə başlayır, xalqın aşağı təbəqəsini qırmaqdan ləzzət aparırlar. Məzlumların acınacaqlı nalələri onlar üçün könül-oxşayan olur.

**3)Cahillik və nadanlıq**

Bəşərin düzüb qoşduğu qanunlar bir çox yerlərdə ədalətsizliyə və zülümlərə səbəb olur. Çünki bəşərin elmi məhduddur, onun qarşısında isə məghullarla dolu bir dünya durur. Zəncilərə qarşı olunan ədalətsizliklərin bir hissəsi məhz buna görədir ki, özündən razı olan bə'zi şəxslər şərəf və üstünlüyü dərinin rənginə bağlı olduğunu güman edib onların hüququnu tapdalayırlar. Lakin bilirik ki, şərəf və gözəl sifətlərə sahib olmasıdır. Bu xüsusiyyətlərdə də zənci ilə ağ dərili insan bərabərdir.

Cəhalət, acizlik və nadanlıq nəticəsində meydana çıxan yuxarıda qeyd etdiyimiz və bu kimi digər məsələlər Allahın pak zatı barəsində təsəvvür ediləsi deyil. Çünki O, sonsuz elm və qüdrətə sahibdir və heç bir şeyə ehtiyacı yoxdur ki, onu itirməkdən qorxsun. Buna görə də O, əsla zülm etməz.

Bu, çox açıq aydın bir məsələdir. Bu məsələdə şübhə edən şəxslər ay qeyd etdiyimiz məsələlərə diqqət etməyiblər, ya da ədalətin mə'nasını düzgün başa düşməyiblər.

## Ədalət nədir?

Ədalət budur ki, hamının hüququ qorunub saxlansıqn və heç bir səbəb olmadan insanlar arasında fərq qoyulmasın. Məsələn imtahan zamanı bir sinifin şagirdləri arasından yaxşı qiymət alanların hamısının yuxarı sinifə keçməyə səlahiyyətləri çatır. Bu misalda məktəb direktoru onlardan bə'zisini yuxarı sinifə keçirib qalanlarını sinifdə saxlamaqla aralarında səbəbsiz olaraq fərq qoya bilməz. Çünki onların hamısının yuxarı sinifə keçməyə səlahiyyəti var. Aralarında fərq qoymaq isə zülmdür. Lakin oradad heç bir kəsin haqqı olmadığı halda və yalnız yaxşılıq və səxavət yolu ilə bir dəstəyə bə'zi şeylərin verilməsi ilə camaat arasında fərq qoymaq zülm hesab olunur. Məsələn kasıblara qonaqlıq vermək istəyən bir şəxs əgər onlardan bə'zilərini seçsə, yaxud də'vət olunanlar arasında qonaqlıq cəhətdən fərq qoysa, zülm etməmişdir. Çünki onların tapdanılası haqqı yoxdur. Onlara verilənlərin hamısı kömək və səxavət baxımından olmuşdur.

Ədalətə və bərabərliyə elə yerlərdə riayət etmək lazımdır ki, hamı eyni hüquqa malik olsun. Lakin arada heç bir haqq olmadığı halda ədalət və bərabərlikdə yoxdur və insanlar arasında fərq qoymaq zülm hesab olunmur. Deməli, məxluqatın yaradılış irad tutaraq "nə üçün Allah hamının yeknəsaq və təfavütsüz yaratmayıb, hamı ilə yeksənaq rəftar etmir" deyən və bu işin Allahın ədaləti ilə uyğun gəlmədiyini söyləyən şəxslər böyük səhvə yol vermişlər. Onlar ədalətin əsl mə'nasını dərk teməyiblər. Çünki məxluqatın Allah üzərində haqqı olmadığından yaradılışda fərq və ixtilas ədalətsizlik sayılmaz. Çünki əgər Allah bir şəxsi əsla xalq etməsə yaxud onun yaradılışı ilə başqaları arasında fərq qoysa, burada heç kəsin haqqı tapdalanmaz və buna görə də zülm sayılmaz. Lakin Allah alim və hikmət sahibi olduğuna görə məsləhətsiz heç bir iş görməz. Bəs onda bu təfavütlərin səbəbi nədir? Ümumiyyətlə

dünyada bu fərqlər lazımdırmı? Yaxşı olmazdımı ki, heç bir fərqlər olmasın?

Bu sualların cavabını gələn dərslərimizdə deyəcəyik.

## XIV DƏRS

## INSAN HƏYATINDA, TƏVAVÜT, YÜKSƏKLIK VƏ ALÇAQLIQLARIN INSAN FƏLSƏFƏSI

### Yaradılış aləmində təvavütün fəlsəfəsi

Şübhəsiz ki, bəşərin elm və texnologiya sahələrində heyratamiz tərəqqisinin nümunələrindən sayılan “Apalon” kosmik gəmisi barədə eşitmisiniz.

Bu gəmi bəşəri buludların daxilindən keçirib insani qaranlıq Ay planetinə çatdıraraq sirli dünyanın qapılarından birini onun üzünə açdı. Bu kosmik gəminin quruluşunu nəzərdə tutsaq, görərik ki, başdan-başa idarəetmə gəmisi, əsas gəmi, aya oturan fəri kapsula, yerə enən hissə, göyə qalxan hissə, yanacaq mənbələri, ötürücü qəbuledici və istiqaməti tə’yin edən qurğular, elektriki tə’min edən mühərrik, təhlükəsizlik qurğuları, su və yeməyin qorunub saxlaneılması üçün kifayət qədər qurğularla doludur. Bunların hər birinin özünə məxsus vəzifə vardır.

Mə’lum məsələdir ki, əgər bu müxtəlif qurğular və eləcə də bu qurğulardakı müxtəliflik olmasaydı “Apalon” gəmisi yaranmazdı. Belə olan təqdirdə də təbii ki, öz uzun yolunda qarşıya çıxan çətinlikləri aradan qaldırmayacaq və bir neçə nəfərlə aya səfər etməyəcəkdir.

Yuxarıda qeyd etdiyimiz misaldan başa düşülür ki, bir-birinə bağlı olan bir topluda mütləq təvavüt və müxtəliflik olmalıdır.

Indi yaradılış dünyasında təvavüt və müxtəlifiliyin əbəs və fəlsəfəsiz olmamasının başa düşmək üçün gəlin bu dünyanı nəzərdə tutaq. Dünyanın gözəlliyi və dolaşıqlığı da məhz onun hissələri arasındakı müxtəlifliklə bağlıdır.

Əgər dünya tamamilə yeksan və yeksənək olsaydı, onda bütün göz oynadan, fikrədaldıran, heyrətləndirici mənzərələr olmazdı gvə davha insanın yaranması, su içməsi, bitkiləri bişirib yeməsi, crşğun dalğalardan hərəkət öyrənməsi, uzaqda yerləşən sakit qayalardan vüqar öyrənməsi, həmçinin qolbudaq atmağı baharın ağrəngli güllərindən, paklığı baharın səhər şəbnəmlərindən, asudəliyi hovuzların sinəsindən, təvazökarlığı gümüştək axan bulaqlardan önrənməsi mə’nasız olardı. Deməli dünyanın varlığı və gözəlliyi elə onun müxtəlifliyindədirn. Bu müxtəlifliyi nə əbəs adlandırmaq olar, nə də ədalətsizlik. Ədalətsizlik odur ki, tam bərabər şəraitdə qeyri-bərabər qanunlar yaradıla. Ötən dərsdə qeyd etdik ki, bir mövzuda hamının bərabər səviyyədə istifadə etmək haqqı olduğu halda onların arasında təvavüt qoymaq zülmdür. Ancaq dünya məxluqlarının qabaqcadan heç bir haqqı olmadığı halda aralarında təvavüt qoymaq heç də ədalətsizlik sayılmır. Elə isə mütləq qeyd etməliyik ki, yaradılış dünyasını həmən təvavüt təşkil etmişdir. Əgər təvavüt olmasaydı, dünyanın əsası olmazdı və dünyada təkcə bir ünsirdən bişqi heç nə olmazdı.

Atomlar, planetlər, kərkəşanlar, bitkilər və heyvanların yaranmasına səbəb məhz bu müxtəliflik səbəb olunmuşdur. Indi diqqətinizi insanların vücüdündakı təvavütə

cəlb edirik. Insanların müxtəlifiyi də bu təfavütdən kənar deyil. Əgər insanların zövqünün, iste'dad və yaddaşının müxtəlifliyinə irad olunaraq hamının nə üçün bərabər olmaması barədə sual olunarsa, onda ilk növbədə bitkidə vəf cansız təbiətdə zövq və iste'dad olmamasına irad olunmalıdır. Halbuki bu iki məsələnin heç birinə irad tutula bilməz. Çünki, tənqid və irad o vaxt yerinə düşər ki, bir kəsin haqqı tapdalansın. Ancaq dediyimiz iki yerdən heç biri qabaqcadan olmamışdır ki, bunun nəticəsində bir kəsin haqqı olsun və onların arasında təvavüt ədalətsizlik sayılsın.

Diqqət olunması başqa bir məsələdə budur ki, Allah hər kəsdən onun iste'dadı və bacarığı həddində mə'suliyyət istəyib. Heç bir kəsdən fiziki və zehni qüdrətindən artıq bir şey tələb etmir. Bunun özü əsl ədalətlidir.

Məsələn orta məktəb direktoru altıncı sinfin imtahan suallarını ibtidai sinfin şagirdləri üçün tərtib etsə, zülm edibdir. Ancaq əgər asan riyaziyyat məsələlərin həllini ibtidai sinfdən, cəbr elminin çətin məsələlərinin həllini isə yuxarı sinifdən tələb etsə, heç bir ağıllı şəxs ona zülm nisbəti verməz, əksinə, onu bu sahədə sözün əsl mə'nasında adil bilər.

Deməli, əgər məxluqatın halına bir gözlə baxılsaydı və hamısının mə'suliyyəti yeknəsaq olsaydı, onların yaradılışında təfavüt qoymaq ədalətsizlik olardı. Ancaq mə'suliyyət insanların iste'dad və imkanatı dairəşsində tə'yin olunduğuna görə bu təfavüt zülm sayılmaz. Necə ki, avtomobildə kiçik bir hissədən istənilən iş ilə böyük təkərin öhdəsində olan iş bərabər olarsa, bu, ədalətsizlik sayılar. Ancaq əgər hər birindən miqdar iş istənilsə, onda ədalət blirqərar olunub.

Bundan əlavə biz Allahı Hikmət sahibi bilirik və buna görə də O, heç bir işi hikmətsiz görməz. Bunu da bilirik ki, bütün dünya xüsusi bir nizama malikdir, belə ki, onun heç bir yeri nizamsız və heysabsız yaranmayıb. Ötən dərslərdə qeyd olundu ki, dünyada heç bir şey nizamsız və faydasız deyildir. Bə'zi şeylərin səthi baxışla baxdıqda nizamsız və

faydasız gözə çarpması həqiqətdə bizim düşüncəmizin və əqlimizin zəifliyi nəticəsindədir. Qeyd etməliyik ki, bilməmək olmamazlığa dəlil ola bilməz. Buna əsasən yuxarıda qeyd olunanlara diqqət etdikdə yə'qin edirik ki, bütün bu təfavütlər hikmət üzündədir və yaradılış nizamlıqda məhdud düşüncəmizlə dərk edə bilmədiyimiz hər bir şey faydalı və lazımlıdır. Əgər sual edib desək ki, mümkündürmü bütün insanlar müxtəlif iste'dadların hamısına malik olardılar və o zaman öz ehtiyacları əsasında işləri bölərdilər. Cavab verəcəyik ki, onda asanlıq ardınca olan insanlar yüksək və yüngül hünərləri seçərdilər, zəhmətli və ağır hünərlər, eləcə də aşağı səviyyəli işlər isə yerdə qalardı. Eyni səvəyyədə və eyni fikir də olan insanların heç biri böyük fayda və şöhrət gətirməyən aşağı səviyyəli işlərin heç biri ilə məşğul olmağa razı olmazdılar.

### Həyatından hərtərəfli bəhrələnmək

Insanların ruhunun əxlaqi dəyərləri qəbul etməkdə və təkamülə yetişməkdə hərənin bir özəlliyi vardır. Get-gedə çətinliklərlə üzləşməyin, rahatdıqda qərar tutmağın və həyatın acalıqlarını, şirinliklərini dadmağının tə'sirində kamilləşir. Məhz bu çətinliklər nəticəsində insan səbr öyrənir...... Bə'zi bol ne'mət içində olur, bə'zi vaxt isə yoxsulluğa düşür. Xoşbəxt o, şəxsdir ki, hər hansı bir vəziyyətdə qərar tutmasına baxmayaraq öz ruhunun kamilləşməsi yolunda o vəziyyətdə qərar tutmasına baxmayaraq öz ruhunun kamilləşməsi yolunda o vəziyyətdən istifadə edir. Əgər sərvətlidirsə yoxsullara və yetimlərə əl tutmaqla öz təkamülü yolunda bir addım irəliləsin və böyük, insani ruhla ünsiyyətdə olsun. Baxmayaraq ki, əlindəki asan və şirin yolda xərcləyib heç bir mə'nəvi istifadə aparmaya da bilər. Əgər yoxsuldursa başqalarının malına və hüququna təcavüz etməyin əvəzinə qənaətə, səbrə, özünü əyməyə meyl etsin və həyatın çətinlik daşını fəaliyyət və səbri ilə qarşısından götürsün. Deməli, həyatın enişi yoxuşlarının hamısı təkamülə doğru bir yoldur. Gərək həyatın

geniş, yaxud dar keçidindən öz təkamülümüzə doğru bir addım irəli gedək. Bunu deməkdən məqsəd o deyil ki, öz əlimizlə özümüzü çətinliklərə və yoxsulluğa salaq. Belə etsək aydın məsələdir ki, pis bir iş etmiş olarıq. Çünki Allahın bizə bəxş etdiyi iste'daddan istifadə etməmişik. Məqsəd budur ki, əgər biz çalışıb bir yerə çatmaq, yaxud sərvət və rahatlıq yüksəkliyindən yoxsulluq və çətinlik dərəsinə yuvarlanmaq, elə fikirləşməməliyik ki, bədbəxt olduq, əksinə başa düşməliyik ki, hansı tərəfə-yuxarı, aşağı, rahatlığa doğru, çətinliyə doğru yönəlsək hamısı bizim ruhumuzun cövlanı oüçnü yeni bir meydandır. Gərək çətinliklərə qarşı mübarizə etməklə beynimizi işlədək və qərar tutduğumuz vəziyyətdən ruhumuzun möhkəmliyi üçün daha artıq faydalanaq. Bu cür məntiq yürüdən şəxs həyatın heç bir anını ədalət və hikmətin əksinə görmür və hara yönəlirsə, özünü qalib və kamına çatmış görür.

Qur'ani-Kərim bu barədə buyurur: "Verdiyi ne'mətlərlə sınamaq üçün (sizi yer üzünün varisləri tə'yin edən, dərcələrə görə) birinizi digərinizdən üstün edən Odur."[1]

Sınaqdan məqsəd mövcud olan vəziyyətdən istifadə etməkdir. Elə isə bəşərin qarşısına çıxan hər bir vəziyyətin onun ruhunun təkamülə çatması üçündür. Bu özü əsl mərhəmət və ədalətdir.

Ədalətin əsası ilə heç bir zidiyyəti olmayan ixtilafların, enişi və yoxuşların fəlsəfi budur.

Dünyada baş verən bə'zi hadisələrin fəlsəfəsini bilmədikdə onları zülm adlandırmamalıyıq. Çünki yaradılış aləminin nizamı elə bir qüdrətli varlığın vasitəsilə möhkəmlənməmişdir ki, zülm etmək üçün Onda heç bir əsas yoxdur və bizim üçün istədiklərinin hamısı mehribanlıq üzündədir. Bu, dağılmaz bir həqiqətdir ki, dəfələrlə özümüzün, yaxud başqalarının qarşısına çıxan hadisələr zamanı onu açıq-aydın görmüşük. Bə'zi vaxtlar baş vermiş bir hadisəni ziyanverici sanmışıq, halbuki qısa

[1] -Ən'am 165-ci ayə.

bir zamandan sonra mə'lum olmuşdur ki, bu hadisə nə təkcə ziyanverici halını daşımır. Hətta bizim üçün böyük faydası vardır.

Qur'an buyurur: "Bə'zən xoşladığınız bir şey sizin üçün xeyirli, bə'zəndə xoşladığınız bir şey sizin üçün zərərli ola bilər. Onu Allah bilir, siz bilmirsiniz."[1]

[1] –Bəqərə 216-cı ayə.

# XV DƏRS

# PEYĞƏMBƏRLƏRIN

# INSANLARA YOL

# GÖSTƏRMƏKDƏ ROLU

## Insan nə üçün yaradılıb?

Allah insanı bu dünyada sükanı avtomobildəki rolu kimi və yalnız sənət adamı olmaq üçün yaratmışdır? Insan təkcə ləzzət aparmaq üçün yaranmışdır, yoxsa gizli və aşkar yollarla bacardığı qədər sərvət yığıb öz maddi istəklərini həyata keçirmək üçün? Barı insan yaranışında bundan ali məqsəd yoxdurmu?

Bir çoxları insanın dərin təbiətini və həqiqətini anlamayıb, araşdırmışlar və ancaq onun maddi cəhətini nəzərdə tutmuşlar. Bununlada bu qiymətli varlıqdan xəbərsiz qalmışlar.

Insanşünaslar deyirlər ki, insanın üç əsas cəhəti var.

1)Şəxsi və maddi yaşayışı.

2)Ictimai yaşayışı.

3)Ruh və mə'na aləmi.

Birinci cəhət nəzərdə tutub insanın tam azadlığını iddia edən şəxslər (hətta bu azadlığın insana ziyan verməsinə baxmayaraq) insanın heyrətamiz şəxsiyyətdən xəbərsiz qalıb iki mühüm cəhətini nəzərdən qaçırmışlar. Eləcə də birinci və ikiinci cəhəti nəzərdə tutub üçüncü cəhəti nəzərdən qaçıranlar isə düzgün əxlaqi və mə'nəvi dəyərlərdən uzaq bir mühit ayaradırlar. Böyük ingilis tarixçisi və sosioloqu "Nevinbi" Layf jurnalının müxbirinə verdiyi müsahibəsində demişdir: "Biz özümüzü maddi təbiətə təslim etməklə maddi hiss cəhətindən ehtiyacsız var. Mənim fikrimcə bu səhv yoldan qayıdıb məzhəbə meyl etməyimizə hələ də fürsət vardır."

Məsələnin incəliklərinə diqqət edən təhqiqqi addımını birinci və ikinpci cəhətdən daha geniş ataraq insanı və onun yaradılmasındakı məqsədi üç cəhət daxilində mütaliə edib nəzərdən keçirir. Çünki insanın həqiqəti bundan ibarətdir. Belə olmayan halda insan lazımi səviyyədə tanınmayacaq. Bundan əlavə üçüncü cəhət nəzərdə tutmaq insana şəxsi və ictimai həyat meydanına daxil olması, yaxud xaric olması üçün hesablayıcı bir qüdrət bağışlaya bilər. Düzgün ideal da məhz budur. Beləliklə insan gərək özünün hər tərəfli təkamülünə doğru addımlayaraq onu yolunu tanımalıdır. Çünki, insan elə bu

məqsəd üçün yaranıbdır. Indi belə bir sual meydana gəlir ki, vicdan və fitrət hər üç cəhətdə insanın yolgöstəricisi ola bilərmi?

Cavabı tapmaq üçün bu sualı bir az təhlil edək.

## Vicdan və fitrət

Bə'zi psixoloqlar vicdanı inkar edir və bizim vicdan və fitrət adladırdığımızı ilk uşaqlıq dövranın tərbiyəsinin nəticəsi zənn edirlər. Bunun müqabilində isə Jan Jak Rosso kimi bir çox alimlər bu fikirdədirlər ki, bəşər varlığının dərinliklərində yaxşılıqları və pislikləri ayırd edən bir qüvvə gizlənmişdir. Mühitə alışmayan və vidanları dəyişməyən uşaqlar yaxşılıqların və pisliklərin əsilliyini dərk edib bilirlər ki, yaxşılıqlar və pisliklər sonradan düzəlmə deyil.

Yaxşılıqların və pisliklərin bir dəstəsinin adət və ən'ənələrə tabe olmasını qəbul edirik. Məsələn yeyilən yeməyin növü geyilən paltarın növü və bu kimi şeylər bə'zi və zamanda yaxşı olduğu halda həmən yeməkvə paltar başqa mühitdə və zamanda yaxşı olduğu halda həmən yemək və paltar başqa mühitdə və zamanda pis gözə çarpır. Ancaq ağlını işə salıb öz düşüncə ixtiyaratını əqlinə tapşıran şəxs bütün yaxşılıqları və pislikləri o dəstədən saya bilməz. Çünki əmanətin, ədalətin əhd-peymana sadiq qalmağın, yoxsullara köməyin, cəmiyyətə xidmət etməyin, qardaşlığın və bəarbərçiliyin dərin daxili və vicdanlı kökləri var. Bunun müqabilində isə zülm, əhd-peymanı sındırmaq, xəyanət, özünüsevərlik və bu kimi sifətlər bütün mühitlərdə və zamanlarda pis olub və olacaqdır. Bu sifətlərin pisliyini və çirkinliyini sonradan düzəlmə və müvəqqəti hesab etmək olmaz. Elə isə gərək vicdana və fitrətin olduğuna e'tiraf edək. Ancaq qeyd etmək lazımdır ki, vicdan təklikdə insana kamil şəkildə yol göstərə bilməz. Çünki, vicdanın və fitrətin tərbiyəyə ehtiyacı var. Mə'dənlər kəşf olunduğu kimi bunların da kəşf olunduğu kimi bunların da kəşf olunmağa ehtiyacı var. Əks tədqirdə azğınlığa düçar ola bilər. Azğın mühitlərin tə'siri altında elə dəyişər ki, psixoloqların bir

dəstəsi onu tanıya bilməz. Elə buna görə də bə'zi psixoloqlar onun varlığını inkar edərlər. Bu da məhz bəşərin mə'sum peyğəmbərlərə möhtac olmasının bir sirridir.

**Bəşərin ideologiyası**

Insanlar eramızdan neçə əsrlər qabaqdan indiyə qədər cəmiyyətin və fərdin islahı üçün müxtəlif fikirlər irəli sürmüşlər. Ancaq insan bütün ruhi və maddi səadətlərinin sirrindən xəbardar olması və bəşər üçün məchul olan şeylərin çox olduğu üçün heç vaxt təbiətinin bütün dərin istəklərinin hamısına cavab verən bir fikir təqdim edə bilməmişdir. Doktor Pilerbruz deyir: "Neçə il bundan qabaq Pronestonda Eynşteyndən bir söz eşitdim. O deyirdi: "Elm bizi mövcud olan şeylərdən xəbardar edir."[1]

[1]–Dinin faydası və lüzumu; 5-ci səh. "Əssiqafətul islamiyyə jurnalında doktor Piler Bruzun "Islamda din ilə elmin əlaqəsi," adlı məqalədən iqtibas.

Viktor Huqo deyir: "Bəşər nə qədər tərəqqi etsə, bir o qədər dinə ehtiyacı olur."[2]

Ideolaqların və bəşər əqlinin təkamülə doğru getdiyi yolda qarşısına çıxan iradların biri budur ki, əqlin düşündüyü şey düzgün olduğu təqdirdə onun icra olunması vacib deyildir. Insanlardan bir çoxu spirtli içkinin, qumarın, oğurluğun, cinayətin və bu kimi şeylərin fəsad törətməsindən və elmi əqli dəlillər vasitəsilə xəbardar olduğuna baxmayaraq yenə də onlara qurşanıblar. Bu gün görürük ki, Birləşmiş Millətlər təşkilatı dünyanın müxtəlif millətlərindən olan yüz iyirmidən çox üzvü ilə hələ də gücsüzdür və bir çox təklifləri kağız üzərində qalmaqdadır. Çünki bəşərin əqli və əqlinin düşündükləri icraya zamin deyildir. Bəşər öz qəbul etdiklərinə də tabe olmur. Ancaq səmavi qanunların sonsuz elm mənbəyindən nə'məlandiyinə görə onlarda heç bir səhv yoxdur. Eləcə də o qanunların qəbul yeri

[2]–Dinin faydası və lüzumu; 8-ci səh. Zəkaul Mulk Firucinin yazdığı "Mə'ruzəçilik qaydasını" adlı kitabından.

peyğəmbərlərin pak qəlbi olduğu üçün daha artıq tə'sirə malikdir. Üstəlik onların yerinə yetirilməsi, yaxud tərk edilməsi üçün tə'yin olunan cəza və mükafat o qanunların icra bedilməsini labüd edir. Deməli, əql və düşüncənin təklikdə icra etməyə heç bir zəmanəti yoxdur. Buna görə də onun etdikləri qeybdən olan qüvvə ilə təsdiq edilməlidir. Elə bu səbəbə görə vicdan və düşüncə təklikdə səadət yolunu insana göstərə bilməz. Bunlar bəşəri azğınlıqdan və bədbəxtlikdən xoşbəxliyə yönəltmək üçün peyğəmbərin səmavi qanunlarından ilham alan yeganə vasitələrdir. Həzrət Əli (ə) Nəchül bəlaqənin ilk xütbəsində peyğəmbərlərin göndərilməsinin səbəbini bə'yan edərkən buyurur: "Allah-Təala unudulmuş ne'mətlərini xatırlatmaq və gizli qalmış iste'dadları üzə çıxarıb istifadəyə verilməsi üçün peyğəmbərləri göndərdi."

Təsəvvür edək ki, bəşər düzgün ideologiyaya malikdir, lakin yenə də dünyada hegomonluq edib mənəm-mənəm deyənlər camaatın haqqı batildən tanınmasına imkan verməz, məqalələr yazırlar və bu kimi şeylərlə düzgün ideologiyanı tanıya bilməsin. Ancaq bunun əksinə olaraq camaat Allah tərəşfindən qoyulmuş və peyğəmbərlərin vasitəsi ilə icra edilən qanunların düzgünlüyünü doğru mö'cüzə və nişanələrin vasitəsi ilə tanıyıb ona tabe ola bilər. Bununla da hüccət hamıya, hətta müxaliflərə belə tamamlanar və daha özlərini üzürlü sayıb "haqqı tanınmamışıq" bəhanələri aradan götürülmüş olar.

**Peyğəmbərlərin göndərilməsinin labülüyü**

1)Bəşərin şəxsi, ictimai və mə'nəvi cəhətdən təkamülü yaradılışın məqsədlərindəndir.

2)Bəşərin həqiqi təkamülü üçün təkcə vicdan və fitrət kifayət etmir.

3)Bəşərin ideologiyaları insanın dərin təbiətinin istəklərinin hamısına tam şəkildə cavab verilə bilmir. Eləcə də onların icrasına zamin deyil.

4)Peyğəmbərlərin gəlişi və mö'cüzələr vasitəsilə peyğəmbərliklərin sübuta yetməsi nəticəsində hamı üçün haqq batildən seçilir. Daha bir şəxs haqqı tanımamaq bəhanəsilə özü üçün üzr gətirə bilməz. Beləliklə, anlayırıq ki, insanın təkamülü üçün peyğəmbərlərin göndərilmələrinin sirri elə budur ki, insanlar öz təkamülləri yolunda qarşıya çıxan ehtiyaclardan onların vasitəsi ilə xəbərdar olsunlar və bununla da həqiqi xoşbəxtlik yoluna qədəm qoysunlar. Əsla belə təsəvvür etməməliyik ki, yenilməz hikmət sahibi olan Allah bəşəri bu dünyada qanunsuz, proqramsız, təklifsiz öz başına buraxsın və ya onu öz batil və puç istəklərinə çəkən və həqiqi təkamüldən saxlayan dünyanın hegemonlarına tapşırsın. Əbu-Əli Sina Şifa kitabında Hişam ibn Həkəm deyir: Imam Sadiq (ə.s) Allahın varlığını danan bir şəxsin "peyğəmbərləri hansı yolla sübüt edirsən" sualının cavabında buyurdu: Məxluqatın sifətindən pak yenilməz hikmət sahibi, (məxluqların sifətindən) uca, camaatın görə bilmədiyi və (öz vəzifələrini soruşmaq üçün) söhbət edə bilmədiyi Allahı sübut etdiyimiz halda mə'lum olur ki, mütləq onunla bəndələri arasında vasitə olmaq üçün gərək camaat arasında elçiləri olsun. Bu elçilər camaatı məsləhətli, faydalı və insanların yaşayışının əbədiyyətnin asılı olduğu əməllərə yol göstərirlər. Deməli, peyğəmbərlərin və hikmətli Allah tərəfindən camaat arasında vasitələrin olması labüddür. Allahın Öz hikmətindən ədəb öyrəndib göndərdiyi bu vasitələr peyğəmbərlərdir. Peyğəmbərlərin yarınışında başqa insanlardan fərqəlnməsinə baxmayaraq öz ruhi halətlərinin heç birində onlarla şərik deyildir və (həmişə) hikmətli və alim Allah onlara Öz hikməti ilə (mə'sum saxlayıb) kömək etmişdir. bundan əlapvə bilmək lazımdır ki, hər əsrdə nübuvvəti iddia edən peyğəmbərlər yer üzünün hüccətsiz qalmaması üçün gətirdikləri dəlilər və doğru nişanələr (mö'cüzələr) ilə tanınır.[1]

---

[1] -Üsuli kafi; cild-1; səh-168.

Əlbəttə  səmavi qanunların məhdudiyyət dairəsi yoxdur. Hökumət, ədalət, iqtisadiyyat, hikmət, paklıq, şərafət, qardaşlıq, məhəbbət, bərabərlik, hidayət, tərbiyə, elm, qüdrət şəxsi və ictimai vəzifələr, biadət, eləcədə cüz'i məsələləri açıqlayan ümumi qanunların hamısı dinlərin ideologiyasının və sonuncu qanunlarının məqsədini təşkil edir. Buna görə də onlar insanı elə tərbiyə edir ki, insan onun vasitəsilə təbiətinin üç cəhətində də təkamülə çata bilər.[2] Səmavi ideologiya yalnız bir təbəqəyə yönəldilməyib, onda bütün təbəqələr nəzərə alınaraq bütün insanların hüququ müdafiə olunur. Deməli, dinin hakim və sərvətli  təbəqə tərəfindən yaradılmasını, yaxud feodal və kapital cəmiyyətin öz mənafeyini qorumaq üçün ixtira etməyini zənn edən şəxslər səhvə yol vermişlər. Belə şəxslər dinir mətləblərə və onun kökünə diqqət etməyiblər. Bundan əlavə tarix canlı şahiddir ki, peyğəmbərlərin hərakatında varlı təbəqənin heç bir roldu olmayıb, əksinə səmavi dinlərhəmişə feodolistlərin və kapitalistlərin zülm və təcavüzləri ilə mübarizə etmişdir.

Mülkədarların, alimlərin, kəndlilərin, kasıbların və başqalarının dinə yönəlmələrinin səbəbi öz fitri və emoqional istəklərini təkcə dinin aydın qanunlarında tapmalarıdır. Eləcədə onlar başa düşürlər ki, yalnız din onları həqiqi kamala çatdıra bilər. Bəşərin dinə meyl etməsinin sirri də məhz budur. Sevindirici haldır ki, artıq indi alimlər dini dəyərləri daha çox başa düşüblər və bu fikirdədirlər ki, rahat və kamil yaşayışı yalnız dinin və Allaha olan imanın sayəsində əldə etmək olar.

**Mö'cüzələrin labüdlüyü**

Bəşər öz hərtərəfli səadətinə yetişmək üçün6 peyğəmbərlərin yol göstərməsinə ehtiyac duymasını, yalnız onların qanunlarının və zəhmətlərinin sayəsində insanın əbədi və əzəmətli təkamülü, strukturun özülünün qoyulmasını bildikdən

---

[2] –Təbii ki, səmavi dinlərdən və qşanunlardan məqsəd təhrif olmayan və Allah tərəfindən olan qanun və dinlərdir.

sonra şübhəsiz o xeyirxah, fədakar və mə'sum rəhbərlərə qarşı qəlbində imanla birgə məhəbbət hissi duyacaq. Bu iman o həddə yetişir ki, camaat peyğəmbərlərin məqsədinin irəli getməsində hər hansı bir fədakarlığı əsirgəmir və hətta onların istəklərini öz istəklərindən üstün tutur. Ancaq peyğəmbərlərin hökuməti və çox geniş nifuzu, camaatın onlara qarşı məhəbbəti və imanı bir dəstə vəzifəpərəstliyi peyğəmbərlik iddiası yolu ilə nifuza malik olub öz nəfsani istəklərin çatmaq üçün pis məqsədlərdən istifadə temək fikrinə salır. Buna görə də əgər bir şəxs peyğəmbərlik iddiası edərsə və bir neçə nəfər onun ətrafına toplaşarsa, araşdırmadan ona iman gətirmək olmaz. Çünik ola  bilər o, yalandan peyğəmbərlik iddası etsin. Necə ki, indiyə qədər bir çoxları belə iddia ediblər və müxtəlif dəstələr də onların ətrafına toplaşıblar. Peyğəmbərlik iddiası edən şəxs öz doğruluğunu və haqq olmasını və camaatın onun sözlərinə yəqinlik tapıb iddiasını qəbul etməsi üçün gərək öz peyğəmbərliyinə sübut gətirsin. Beləliklə də həqiqi peyğəmbərlər peyğəmbərlik iddası edən yalançı şəxslərdən seçilirilər. Həqiqi peyğəmbərlərin tanınmasına sübut olan bu nişanı və dəlil mö'cüzə adlanır. Əzəmətli Allah Öz bəndələrinin hiyləgərlərin şərrindən uzaq olub səhvə yol verməməmsi və oeləcə də həqiqət simasının insanlara örtülü qalmaması üçün Öz göndərdiyi peyğəmbərlərə mö'cüzə əta etmişdir.

Bura qədər başa düşdük ki, xalqın peyğəmbərlərin Allah tərəfindən olmasının və söylədiklərinin doğruluğunu bilib xatircəmliklə göstərişlərini dinləyib camaatın tə'limatlarının əqidə və imanla icri etlmələri üçün Ilahi peyğəmbərlərin mütləq mö'cüzəsi olmalıdır.

### Mö'cüzə nədir?

Mö'cüzə peyğəmbərlərin öz iddialarının sübutu üçün Allahın istəyi ilə yerinə yetirdikləri və başqalarının onu yerinə yetirməkdən aciz qaldığı işlərdir.

## Mö'cüzə yalnız peyğəmbərliyin sübutu üçündür

Bir dəstə bəhanə axtaran camaat peyğəmbərliyin sübutu üçün deyil, inadkarlıq üzündən və peyğəmbərlər ilə mübarizə etmək üçün onlardan mö'cüzə göstərməyi tələb edirdilər. Hətta bə'zi vaxlar əqlən mümkün olmaüan işlərin etməsini istəyirdilər. Ancaq peyğəmbərlər öz peyğəmbərlik iddalarının sübutu üçün kifayət qədər mö'cüzə gətirdiklərinə görə onların istəklərinə cavab vermirdilər və peyğəmbərlərin vəzifəsinin yalnız hidayət etmək, müjdə vermək saqındırmaq olmasını ona başa salırdılar. Buna görə də mö'cüzə Allahın izni və istəyi ilə lazımlı yerdə gətirilir. Necə ki, Qur'ani-Kərimdə həmin şəxslərə cavab olaraq buyurulur: "Ya Məhəmməd! De: "Mö'cüzələr ancaq Allahın əlindədir. Mən isə sadəcə olaraq (insanları Allahın əzabı ilə) açıq-aşkar qorxudan bir peyğəmbərəm!" Həmçini buyurur: "Heç bir peyğəmbər Allahın izni olmadan bir mö'cüzə gətirə bilməz."

# XVI DƏRS

# PEYĞƏMBƏR NƏ ÜÇÜN VƏ

# NECƏ MƏ'SUMDURLAR?

Mehriban və hikmətli Allah bəşərin peyğəmbərlərin rəhbərliyi ilə düz yola uçurumdan tanıması, eləcə də kamal və bəyənilmiş sifətlərin ən son həddinə qədər irəliləməsindən ötrü peyğəmbərləri göndərdi. Buna görə də hikmətli və mehriban Allah Öz gödərdiyi peyğəmbərləri hər bir günah və səhvdən qorudu. Bir sözlə onları heç bir səhv etmədən bəşəri həqiqi təkamülə və Allahın əmrlərinin itaətinə sövq etmələri üçün mə'sum qərar verdi. Daha aydın desək; peyğəmbərlərin göndərilməsinin labüdlüyünü lazım bilən dəlil onların hər bir günah, səhv və çirkinlikdən pak olmalarını da lazım bilir.

Çünki peyğəmbərlərin göndərilməsindən məqsəd bəşəriyyətin düz yola və tərbiyəyə sövq edilməsidir. Bu məqsədi də yalnız peyğəmbərlərin mə'sumluğu sayəsində tə'min etmək olar. Aydın məsələdir ki, çirkin və nalayiq işlən görməklə, eləcə də günah və səhv yol verməklə camaatın onlara qarşı e'timadını doğrultmaq olmaz, əksinə camaatda onlara qarşı nifrət hissi oyanar. Bununla da cəmiyyətin hidayət və tərbiyə edilməsi məqsədi aradan gedər.

Əlbəttə bilirik ki, heç bir ağıllı insan öz məqsədini pozmaz, əksinə məqsədinə çatmaq üçün tə'sirli ola bilən hər bir şeydən istifadə edər. Məsələn, bir nəfər istəyir ki, onun toy məclisində bir neçə rütbəli şəxslər iştirak etsin. Bunu da bilir ki, onlara də'vət etmək üçün onların yanına gərək hörmətli şəxs göndərsin. Heç vaxt də'vət etmək üçün onların nifrət bəslədikləri şəxsi göndərməz, əksinə çalışar ki, də'vətini hamı qəbul edəcək şəxsi göndərsin. Əks təqdirdə onun bu işi əql və hikmətdən uzaq olub bəyənilməz və pis qələmə veriləcək. Mehriban və hikmət sahibi olan Allah da cəmiyyətin hidayət və tərbiyəsində əsas rol oynayan hər bir şeyə

riayət etməklə yanaşı camaatın çirkin insanların iradələrinə tabe olub həqiqi təkamüllərindən uzaq düşmələrini istəməmişdir. Elə buna görə də cəmiyyətin hidayət və tərbiyyəsinin ən gözəl surətdə mümkün olması üçün mə'sum peyğəmbərləri göndərmişdir.

Indi peyğəmbərlərin nə üçün mə'sum olmasını izah edirik.

**1)Tərbiyə qaydası:**

Ötən dərslərdə qeyd etdik ki, peyğəmbərlərin göndərilməsindən məqsədə bəşərin tərbiyə olunmasıdır. Bunu da bilirik ki, tərbiyəçinin əməli cəhəti onun sözlərindən və yol göstərməklərindən daha tə'sirlidir. Tərbiyəçinin əxlaqı və rəftarı insanda böyük dəyişiklər yarada bilər. Çünki (psixologiyanın əsaslarından olan) insanın özünü kiməsə oxşatmağa qaydasına əsasən insan get-gedə özünü tərbiyəçinin əxlaq və rəftarı ilə uyğunlaşdırır.

Söz təklikdə tərbiyə rolunu ifa edə bilmir. (Peyğəmbərliyin məqlsədi olan) ümmətin tərbiyəçi üçün əxlaq və xüsusiyyətlərə malik olsunlar. Eləcə də peyğəmbərlər insanları öz müqəddəs məqsədlərinə doğru cəlb etmək üçün mütləq hər bir günah və səhvdən uzaq olmalıdırlar. Aydındır ki, hətta gizlində və heç kimin görmədiyi bir yerdə günaha bulanmış şəxs insanların ruhunda əsas dəyişiklər yaratmaq üçün möhkəm ruhi qüvvəyə malik olmayacaq. Iki içən şəxs heç vaxt möhkəm iradə ilə başqalarını bu işdən çəkindirmək üçün mübarizə edə bilməz.

Camaatın günaha batmasından, peyğəmbərlərin xüsusən də Islamın əziz peyğəmbərlərinin möhkəm narahatçılığı və halının dəyişməsinin öz-ü onların hər bir günahdan uzaq olmasına gözəl şahiddir. Peyğəmbərlərin öz işlərində uğur qazanmasının sirri də onların sözləri ilə əməllərinin uyğun gəlməsidir. Elə bəşərin səhv fikrinin əsasını dəyişdirərək, cəmiyyəti təkamülə doğru sövq edə bilən amil də məhz onların əməlləri ilə sözlərinin uyğunluğudur.

**2)Qəbul və Inam.**

Camaat hər hansı bir söz deyən şəxsin sözlərinə nə qədər çox inanarsa, onun sözlərini dəbir o qədər qəbul edəcək, eləcə də əksinə, nə qədər inam az olarsa, qəbul da bir o qədər az olacaq. Buna görə də Allahın fərmanlarının söyləyən insanları günahdan qoruyan peyğəmsbərlər camaatın inamının onlara qarşı artmasından, sözlərinin qəbul e dilməsindən, onların islah edici qanunlarının həyata keçirtməkdə çalışmaqlarından, habelə səmimi qəlbdən onları rəhbər kimi tanımaqdan ötrü mütləq gözəl və bəyənilmiş sifətləri özlərində toplayıb. Hər bir günah və səhv dən uzaq olmalıdırlar. Bununla da bəşəri hərtərəfli təkamülə sövq edilməsi üçün peyğəmbərlərin göndərilməsi məqsədi tə'min olur. Əks tədqirdə peyğəmbərliyin məqsədi tə'min olmayacaq. Belə bir iş isə Allahın hikmətindən çox uzaqdır. Peyğəmbərlərin fövqəladə doğruluğu və mə'sumluğu camaatın onlarar ürək bağlamasına səbəb oldu. Hətta ardıcıllarından bə'zisi onların vurğunu olub tiaəti oylunda öz canlarından belə keçərək özlərini qurban edərdilər. Indi gəlin görək bir nəfər özünü günah və səhvdən necə qoruya bilər?

3)**Həqiqi məhəbbət**

Ilahi peyğəmbərlər mehriban Allaha aşiq idilər. Niyə də olmasınlar? Onlar öz dərin baxışları ilə Allahı hamıdan yaxşı tanıyırdılar. Onun əzəmətini hər şeydən üstün bilir və yalnız Onu məhəbbət və itaət edilməyə layiq bilirdilər. Onun razılığından başqa heç bir şeyi nəzərdə tutmayaraq Ondan qeyrisinə ürək bağlamırdılar. Hər bir şeyi Ona qurban edirdilər və kimə ibadət etdiklərini çox yaxşı bilirdilər. Elə buna görə də peyğəmbərlər təbliğ zamanı çətinliklər və ağır hadisələri can-başla qəbul edirdilər. Böhranlı vəziyyətdə qaldıqda isə açıq və gülər üzlə Allaha üz tuturdular. Öz məşuqunun yolunda çətinliklərlə üzləşdikdə qəlbləri sevinclə dolurdu. Tarix bu dahi insanların və hidayət mə'şəlqilərinin zəhmətlərini, eləcə də pis insanların onlara qarşı təzyiqlərini qeyd etlmişdir. Bu çətinliklərə dözməyin Allaha eşqdəq və fərmanlarına itaət etməkdən başqa

bir məqsədi olubmu? Əsla. Öz məşuqunun yolunda canlarından keçən, qəlblərinin düşüncələrinin hər bir guşəsində daim Allahı yad edən insanların Onun fərmanına tabe olmamasına inanmaq olarmı? Onlar Onun bəndəliyi və itaəti yolunda əllərindən gələni və bundan həzz alırlar. Islamın əziz peyğəmbərlərindən sorşudular ki, nəyə görə özünüzü ibadətdə bu qədər əziyyətə salırsınız? Siz ki, paksınız və heç bir günahınız yoxdur. Peyğəmbər (s) buyurdu: Nə üçün Allahıma şükr edən bəndə olmayam.[1]

Həzrət Əli (ə) Islam peyğəmbərinin yüksək sifətlərinə işarələr edibdir. O, cümlədən buyurmuşdur: "Allah Məhəmməd (s)-i hələ peyğəmbər olmazdan qabaq camaatı xəbardar edərək yaxşı işlərə tövsiyə, pis işlərdən çəkindirdiyi halda pyeğəmbərliyə göndərdi. Uşaqlıqda hamıdan yaxşı, qocalıqda isə hamıdan seçilirdi. Əxlaq və təbiəti hamıdan pak idi. əliaçıqlığı və səxavəti

[1] -Nurus-səçələyn; 3-cü cild; səh 367.

bütün səxavətlilərdən artıq idi.[2] O, təqvalıların rəhbəri, hidayət olmuşların yolunu işıqlandıran idi."[1]

Bəli, peyğəmbərin Allaha olan kaomil mərifəti və həqiqi məhəbbəti onları günah haqqında düşünməkdən belə çəkindirdi.

### Peyğəmbərin dərin və kamil düşüncələri

Düşüncələr eyni deyil. Bir kasa qabda olan suya vəba mikrobunun düşməşsindən, eləcə də vəba xəstəliyinin təhlükəli nəticəsindən xəbardar olan şəxs heç vaxt o kasaya tərəf oəl xuzatmaz. Ancaq mikrobun nə olduğunu bilməyən şəxs bəlkə də o su kasanın zahiri gözəlliyinə aldanıb, sudan içər. Yaxşı ilə pisi ayırd edə bilməyən uşaq çirkin şeyləri yemək üçün əlini ona tərəf uzada bilər. Ancaq ayaxşını pisdən ayırdı edən və şüur sahibi olan insanın belə iş görməşsi qeyri-mümkündür. Insanların bir dəstəsi

[2] -Təbəri tarixi 5-ci cild-səh. 2269-2271

[1] -Nəhcül bəlağə; 15-ci xütbə.

baxmayaraq ki, gözlənilməz ziyanlardan qorxur və onların qarşısını alır, lakin bununla belə yenə də tədrici ziyanlara çox əhəmiyyət vermir. Məsələn; bir nəfər çürümüş dişini çəkdirməyə tənbəllik edir və bu gün, sabah deməklə həkimə müraciət etməyi təxirə salır. Axırda iş o yerə yetişir ki, dişləri xarab olur. Bunun nəticəsində də müxtəlif narahatçılıqlara və ağır xəstəliklərə düçar olur. Ancaq həmin şəxs apendisit ağrısını hiss etdikdə dərhal öünü cərrahın yanına çatdırır. Savavdlı bir həkimin spirtli içki vərdiş etməsinin səbəbi onun mə'nəvi və ruhi ziyanlarından tam şəkildə xəbardar olması və tədrici zərərlərini də nəfsani istəklərinə qurban verməsidir. Avam camaat günaha səthi bir baxışla baxaraq onun maddi, mə'nəvi, cismi və ruhi tə'sirlərindən tam xəbardar deyil. Ancaq elmi və həqiqəti tanımaq baxımından yüksək bir qüvvənin köməyi ilə bütün camaatdan üstün olan, eləcə də günahın bütün tə'sirlərindən tam xəbardar olan və axirət dünyasında canlanacaq günahların tə'sirlərini batinləri ilə müşahidə edən peyğəmbərlər heç vaxt özlərini nəfsani istəklərinə tə'sir etmir və özlərini günahla bulaşdırmırdılar. Onlar hətta zehinlərində belə günahın fikrini düşünmürdülər. Peyğəmbərlər günahın Bərzəx və axirət aləmlərindəki tə'sirlərini görür və onu camaat üçün izah edirdilər. Məsələn; Islamın əziz peyğəmbəri b u sahədə bir çox rəvayətlər söyləmişdir. Indi onlardan bir neçəsini burada qeyd edirik:

Hzərət Əmirəlmö'minin Əli(ə) buyurur:

Bir gün mən və Fatimə (s.ə)-ın yanına getdik. Gördük ki, o, bərk ağlayır. Mən dedim ki, atam-anm sənə qurban olsun, nəyə görə ağlayırsan? Peyğəmbər (s) buyurdu: Me'raca getdiyim gecə öz ümmətimin qadınlarından bir dəstəsinin ağır əzab içində olduğunu gördüm. Başqa birisini dilindən asıb boğazına qaynar su tökürdülər.başqa birisi isə bədənin ətini yeyərək ayağı altından atəş şö'lələnirdi. Başqa birisinin əl-ayağı bağlanmışdı və Cəhənnəmin ilanları, əqrəbləri onu sancırdı. Başqa birisinin ətini isə oddan hazırlanmış qayçılarla doğrayırdılar. Başqa bir qadın it

şəklində idi və od onun aşağısından daxil olub ağzıqndan çıxırdı. Əzab mələkləri odlu gürzələrlə onun başına və bədəninə vururdular. Peyğəmbər (s)-in qızı Fatimə (s.ə) soruşdu ki, bu qadınlar nə etmişdilər ki, Allah onlara bu cür əzab verir? Peyğəmbər (s) buyurdu: Saçından asılan qadın saçını dünyada naməhrəmdən gizlətmirdi, dilindən asılan qadın ərinə əziyyət edirdji, bədənin ətini yeyən qadın özünü naməhrəm kişi üçün bəzəyirdi, əl-ayağı bağlanmış və üstünə əqrəblər tökülən qadın dəstamaza, paltarının təmizliyinə, cənabət və heyz qüslünə əhəmiyyət verməşyib, namazı yüngül sayırdı, qayçı ilə bədəni doğrana, paltarının təmizliyinə, cənabət və heyz qüslünə əhəmiyyət verməşyib, namazı yüngül sayırdı, qayçı ilə bədəni doğranan qadın özünü naməhrəm və yad kişinin ixtiyarında qoruyurdu, it şəklinə dlüşmüş və ağzından od çıxane qadın ilə müğənni olmuşdur. Sonra Peyğəmbər (s) əlavə edərək buyurdu: "Vay olsun ərini qəzəbləndirən qadının halına və xoş o qadının halına ki, əri ondan razı qala!"[1]

Peyğəmbərn (s) həmçinin buyurmuşdur: (Me'racda olarkən) odlu zəncirlərdən asılmış bir dəstə insan gördüm. Cəbrail (ə)-dan onların kim olduqlarını soruşdum. O dedi ki, bunlar Allahın onları Öz halalı vasitəsilə haramdan ehtiyacsız etdiyi, lakin onlar yenə də haramın ardınca getmiş şəxslərdir. Eləcə də  bədənləri odlu saplarla tikilən bir dəstəni grdüm. Onların da kim olduqlarını soruşdum. Cəbrail (ə) dedi: "Bunlar qızlarla haram əlaqədə olmuş şəxslərdir."[1]

Peyğəmbər (s) başqa bir hədisdə buyurmuşdur: "Allah sələmlə məşğul olmuş şəxsin qarnını sələmdən yediyi miqdarda Cəhənnəm odu ilə dolduracaq."[2] O Həzrət şərabı içən şəxs və başqa günahlar barədə də elə kəlamlar buyurmuşdur ki, o kəlamlar hər bir insanı günahdan çəkindirir. Gör indi

[1] Biharul ənvar; 18-ci cild; 351-ci səh.

[1] –Biharul Ənvər; 18-ci cild; 333 səh.

[2] –Səvabul ə'mal və iqabul ə.mal 336-cı səh.(Əməllərin savabı və cəczası).

günahın Bərzəx və axirət əsərlərinin duyan peyğəmbərlər necə olmuşlar! Bir sözlə axirəti yada salmaq və axirət dünyasında günahların tə’sirlərini müşazidə etmək peyğəmbərləri günahdan qorumaq üçün ən ggözəl amil ollmuşdur. Allah-təala Qur’ani Kərimdə buyurur: “(Ya Məəhəmməd!) Qüvvət və bəsirət sahibi olan bəndələrimiz Ibrahimi, Ishaqı və Yə’qubu da yad et! Biz yurdu (axirət yurdunu) anmaqxislətini onlara məxsus etdik. Şübhəsiz ki, onlar dərgahımızda seçilmiş ən yaxşı kimsələrdəndir!”[3]

## XVII DƏRS

## MUSA PEYĞƏMBƏR.

[3]-Sad surəsi 45-47-ci ayələr.

Həzrət Musa (ə) anadan olan zaman Misirdə qibtilər və osibtilər adlı iki böyük tayfa yaşayırdı. Misirə hökmranlıq edən fir’onlar qibtilər nəslindən idilər. Həzrə Yə’qubun nəslindən olan Bəni-Israşil isə sibtilər adlınırdı. Bəni-Israilin ilk və qədim yaşıyış məskəni Kən’an idi. Lakin bu tayfadan olan Həzrət Yusif (ə) Misirin

hökmdarı seçildikdən sonra onlar da Kən'andan Misirə gəlib orada məskunlaşmıvşdılar. Ilk vaxtlar onların sayı bir o qədər də çox deyildi. Aqncaq get-gedə onların sayı artaraq nəticədə çox cəmiyyətli bir tayfa şəklinə düşüb özlərinə ad-san qazanırlar. Onların hörməti Həzrət Yusif (ə)-ın vəfatı və özbaşınalıqları nəticəsində aradan getdi və şelə vəziyyətə düşdülər ki, qibtilər onlara hakim oldular. Qibtilər onlara istismar etməklə yanaşı ağır və çətin işlərdə işlədir və onlara qarşı heç bir zülmdən, zorakılıqdan çəkinmirdilər. Misirin "Fir'on " ləqəbi almış hökmdarı qibtilərdən olduğu üçün onun nəticəsi sibtilərin qanına batmışdı və elə qüdrətli idi ki, onunla mübarizə etmək heç ağlına belə gəlmirdi. Özünə qarşı həddən artıq istəyi onun özünün Allah adlandırmağa, camaatı ona itaət etməyə, müsiriklik və bütpərəstliyə çağırmasına gətirib çığarmışdı. Fir'on Allahın insanları hidayət çırağından uzaq olmayacağından xəbərsiz idi və bilmirdi ki, Allahın keçmiş adətlərindən biri camaatın cahillikdən, zülmdən nicat tapması üçün daim peyğəmbərlər göndərməsi olmuşdur. Fir'on qeybdən bir qüvvə gəlib bir iş görəcəyini ağlına belə gətirmirdi. Münəccimlər  Fir'ona xəbər verdilər ki, Bəni-Israildən onun hakimiyyəti üçün təhlükə törədjən bir körpə dünyaya gələcəkk. Fir'on bu xəbərdən bərk qəzəblənərək Bəni-Israildə olan bütün oğlan uşaqlarının başını bədənindən ayrılmasınını əmr edir.

Bütün bunlara baxmayaraq Həzrət Musa (ə) dünyaya gəldi. Təhlükə qorxusu olduğuna görə anası öz körpəsinə olan məhəbbətindən göz yumub Allahın ilhamı ilə əziz körpəsini tutuya qoyub Nil çayının dalğalarına tapşıraraq suya buraxdı.

Fir'onla həyat yoldaşı öz saraylarında Nil çayının kənarında dayanıb çaya tamaşa edirdilər. Elə bu zaman suyun üzərində qutu içərisində sakit yatmış körpəni gördülər. Fir'onun həyat yoldaşı o pak surəti gördükdə onu yenidən çaya atmağa ürəyi razı olmadı və qəlbində körpəyə qarşı məhəbbət hissi oyandı. O, körpəni öz övladı kimi sarayda saxlamaq üçün Fir'ondan icazə istədi. Fir'on

da bu körpənin bir gün onun üçün faydalı olcağı ümidi ilə razı oldu.

Südəmər körpə heç bir dayəyə yaxın düşmürdü və bunun özü böyük bir müşkilə çevrilmişdir. Nəhayət döşləri süd ilə dolu olan Həzrət Musanın anası dayə adı ilə Fir'onun sarayına daxil oldu və Həzrət Musanı qucağına alıb ona süd verməyə başladı.[1] Əcaba! Fir'on yeganə düşmənini öz qucağında böyüdür.

Beləliklə Həzrət Musa (ə) böyüyüb boya-başa çatdı. Allah ona elm və hikmət əta etdi. O, Fironun zalım hökumətində bütün zülmləri müşahidə edir, ancaq nə təkcə özü zulm etmir,

Üstəlik zülmü gördükdə narahat olub bunun üçün çıxış yolu axtarırdı.

Bir gün yolda gedərkən Fir'onun adamlarından birinin Bəni-Israildən olan bir nəfərlə vuruşduğunu görür. Bəni-Isroaildən

Olan şəxs Həzrət Musa (ə)-ı gördükdə onu köməyinə çağırdjı. Musa (ə) qabağa

[1] -Biharul ənvar 13-cü cild səh-38-40.

gediğb Fir'onunn adamına möhkəm bir yumruq vurdu. Təsadüfən onun yumruğu nəticəsində həmin şəxs öldü. Həzrət Musa (ə) dərhal oradan uzaqlaşdı. Səhərisi gün dünənki şəxsin yenidən Fir'onun başqa bir tərafadarı ilə vuruşduğunu görür. O yenə də Həzrət Musa (ə)-dan kömək istədi ki, sən doğrudan da açq-aşkar azğınlıqdasan. Həzrət Musa (ə)-ın onu vuracağını güman edib qışqırdı lki, sən dünənki kişini öldürdüyün kimi məni də öldürmək istəyirsən? Musa (ə) bu hadisədən sonra nigaran halda özünü qorumağa başlayır. Ancaq Fir'onun bütün tərafdarlarına məhkum olmuşdur ki, öldürülmüş şəxsin qatili Musa (ə)-dır. Buna görə də Fir'on Həzrət Musa (ə)-nı öldürmək məqsədilə ətrafdakılarla məsləhətləşdi. Mə'murlar Həzrət Musa (ə)-ı tə'qib edirdilər. Musa (ə) qorxu və nigarançılıq içində olduğu halda əməli saleh və Allah inamı olan bir şəxs onu xəbardar edib dedi ki, tez bu şəhərdən çıxsın. Çünki Fir'onun adamları onu öldürmək üçün tədbir töküblər. Həzrə Musa (ə) narahatçılıqla Misirdən zalımların əlindən

nicat tapmaıs üçün Allahdan kömək diləyərək Mədyənə tərəf yollandı. Yol boyu daima deyirdi: "Ilahi məni zalımların əlindən nicat ver."[1]

Nəhayət Musa (ə) Mədyənə daxil oldu və istirahət üçün bir quyunun kənarında dayandı. Quyunun kənarında bir dəstə camaatın öz heyvanlarına su verməsini, camaatdan bir az aralıda isə iki qadının ödz qoyunları ilə dayanıb gözləməsini gördü. Həzrət Musa (ə) və kömək məqsədilə onlara yaxınlaşıb gözləməklərinin səbəbini soruşduqda onlar dedilər: Bizim atamız qoca olduğuna görə məcbürüq özümüz qoyunlarna su verək. Indi də qoyunlara su vermək üçün quyunun kənarının boş olmasını gözləyirik. Həzrət Musa (ə) irəli gedib qoyunlara su verdi. Qadınlar evə qayıtdılar. Bər yorğun və ac olan yeməyə heç bir şeyi olmayan Musa (ə) isə bir kölgədə əyləşib Allahdan özünə ruzi istədi.[2] Çox çəkmədi ki, o qızlardan biri utana-utana Musa (ə)-ın yanına gəlib dedi: "Atam gördüyünz işin muzdunu vermək üçün sizi çağırır. Qızların atası Allahın seçilmiş peyğəmbər i Həzrət Şüeyb (ə) idi. Həzrət Musa (ə) qızla birgə evə yollandı. Yolda Musa (ə) qızdan onun arxasınca yol getməsini xahiş edib dediki, mənə arxadan bələdçilik et. Çünki mən bir ailədənəm ki, (peyğəmbərlər ailəsindən) qadınların bədəninə əsla baxmazlar. Beləliklə Musa (ə) Həzrət Şueyb (ə)-ın yanına gəldi və başına gələnləri onun üçün nəql etdi. Şüeyb (ə) ona ürəkdirək verib dedi: "Qorxma, daha zalımların əlindən qurtarmısan." Həzrət Musa (ə)-ın arxasınca gələn qız Həzrət Şüeyb (ə)-( dedi: "Atacan,bu kişini xidmətə götür. O həm güclü, həm də düzgün adamdır." Həzrət Musa (ə)-ın əmanətdarlığından və təmizliyindən xəbardar olan Şüeyb peyğəmbər qızlarından birini ona ərə verdi. Musa (ə) Şüeyb (ə) ilə razılaşdığı kimi on il orada qaldı. Bu müddət ərzində Şüeyb (ə)-ın işlərini yerinə yetirməyə və onun

---

[1] -Qəsəs surəsi 21-ci ayə.

[2] -Qəsas surəsi; 24-cü ayə.

üçün çobanlıq etməyə başladı.[1] On il bitdikdən sonra Həzrət Musa (ə) ailəsi ilə birlikdə Misirə tərəf hərəkət etdi. Soyuq və qaranlıq bir gecədə yolu itirdilər.

Hər yerdə qaranlıq idi yolu tapmaq mümkün deyildi. Həzrət Musa (ə) ailəsi ilə çxılmaz vəziyyətdə qalmışdı. Birdən Həzrət Musa (ə)_ın gözü bir od parçasına sataşdı. Həyat yoldaşına dedi ki, sən burda qal, mən ora gedib bəlkə bir adam (bələdçi) tapım. Həm də oddan bir parça götürüb bura gətirərəm. Musa (ə) dərhal oda tərəf yollandı. Ora yaxınlaşda orda olan ağacdan belə bir səs eşitdi: "Ya Musa! aləmlərin Rəbbi olan Allah mənəm, mən səni peyğəmbər seçdim. Sənə vəhy olunanı dinlə. Mənəm yeganə Allah və Məndən başqa heç bir tanrı yoxdur. Təkcə Mənə ibadət et və məni anmaq üçün namaz qıl. Qiyamət saatı mütləq gələcəkdir. Hər kəs etdiyi əməlin əvəzini (mükafatını, yaxud cəzasını) görəcək".[1] Həzrət Musa (ə)-ın əlində bir çubuq var idi. o çubuqdan həm əsa kimi, həm də ağac yarpaqlarını qoyunları üçün yerə tökməkdə istifadə edirdi. Allh buyurdu: "Ya Musa! əsanı yerə at.2" Musa (ə) əsanı yerə atan kimi o, dərhal bir ilana döndü. Həzrət Musa (ə) qorxub qaçdı. Qorxudan heç geriyə də baxmırdı. Nida gəldi ki, qayıt! Qorxma, aram ol! qəlbi aram oldu və qayıtdı. Allahın fərmanı ilə əlini atıb ilanı tutdu və Allahın əmri ilə o, yenidən əsaya çevrildi. Yenə ona deyildi: Əlini qoltuğunu altına sal və çıxart. Belə etdikdə əlini parlaq nur kimi parıldayan gördü. Bu nur başqa nurlar kimi gözə əziyyət vermirdi. Bunlar Həzrət Musa (ə)-ın mö'cüzələri idi. Allah Fir'on və fir'onçuların onun peyğəmbərliyində şübhə etmələri, eləcə də onun həqiqi peyğəmbər olmasına sübut olaraq bu nişanələr və qüdrətləri ona əta etmişdi. Eləcə bu zaman Allah ona, Fir'onun yanına getmək fərmanını verdi. Artıq onun peyğəmbərliyi başlanmışdı.

Həzrət Musa (ə) əvvəlcə xoş daşışıqla Fir'onu öz peyğəmbərliyindən xəbardar edərək onu öz Allahının itaətinə də'vət etdi

---

[1] Nurus səqələyn 4-cü cild səh-117-123.

[1] -Qəsəs suərsi 15-31-ci ayələr, taha surəsi-13-16-cı ayələr.

və dedi: "Düzgün və pak ruhiyyəyə malik olmaq istəyirsənmi? Səni Allahına tərəqf yönəltməyimi istəyirsənmi? Fir'on ondan soruşdu: "Sənin Allahın kimdir?" Həzrət Musa (ə) buyurdu: "Allahım yeri, göyü və hər bir şeyi yaradandır." Fir'on bu cavabdan bərk qəzəbləndi və Musa peyğəmbərə dedi: "Mən sizin üçün özümdən başqa bir Allah tanımıram. Sən isə ey Musa, əgər məndən itlaət etməsən, cəzalanacaqsan." Həzrət Musa (ə) buyurdu: "Mən öz Allahım tərəfindən sənin üçün nişanələr gətirsəm necə? (Inanarsanmı?)" Fir'on dedi: -"Haradadır nişanələrin? Əgər doğrudursa gətir!" Həzrət Musa (ə) dərhal əsanı yerə atdı. Əsa ilana çevrildi. Sonra isə əlini qoltuğunun altına salıb çıxartdıqda əli parlaq nur saçmağa bahladı. Fir'on mat-məəttəl quruyub qalmışdı. Bir tərəfdə Həzrət Musa, Musanın Allahı və Onun nişanələri, digər tərəfdə isə Misir, camaata padşahlıq və hakimiyyət durmuşud. Fir'onun özünü sevərliyi onun Musa (ə)-a təslim olmasının qarşısını alırdı. Ancaq bu nişanələrin qarşısında aciz qalmışdı. Özü-özünə belə fikirləşdi ki, yaxşı olar onu sehrbaz və cadugər adlandırım.

Bu fikirlərlə də heyrət içində donub qalmış tərəfdarlarına üz tutub dedi: Bu, sehrbazdır və istəyir ki, sizi öz vətəninizdən çıxartmağa özü sizin yerinizi tutsun. Indi nə deyirsiniz? Tərəfdarları dedilər ki, onu saxla və ona qələbə çalıb sehrini məğlub edərək rüsvay etmək üçün sehrbazları də'vət et. Fir'on qəbul etdi. Fir'onun fərmanı ilə ad qazanmış bütün sehrbazlar yığıldılar. Fir'on o, böyük cəmiyyətin qarşısında sehrbazlara söz verdi ki, əgər Musaya qalib gəlsəniz, sizə istədiyinizi verəcəyəm. Beləliklə, sehrbazlar Həzrət Musa (ə)-ı alçaldıb Fir'onun yanında yüksək rütbə qazanacaqları ümidi ilə əllərindəki çubuqları, kəndirləri yerə atdılar. Onların sehri nəticəsində bu çubuq və kənqdirlər şahid olan camaatın gözündə sürünən ilanlara bənzəyirdi. Camaatın ağzı təəccübdənaçıq qalmışdı. Ancaq Həzrət Musa (ə) Allahla idi. Daha doğrusu Allah Musa (ə)-la idi. Növbə Musa (ə)-a yetişdi. O, əlindəki əsanı Fir'onun sehrbazlarının ilanlarına tərəf

atdı. Hamı o əsanın böyük bir əjdahaya çevrilib fırlanaraq sehrbazların düzəltdiyi bütün ilanları udmasını gördü. Əjdaha ilanları elə uddu ki, sanki heç meydana bir dənə də ilan olmamışdır. Hamıdan qabaq sehrbazlar Həzrət Musa (ə)-a iman gətirdilər. Hamı bir ağızdan dedi ki, biz dünyanı yaradan, Harunun[1] və Musa (ə)-ın Allahına iman gətirdik. Onlar səcdəyə düşüb gördükləri işə görə üzr istədilər. Fir'on daha da qəzəblənərək onları hədələdi. Ancaq onlar sehrlə mö'cüzənin fərqini daha yaxşı bilirdikləri üçün bildilər ki, Həzrət Musa (ə) sehrbaz deyil və onun qüdrəti Ilahi bir qüdrətdir. Buna görə də Fir'onun təhdidindən qorxmadılar. Fir'onun təhdidindən qorxmadılar. Fir'on onlara dedilər ki, siz nə cür'ətlə məndən icazəsiz Musanın Allahına iman gətirirsiniz? Mən sizin əl-ayağınızı kəsib sizi xurma ağaclarından asacağam. Bədbəxt elə güman edirdi ki, camaat öz e'tiqadlarında da gərək ondan icazə alsın. Sehrbazlar dedilər:-"Biz səni bizi yaradan Allahdan üstün tuta bilmərik, biz öz Allahımıza qayıdırıq. Musa (ə)-a ilk iman gətirən dəstə biimz olduğumuz üçün öz Allahımızdan bizi bağışlayacağını ümid edirik. Sən nə istəyirsən, et. Biz yaxşı bilirik ki, onsuz da bu dünya əbədi deyil." Lakin bu hərarətli sözlər Fir'on və fir'onçuların sərt qəlbi üçün tə'sirsiz idi. onlar öz qüdrət və məqamlarına aldanmışdılar. Onlar Bən-Israili əsir etmişdilər. Qadınları təhlükəsiz olduqlarına görə diri saxlayır işlədir, kişiləri isə öldürürdülər. Allah ibrət olsun deyə fir'onların zəifliyini dəfələrlə aşkar edərək onları rüsvay etmişdi. Hər dəfə bəla gəldikdə Həzrət Musa (ə)-la əhd-peymanlarını unudaraq yenidən zülm edirdilər. Fir'on öz tayfasına deyirdi: "Icazə verin mən Musa (ə)-ı öldürüm. Qorxuram o, sizin dininizi əlinizdən alıb bu məmləkətdə fitnə və çaxnaşma sala."

Bu zaman o vaxta qədər imanını gizli saxlamış bir kişi üzünü nadan camaata tutub səslədi: "Tanrı mənim Allahımdır" deyən bir

[1] –Harun Musanın qardaşı idi. o, xoş bə'yanı ilə Musaya peyğəmbərliiyndə kömək edirdi.

şəxsi öldürməkmi istəyirsiniz? Özü ilə gətirdiyi Ilahi nişanələri görmürsünüz?

Fir′on dedi ki, mən nə demişəmsə o da olacaq. Yenə də həmin mö′min şəxs camaatı xəbardar edərək dedi: "Mən qorxuram ki, sizin də aqibətiniz Nuh, Ad və Səmud tayfaları kimi olsun. Mən qorxuram ki, siz özünüzü Cəhənnəm atəşinə giriftar edəsiniz və heç kəs sizi Allahınızın əzabından nicat verə bilməyə?" Fir′on o kişinin sözlərinə e′tina etməyərək öz fikrində idi və istehza ilə vəziri Hamana dedi: "Göyün yollarından xəbardar olmaqdan ötrü mənim üçün uca bir qüllə tikdir. Bəlkə orada Musanın Allahına rast gəldim." Allah möhkəm imanı olan o kişi öz sözlərini təkrar edərək deyirdi: "Mənim ardımca gəlin, mən sizi düz yola aparacağam. Ey mənim mənim tayfam! Bu dünya fanidir, dünyaya aldanmayın. Axirət isə həmişəlik və əbdidir. Insanın gördüyü bütün işlərə ordada baxılacaq. Pis əməl sahibi cəzasını görəcək, yaxşı əməl sahibi isə mükafatını alacaq. Yaxşılıqların mükafatı əbədi Behiştdir. Camaat mən sizi səadətə çağırdığım halda siz nəyə görə məni bədbəxtliyə də′vət edirsiniz!? Siz məni misilsiz Allahıma kafir olub başqasını Ona şərik qoşmağımı istəyirsiniz. Mən isə sizi həqiqətəndə bağışlayan və izzət sahibi olan Allaha tərəf də′vət edirəm. Hamımız bir nəfər kişi axırda Ona tərəf qayıdacağıq. Haqqı görərək onu anlayıb lakin ona boyun əymələrin hamısı Cəhənnəm oduna düçar olacaq. Çox çəkməz dediklərimin gerçək olduğunu görərsiniz."

Fir′on və Fir′ona itaət edənlər bu sözlərlə öz yollarını dönmürdülər. Allah o rəşadətli mö′mini Öz pənahına götürüb bütün fir′onçuları bəlaya düçar etdi. Nəticədə Allah-təala Musa (ə)-a illərlə zülmə mə′ruz qalmış tayfanı gecə ikən Misirdən kənardan çıxarmasını əmr etdi. Həzrət Musa (ə) Bəni-Israil qövmü ilə qaranlıqda yola düşüb. Qırmızı dəniz sahilinə tərəf üz tutdu. Onlar qəlblərində Fir′onun öz dəstəsi ilə onları təqib edəcəyindən qorxurdular. Elə belə də oldu. Fir′on öz qoşunu ilə Həzrət Musa (ə)-ı tə′iqb etoməyə başladı. Bəni-Israil o böyük qoşunu gördükdə təşvişə düşmüşdü. Heç bir çarə

yolu yox idi. bir tərəfdə dəniz digər tərəfdə isə Fir'on öz qoşunu ilə birlikdə Musa (ə) Allaha pənah apardı. Ona vəhy oldu ki, əsanı dəryaya vur və sudan keç. Yenidən həmin əsa Allahın qüdrət nişanəsinə çevrildi. Həzrət Musa (ə) əlindəki əsanı suya vurdu. Elə bu dəmdə dənizin ortasından quru və düz bir yol açıldı. Bəni-Israil o yolda Musa (ə)-ın arxasınca yollandı. Su iki divar kimi bir-birinin üzərinə yığılmış və yerə tökülmürdü. Bəni-Israil sudan keçdi. Bu zaman Fir'on da öz qoşunu ilə sahilə yetişdi. Fikirləşirdi ki, qayıtsın, yoxsa dənizə daxil olsun? Axı bir az bundan qabaq Həzrət Musa (ə)-ın öz qövmü ilə birlikdə dənizdən sağ-salamat keçməsini öz gözü ilə görmüşdü. Ancaq Allahın bu açıq-aşkar nişanəsinə iman gətirmirdi. Qoşununa Musa (ə)-ın qövmü kimi sudan keçmə fərmanı verdi. Hamı itaət edərək dənizə daxil olub Həzrət Musa (ə)-a və onun qövmünə çatmaq üçün6 onları tə'qib edirdi. Onlar qürur badəsindən məst olmuşdular. Elə bu vaxt iki yerə bölünmüş dəniz yenidən birləşdi. Su hər tərfdən onları əhatəyə aldı. Özünü çarəsiz göörən Fir'on imanq gətirdi, lakin artıq gec idi. Beləliklə də onların hamısı dənizdə boğulub yaddaşlarından silindi. Qur'an Fir'onun[1] həyatının son anlarının çox gözəl şəkildə təsvir edərək buyurur: "Israil oğullarını dənizdən sağ-salamat keçirtdik. Fir'on və əsgərləri zalımcasına və düşməncəsinə onların arxasınca düşdülər. Fir'on batacağı anda: "Israil oğullarının inandıqlarından başqa tanrı olmadığına iman gətirdim. Mən artıq (Ona) təslim olanlardanam:-dedi. Indmi? (Bütün var-dövlətin, hakimiyyətin əlindən çıxdıqdan sonramı iman gətrirsən?) Halbuki əvvəlcə (Allaha) qarşı çxmış və fitnə-fəsad törədənlərdən olmuşdun! Səndən sonrakılara bir ibrət olsun deyə, bu gün səni xilas edəcəyik (sənin cansız bədənini sahilə

[1] -Fir'orn qədim Misirin Hökmdarlarına verilmiş ləqəbdir. Musa (ə)-la müasir olan Fir'onun əsl adı II Ramses idi. onun mumyalanmış meyiti 1881-ci ildə tapıtıb. Qahirə muzeyində saxlanılır.

atacacayıq). Həqiqətən, insanların çoxusu ayələrimizdən qafildir."[2]

Beləliklə israil oğullar dənizdən keçdilər. Fir'on və onun zülmündən qurtaran Musa peyğəmbərin indi ən böyük müşkülü Israil oğullarının padşahlıq və bəhanə axtarmaları idi. dənizin o biri sahilində bütə ibadət edən bir millətlə rastlaşdıqda Israil oğulları bütpərəstlikdə də başqalarından geri qalmamaq üçün də büt düzəltməsini istədilər. Həzrət Musa (ə) bu məsələdən bərk narahat olub dedi: "Siz nə qədər də cahil və nadansınız. Sizi fir'onun əlindən nicat verən Allahdan başqa bir Allahı sizin üçünq tapmağımı istəyirsiniz?" Allah Həzrət Musa (ə)-ı otuz gün camaatdan ayrılıb ibadətlə məşğul olmağa də'vət etdi. Həzrət Musa (ə) Özyerinə Israil oğullarının arasında qardaşı Harun (ə)-ı rəhbər seçib qövmün idarəçiliyinni ona tapşırdı. Otuz gecədən sonra Allahın fərmanı ilə o gecələrə on gecə də əlavə edildi. Qırx gecə bitdikdən sonra yəhudi qövmünün hidayəti üçün ona Tövrat nazil oldu. Ancaq Israil oğulları Həzrət Musa (ə)-dan bir neçə gün ayrı düşdükləri müddətdə qəlbləri yenidən büt arzusuna düşdü. Samiri adlı hiyləgər bir şəxs onların daş-qaşlarını alıb zərli bir inək düzəltdi. Bu inək xüsuşsi şəraitdə onun fərmanı ilə böyüyürdü. O, ağılları yalnız gözlərində olan camaata üz tutub dedi: "Bu inək sizin və Musa (ə)-ın Allahıdır. Ona ibadət etməliyik." Camaat Allahın cism olmasını, onun zaman və məkana sığmasını unutdu. Onlar yaddan çıxardılar ki, Allah onların yol göstərəni olmalıdır. Camaat Həzrət Musa (ə)-ın bütün tə'limlərini unudaraq Samirinin heç kəsə fayda və zərər verə bilməyən zərli inəyini Allah kimi qəbul etdi. Samirinin düzəltdiyi bu bütün yalnız inək səsi çıxartmağına diqqət etməlidirlər.

Halbuki əgər Allahın camaat arasında zahir olması mümkün olsaydı, onda gəlib onları hidayət edərdi. Aydındır ki, hidayətlə də faydasız böyürməyən yerdən-göyədək fərqi var. Yəhudilər Harun (ə)-ın nəsihətlərinə

[2] -Yunis surəsi 90-92-ci ayələr.

məhəl qoymayıb azğınlığa düçar oldular. Həzrət Musa (ə) qayıdıb onların azğınlığa doğru çəkildiklərini gördükdə bərk narahat oldu və onları danladı. Musa (ə) Samiriyə buyurdu:-“Indi bax gör sənin düzəltdiyin Allahı nə edəcəyəm. Onu yandırıb gülünü dənizə səpəcəyəm. Sizin Allahınız hər şeyi görən və hər şeydən xəbardar olan Allahdır. Ondan başqa tanrı yoxdur.” Beləlikldə Musa (ə) o bütü yandıraraq məhv etdi. Həzrət Musa (ə)-ın Ilahi sözləri yəhudilərin qəlbində o qədər də tə’sir bağışlamadı. Həmişə bəhanə axtarır və əhd-peymanlarını sındırırdılar. Onlar Həzrət Musa (ə)-dan sonra da haqqa çox az boyun əydilər, peyğəmbərlərin söylədiklərinə e’tinasız yanaşdılar. Peyğəmbərlərin bə’zilərinə zülm verir, bə’zilərini isə öldürürdülər. Onlar hətta öz asimani kitablarını da təhrif edərək tövratı o qədər nöqsanları vardır ki, onu asimani bir kitab adlandırmaq olmaz.

# XVIII DƏRS

# ISA (ə) ALLAHIN PEYĞƏMBƏRI VƏ BƏNDƏSI

## Isanın anası Məryəm (ə.s)

Imranın həyat yoldaşı sonsuz idi. ancaq ərindən Allahın ona Tanrının fərmanı ilə ölüləri dirildən və xəstələri sağaldan bir oğlan və'dəsi verdiyini eşitmişdi.[1] Allahın öz və'dəsini yerinə yetirəcəyinə inandığı üçün Allahdan ona övlad verməsini istədi. Allah onun duasını qəbul etdi və o, hamilə oldu. Bu böyük ne'mətin şükrünü yerinə yetirmək məqsədi ilə uşağını Allahın evində (Beytul-müqəddəsdə) xidmətçi ağacını nəzr etdi.[2] dünyaya göz açan körpə qız idi. anası onu gördükdə dedi: "Ilahi bu ki qızdır!" Ancaq buna baxmayaraq öz nəzrimə vəfa edərək onu Məryəm [3] adlandırdım və onun nəslini məl'un Şeytandan sənə tapşırıram.[4] Imranın arvadı Məryəmi Allahın evinə aparıb oranın işçilərinə taprşırdı. Bu körpə onların rəhbəri Imranın qızı olduğuna görə onların hər biri uşağı öz öhdəsinə götürüb böyütmək şərəfinə nail olmaq istəyirdi. Belə olduqda onların

[1] -Məcməül bəyan kitabı 2-ci cild 435-ci səh.
[2] -Ali-Imran surəsi 34-cü ayə.
[3] -Məryəm-ibadətkar qadın mə'nasındadır.
[4] -Ali-Imran surəsi 35-ci ayə.

arasında mübahisə düşdü və aralarındakı mübahisəni həll etməy üçün püşk atdılar. Beytul-Müqəddəsin işçiləri arasında püşk Həzrət Zəkəriyya (ə)-ın adına düşdü. Məryəmi böyütmək üçün Zəkəriyyaya tapşırdılar.[5]

Məryəm yavaş-yavaş böyüyür və Allahın evində ibadətlə məşğul olurdu. Onun ibadət və təmizliyi o yerə çatmışdı ki, Həzrət Zəkəriyya (ə) hər dəfə Məryəmin ibadət etdiyi mehraba daxil olduqda onun yanında (asiman) ruzi olduğunu görər və təəccüblə soruşardı: "Bu yeməklər sənin üçün haradandır?" Məryəm deyərdi: "Allah tərəfindəndir. Həqiqətən, Allah istədiyi şəxsə hədsiz ruzi verər!"[1]

Zəkəriyya (ə) və Yəhya (ə)

Zəkəriyya (ə)-ın zövcəsi də Məryəmin anası kimi sonsuz idi. buna görə də Zəkəriyya (ə) qoca yaşına qədər övladsız qalmışdı. Zəkəriyya (ə) hər dəfə Məryəmin mehrabda

[5] -Məcməulbəyan təfsiri 2-ci cild 436-cı səh.
[1] -Ali-Imran surəsi 37-ci ayə.

mə'nəfvi məqamını və Allahın ona qarşı sonsuz mərhəmətini müşahidə etdikdə özünün də Məryəm kimi saleh bir övlad sahibi olmaq arzusu onu dua etmək üçün əllərini Allahın dərgahına qaldırıb "Ey Rəbbim! Mənə Öz tərəfindən pak və saleh bir övlad əta et! Sən istədiyin övlad. Bir övlad ki, mənim və Yə'qub nəslinin varisi olsun"[2] deməyə vadar etsin.

Bir gün Həzrət Zəkəriyya (ə) mehrabda namaz qılarkən mələklər ona müraciət edib dedilər: Allah sənə Özü tərəfindən əməlisalehlər zümrəsindən bir peyğəmbər olacaq Yəhyanın xəbərini müjdə verir. Özünün və zövcəsinin qoca olduğunu görən (və belə bir şəraitdə hamilə olmaq gözlənilməz bir ne'mət idi). Zəkəriyya peyğəmbər təəccüblə dedi: "Ey Rəbbim, mənim və zövcəmin bu cür şəraiti ilə bizə övlad necə bəxş edəcəksən?" Cavabında

[2] –Ali-Imran 39-cu ayə. Əlmizan təfsiri 3-cü cild 190-cı səh. Məryəm surəsi 1-6-ya qədər.

deyildi: "Bu iş Allah üçün asandır. Məgər böyük Allah səni heçdən yaratmamışdır?"[1]

Beləliklə Həzrət Zəkəriyya (ə)-ın Allahın əvvəldən Yəhya adlandırdığı bir oğlu oldu. Həzrət Yəhya (ə) Allahın peyğəmbərlərindən biri olub bütün ömrünü insanları iman və səadətə də'vət etməyə həsr etmişdi.

Axırda da Allahın hökmünün ziddinə olaraq öz qardaşı qızı ilə evlənmək istəyən və Həzrət Yəhya (ə)-ın onu bu işdən çəkindirdiyi Bəni-Israil padşahlarından birinin əmri ilə şəhadətə yetirildi.[2]

### Həzrət Isa (ə.s)

(Uşaqlıqdan Allahın evində böyüyüb Həzrət Zəkəriyyanın himayəsində tərbiyə almış) Məryəm (s.ə) bir gün ibadətlə məşğul olarkən insan surətində bir mələk onun yanına nazil oldu. Onun insan olduğunu güman edən məryəm (s.ə) qorxudan Allaha pənah apardı, ancaq mələk ona müjdə verərək dedi: "Mən Allah tərəfindən sənə pak

[1] –Ali-Imran surəsi 39-40-cı ayələr. Məryəm surəsi 7-9-cu ayələr.
[2] –Əl-Mizan təfsiri 14-cü cild 26-27-ci səh

və təmiz bir oğlan uşağı bəxş etmək üçün gəlmişəm.” Məryəm dedi: “Mənə heç bir insan əli toxunmadığı və zinakar da olmadığım bir halda mənə necə uşaq verə bilərsən?” Mələk dedi: “Allahın belə buyurub ki, onu camaat üçün Öz rəhəmətimin nişanəsi qərar verməkdən ötrü bu iş mənim üçün asandır.”

Beləliklə, Məryəm hamilə oldu. Əri olmağından bə’zi boşboğazlar onun barəsində pis-pis sözlər danışmağa başladılar ki, bu da Məryəmi son dərəcə narahat edirdi. Söz-söhbətdən qurtarmaq üçün çarəsiz qalıb cəmiyyətdən uzaqlaşaraq kimsənin olmadığı bir yerə gedib orada övladının dünyaya gəlməsini gözləməyə başladı. Nəhayət doğuş vaxtı çatdı. Məryəm ağrının tə’sirindən çöldəki quru xurma ağacına sığındı və elə orada heç bir kömək olmadan öz körpəsini dünyaya gətirdi. Pənahlıq, ağrı, həya, abır qorxusu və öz paklığını camaata necə sübut edəcəyinin fikri Məryəmi elə narahat etmişdi ki, öz-özünə deyirdi: “Kaş ki, bundan əvvəl ölüğ qurtarardım və tamamilə unuduluö getmiş olaydım!” Elə bu zaman ürək-dirək verən bir səs eşitdi: “Kədərlənmə, Rəbbin sənin üçün ayağının altından bir bulaq axıtdı. Qurumuş xurma ağacını özünə tərəf silkələ, üstünə təzə yetişmiş xurma tökülsün. Ye-iç və xatircəm ol. insanlardan hər kimi görsən, işarə elə ona sükut orucu[1] tutmağı nəz etməyini, ona görə də bu gün heç kəslə söz danışmayacağını başa sal.” Bir-birinin ardınca olan mö’cüzələr və qeyb aləmindən yetişən köməklər Məryəmi ürəkləndirdi. Buna görə də arxayın olub körpəsi ilə birgə öz yaşadığı eyrə qayıtdı. Camaat Məryəmin qucağında uşaq gördükdə e’tiraz etməyə başlayıb dedi: “Atan pis kişi, anan da zinakar deyildi.” Məryəm danışmayaraq öz körpəsinə işarə etdi. Yə’ni, hadisəni körpədən soruşun və cavabınızı alın.

Onlar istehza ilə dedilər: “Beşikdə olan körpə ilə necə danışaq?” Bu zaman Məryəmin körpəqsi Allahın əmri ilə dilə gəlib aydın

---

[1] -O vaxtlar belə bir adət var idi ki, müəyyən bir müddətə qədər heç kəslə danışmayacaqlarına nəzr edirdilər. Buna sükut orucu deyilirdi.

bə'yan ilə onlara dedi: "Mən, həqiqətən də Allahın quluyam. O, mənə kitab verdi, özümü də peyğəmibər etdi. O, harada oluramsa olum, məni həmişə hamıya xeyir verən, dini hökmləri öyrədən etdi və mənə diri olduqca namaz qılıb zəkat verməyi tövsiyə buyurdu. O, həmçini məni anama qarşı olduqca itaətkar etdi."[1]

Bu körpənin məntiqi sözləri onları heyrətləndirdi. Bu böyük nişanə onların Həzrət Məryəmə (s.ə)-ya qarşı töhmət və bədgümanlıqlarını aradan qaldırdı və camaat bu körpənin Allahın istəyi ilə atasız yaranmasını və gələcəkdə böyük vəzifə daşıyacağını anladı.

### Camaatın Həzrət Isa-ın peyğəmblərliyindən qabaqkı vəziyyətinə bir baxış

Həzrət Isanın təvəllüdündən qabaq Fələstin camaatı azadlıq əldə etmək üçün arxa və dayaqları olmasına baxmayaraq həmişə Roma imperiyasına qarşı mübarizə edirdi.

Uzun sürən bu mübarizə Fələstin camaatının vəziyyətini çətinləşdirmişdi.

Iqtisadi vəziyyət çox pis idi. Ağır vergilər bü çətinliyi bir az da artırırdı. Azad xalq ya nigaran və dustaq idi, ya da mübarizə ilə gün keçirirdi. Abadlıq işləri dayandırılmış və hər şey hətta yəhudilərin imanıda süstləşmişdi. Onlar daha dini qanunlara riayət etmrdilər. Bəlkədə elə bu iman zəifliyi Roma imperiyasının Fələstini işğal etməsinin başlıca amili idi. Iste'marçılar həmişə bu amildən istifadə etmişlər. Çünki bu cür mübarizədə düşmənin silaha ehtiyacı yoxdur. Imanını əldən vermiş camaat heç özləri də bilmədən yavaş-yavaş sükuta uğrayır.

Bari, elə bir şəraitdə və elə bir çaxnaşmalı mühitdə azğınlığa uğramış camaatı bədbəxtlikdən, azğınlığdan nicat verib islah etmək üçün asimani bir rəhbərə ehtiyac açıq-aşkar hiss olunurdu. Beləliklə də Allahın məhəbbət və mərhəməti sayəsində Həzrət Isa (ə) dünyaya gəldi. O, Həzrətin təvəllüdü

[1] -Məryəm surəsi 16-32-ci ayələr. Əl-Mizan təfsiri 14-cü cild.

qəribəliklərlə bircə idi. Bütün bu qəribəliklərin hamısı camaatın onun yüksək məqam sahibi və Ilahi rəhbər olmasına e'tiraf etmək məcburiyyətində qoyurdu. Bu nişanələr qüdrətli Allahın onu cəmiyyətin tərbiyə və islah edilməsi, pənahsızlardan himayə etməsi üçün olan Ilahi nişanələr idi.

## Həzrət Isa (ə)-ın peyğəmbərliyi

Ağınları düz yola yönəltmək üçün Allah dərgahından Isa (ə)-( müqəddəs Incil kitabı nazil oldu.

Həzrət Isa (ə) öz peyğəmbərliyini e'lan etdi və geniş şəkildə fəaliyyətə başladı. Yəhudiləri ağ günə çıxartmaq və onların azğınlşıq köklərinin məhv edilməsində çətinliklər çəkib, fədakarlıqlar etdi. Ancaq öz vəzifələrini sevən və həzrət Isa (ə)-ın gəlişi ilə vəzifələrinin əldən verмələrini zənn edən yəhudi rəhbərləri onun peyğəmbərliyindən qorxurdular. Onlar bir-biri ilə məsləhətləşərək bu qərarar gəldilər ki, ayağ aqalxıb çaxnaşma salaraq onun fəaliyyətinin qarşısını alsınlar. Ancaq Həzrət Isa (ə) onların bu fikrindən xəbardar idi və bütün bunlara baxmayaraq möhkəm dağ kimi dayanıb öz vəzifəsini yerinə yetirərək camaatı həzrət Musa (ə)-ın dinində yaranmış təhrif və azğınlıqlardan xəbardar edirdi. Bu məqsədlə o hamının onun yeganı və tayı-bərabəri olmayan Allah tərəfindən elçi göndərilməsini dərk etməsi üçün gah (əlacsız) xəstələri sağaldır, gah da Allahın izni ilə ölüləri dirildirdi.

## Həzrət Isa (ə)-ın aqibəti

Günü-gündən həzrət Isa (ə)-ın ardıcılları və köməkçilər artırdı. Lakin onlar artdıqca yəhudi rəhbərlərinin müxalifətçiliyi də artırdı. Iş o eyrə çatır ki, onlar Həzrət Isa (ə)-ı qətlə yetirmək qərarına gəlirlər. Ancaq Allah onu onların nəzərindən gizli saxladı. Onlar Həzrət Isa (ə)-a bənzər başqa bir şəxsi asmaqla Həzrət Isa (ə)-ı asdıqları zənn etdilər.

Bu hadisə Qur'ani-Kərimdə açıq-aşkar bə'yan olunmuşdur: “Onlar Isanı nə öldürdülər, nə də çarmıxa çəkdilər. Onlar da yalnız belə təsəvvür yarandı. Bu haqda

ixtilafda olanlar onun (şəxsən öldürülməsi) barəsində, əlbəttə, şəkk-şübhə içərisindədirlər. Onların buna dair heç bir mə'lumatı yoxdur. Onlar ancaq zənnə qapılırlar. Həqiqətdə onu öldürmüşlər. Xeyr, Allah onu Öz dərgahına qaldırmışdır. Şübhəsiz, Allah qüvvət və hikmət sahibidir!"[1]

Deməli Isa (ə)-ın dara çəkilməsi və bu kimi digər məntiqsiz dastanların hamısı (necə ki, indi də məsihlər deyirlər ki, bütün camaat ömür boyu etməsə də zatən günahkardır və Həzrət Isa (ə) dərgaha çəkilməklə onları cəhənnəm əzabından və sorğu-sualdan azad etmişdir) əsassızdır.[2]

**Həzrət Isa (ə) yaxud Allahın bəndəsi**

Qur'ani-Kərimdən və hətta məsihiqlərin indi də əlində olan bə'zi incillərdən[3] belə başa düşülür ki, Isa (ə.s) həmişə özünü Allahın bəndəsi tanıştdırmış və Allaha ibadət etmyə də'vət etmişdir. Həzrət Isa (ə) buyurardı:

[1] –Nisa surəsi. 157-158-ci ayələr.
[2] –Təriqul həyat. Doktor Fender 135-138 səh.
[3] –Markın Incili 12-ci fəsil, 29-cu bənd.

"Mənim və sizin Rəbbiniz yeganə Allahdır. Təkcə ona ibadtə edin. Doğru və düzgün yol budur."[1]

Həzrət Isa (ə) heç lvaxt Allahlıq iddiası etməmişdir. Onun Allahlıq iddia etməsi məsələsini məsihlər özləri qoşmuşlar. Nehru "Dünya tarixinə bir baxış" adlı əsəfrində yazır: "Isa (ə) Allahlıq iddası etməyib. Ancaq camaat özü istəyir ki, öz dahi şəxsiyyətlərini Allah timsalında bilsinlər." Həzrət Isa (ə) digər peyğəmbərlər kimi bir insan olmuşdur. Allah tərəfindən ona vəhy olur və cəmiyyətin hidaytə olunması üçün göndərilmiş bir peyğəmbər idi. Əgər onun mö'cüzəsi olmuşdursa, Allahın digər peyğəmbərlərinin də mö'cüzəsi olmuşdur. Əgər atasız doğulmuşdusa, Həzrət Adəm (ə) həm atasız, həm də anasız xəlq olmuşdur. Bəs məsihləroin heç biri onu Allahın oğlu hesab etmir? Qur'ani-Kərim buyurur: "Məryəm oğlu Məsih ancaq bir peyğəmbərdir. Ondan əvvəl də peyğəmbərlər gəlib getmişdir. Onun

[1] –Ali-Imran surəsi 51-ci ayə.

anası isə çox pak bir qadın idi. Onların hər ikisi yemək yeyirdi."[2]

Yə'ni onlar da (Isa (ə) ilə məryəm (s.ə)-da) insanlar kimi həyat ünsürlərinə möhtac olmuşlar. Allahın aydın kəlamında (Qur'anda) bə'yan olunan bu həqiqət ilə də uyğun gəlir. Çünki əqlin hökmünə əsasən adi insanlar kimi özü-özlüyündə qüdrəti olmayan və digər peyğəmbərlər tək həyatın yemək, içmək, yatmaq kimi ünsürlərinə ehtiaycı olan bəşərin ibadət edilməyə səlahiyyəti yoxdur. Deməli, əqlin həm Qur'anın, həm də məsihlərin indiki Incilinin (Markın Incilinin) və dahi tarixçilərin dediyinə əsasən Həzrət Isa (ə) Allahın bəndəsi və peyğəmbəri olmuş və bir an olsun belə Allahlıq iddiası etməmişdir. Lakin Həzrət Isa (ə)-dan sonra onun müqəddəs dini öz paklığını (nəcibliyini) itirdi və müşriklik, bütpərəstlik bu dində özünə yer aldı. Hətta Vil Durant "Mədəniyyət tarixi" kitabında yazır ki, Məsihiyyət müşrikliyi (Allaha şərik

[2] -Maidə surəsi 75-ci ayə.

qoşmağı) aparmayıb, əksinə, on qəbul etmişdir.[1]

Məsihlərin tarixini oxuyan şəxs bu tarixçinin tarixi bir həqiqəti bə'yan etdiyini təsdiqləyəcək. Çünki hal-hazırda da Həzrət Məsihin tərəfdarları arasında aşağıdakı fikirlər hökm sürür:

1)Isa (ə) Allahın zatından ayrılıb, məxluq deyildir və Allahın oğlu adlanır.[2]

2)Isa (ə) bəşər idi. ancaq elə bir bəşər ki, Allah onun bədəninizə daxil olaraq təzahür etmişdir.[3]

3)Isa özü bəşər surətinə düşmüş Allahdır.[4]

Ancaq hamımız bilirik ki, Allah cisim deyildir ki, məkanı olsun və yaxud bədəninin bir hissəsi ondan ayrılıb Allahın oğlu adlansın.

[1] -3-cü kitab, 3-cü bölmə, səh-239
[2] -Qədim kilsə tarixi səh-244.
[3] -Nizam ət-tə'lim. Beyrut qapı 1888-ci il. 2-ci cild 189-204-cü səhifələr
[4] -Nizam ət-tə'lim. Beyrut qapı 1888-ci il. 2-ci cild 189-204-cü səhifələr

Həmçini əqlimizlə dərk etməmişik ki, Allahın məkanı yoxdur ki, bir şeydə sığınsın, yaxud insan surətində təzahür etsin. Bundan əlavə necə ola bilər ki, heç bir şeyə ehtiyacı olmayan Allahın yemək-içməyə, geyimə ehtiyacı olsun?

Deməli məsihlər düzgün fikirləşsələr, özləri e'tiraf edəcəklər ki, Həzrət Isa (ə)-da (digər peyğəmbərlər kimi) Allahın bəndəsi olmuşdur. Onun Allahlıq iddiası etməsi məsələsi isə əsassız bir məsələdir. Qur'ani-kərim buyurur: "Allah Məryəm oğlu Məsihdir",-deyənlər, şübhəsiz ki, kafir oldular. Onlar de: "Əgər Allah Məryəm oğlu Məsihi, anasını və yer üzündə onların hamısını məhv etmək istəsə, kim ona bir şeylə mane ola bilər? Göylərin, yerin və onların arasında olan hər bir şeyin ixtiyarı Allahın əlindədir. O, istədiyini yaradar. Allah hər şeyə qadirdir!"[1]

### Həzrət Isa (ə)-ın könül oxşayan sözləri

[1] -Maidə surəsi. 17-ci ayə.

Isalamın əziz peyğəmbəri Mühəmməd (s) buyurmuşdur: "Həvarilər Həzrət Isa (ə)-dan kiminlə həmsöhbət olmaları barədə tövsiyə almaq istədikdə o cavab verdi ki, görüşü Allahın sizin yadınıza salan, danışığı elminizin, əxlaqı isə axirətə marağınıza səbəb olan şəxslə dostluq edin."[2]

Imam Sadiq buyurmuşdur: "Həvarilər həzrət Isa (ə)-dan onlara tövsiyə etməsini istədilər. O, Həzrət buyurdu: "Musa demişdir ki, Allaha yalandan and içməyin. Mən isə sizə deyirəm ki, Allaha heç doğrudan da and içməyin." Həvarilər daha artıq nəsihət istədilər. Isa (ə) buyurdu: "Allahın peyğəmbəri Musa (ə) demişdir ki, zina etməyin. Mən isə sizə hətta zina barəsində fikirləşməməyinizi əmr edirəm.

Çünki xəyalında zina etmək fikirləşən şəxs yenicə ağardılmış evdə ocaq qalayan şəxsə bənzəyir. Ocağın tüstüsü otağı yandırmasa da oranı qaraldır."[1]

[2] -Kafi kitabı 1-ci cild. 39-cu səh.
[1] -Biharul ənvar 14-cü cild 331-ci səh.

Həzrət Əmirəl mö’minin Əli (ə) buyurmuşdur: “Məryəm oğlu Məsih deyirdi: “Xoş o şəxsin halına ki, sükutu təfəkkür, baxışı isə ibrətdir. Bu cür şəxs öz əməllərindən ötrü ağlayır, insanlar da onun əli və dilindən rahatladır.”[2]

Imam Sadiq buyurmuşdur: “Həzrət Isa (ə) öz şagirdlərinə buyururdu: “Ey Adəm övladları! Dünyadan Allaha tərəf qaçın və ona ürək bağlamayın. Siz dünya üçün yaranmamısınız və dünyanın da sizxin üçün ləyaqəti yoxdur. Dünyada qalmayacaqsınız və dünya da sizə qalmayacaq. Dünya bir çoxlarını qafil qoyaraq həlak etmişdir. Kim dünyanı gözəl bilib ona ürək bağlasa, ziyan görəcək, kim dünyanı sevsə və onun ardınca qaçsa, həlak olacaq.”[3]

Imam Sadiq (ə) həmçinin buyurmuşudur: “Həzrət Məsih (ə) öz ardıcıllarına buyururdu: “Başqasının qadınına baxmaqdan çəkinin. Çünki bu iş qəlbdə acı şəhvət toxumunun səpilməsinə səbəb olur. Bu da fəlakət üçün kifayətdir. Vay olsun dünya ləzzətinin ardınca günah edən şəxsin halına! Heç bilirsiniz qiyamət günü həmin şəxs Allah dərgahında necə rüsvay olacaq?”[1]

[2] -Biharul ənvar 14-cü cild 320-ci səh.
[3] -Biharul ənvar 14-cü cild 288-ci səh.

[1] -Biharul ənvar 14-cü cild 324-ci səh.

## XIX DƏRS

## MÜHƏMMƏD (s)-

## ZÜLMƏTDƏ PARLAYAN

## BIR NUR

### Dünya Islamdan qabaq

Dünyaının Islamdan qabaqkı qarışıq vəziyyəti tarix səhifələrində açıq-aydın gözə çarpır. Fəsad, zülmkarlıq, qan tökmək və bütpərəstliyin acı nəticələri bu aynada asanlıqla görünür. Islamdan qabaq sanki bəşəriyyət uçurum kənarında durmuş. Və hər an yıxılıb məhv olmaq qorxusu var idi.

### Camaatın məsləki və əqidəsi Ərəbistan yarımadasında

Ərəblər Islamdan qabaq bütlərə ürək bağlamışdılar. Onlar ətrafda gözləri ilə gördükləri bənzər bütlər düzəldir və bu bütlərə ibadət etmələ yanaşı əkinçilik məhsullarından bir hissəsini bütlərə

bağışlayırdılar.[1] onlar belə güman edirdilər ki, dünya həyatından başqa bir həyat yoxdur.[2] Hesab etdikləri bütlərin qüdrətsizliyini dərk etməyən bu nadan camaat təbii ki, qiyamətin də nə olduğunu anlaya bilməzdi. Təəccüblü burasıdır ki, Allahın izni ilə Ibrahim (ə)-ın düzəltdiyi evi onlar öz bütlərinin qərargahı etlmişdilər.[3]

**Iranda:**

Iranda da müxtəlif dinlər yayılmışdı. Ancaq camaatın əsas inandığı (Iranın rəsmi dini) zərdüştlüq dini idi. Əgər Zərdüştün peyğəmbərliyini və tövhid (tək Allahlıq) əsasında bir din sahibi olmasını qəbul etsək, onda e'tiraf etməliyik ki, zaman ötdükcə onun düzgün tə'limləri də aradan gedərək hakim təbəqə öz mənafeyi naminə yavaş-yavaş onun əsl mahiyyətini dəyişdirmişdir. Onun ümumi və xoşmə'nalı şüarları bir örtüyə çevrilir. Bu şüarları isə din rəhbərləri özlərinin və hakim təbəqənin xeyrinə çevirir. Beləliklə də tövhid şirkə yönəldi və daha o pak və şirin tə'limlərindən əsər-əlamət qalmadı.

Ilk aria tayfalarının Allahı yenidən Zərdüştlərin arasında dirildi. Can Nas yazır: "Qədim əsrlərdə ilk tayfalarının allahları olan Yazartaha yenidən (Avestanın) Yəşt kitabında meydana çıxdı. Bundan əlavə Vayu külək Allahı olmuşdur. Ancaq onların hamısından üstünü və Avestanın axarıncı fəsillərində əzəmətlə yad olunmuş Günəş Allahı Mitra (Ra)-dır. Avam camaatın nəzərində Mitra doğru danışanları mükafatlandıran və ondan kömək istəyənlərə kömək verən böyük nur və işıqlıq Allahı kimi tanınmışdı. Iş o yerə çatır ki, zərdüştlülər deyir ki, Ahurməzdanın özü də Mitranın dərgahına qurbanlıq hədiyyə edir. Iran camaatı Ahurməzda üçün şəriklər qoşaraq öz qədim Aria əcdadlarının e'tiqadlarından da o tərəfə getdilər.

Təbiət ünsürlərinə, o cümlədən Günəşə və oda sitayiş etmək zərdüştlülərin arasında

---
[1] –Ən'am surəsi 136-cı ayə.
[2] –Casiyə surəsi 24-cü ayə
[3] –Əl-Miləlu vən Nihəl 2-ci cild. 237-ci səh. Tarix Yə'qubu 224 səh.

geniş yayılmışdı. Buna görə də sasanilər xristian ruhanilərini öz dinlərini tərk etməyə məcbur etdikdə əvvəlki Allahlarının yerinə günəşə ibadət etmək təklifini qarşılarına qoydular. Bu məsələyə Siryani şəhidləri haqqında yazılmış kitabçalarda dəfələrlə toxunulmuşdur.

Ikinci Şapur Simon Bərsəiyə söz verdi ki, günəşə ibadət etsə, onu əfv edəcək."[1]

Can Nas  oda sitayiş etmək barədə yazır: "Oda sitayiş etmək iranlıların qədim adət-ən'ənələrindən olub böyük əhəmiyyətə malik idi."[2]

Azər (yə'ni, od ilahəsi) allahların arasında Allahlılıq məqamından əlavə get-gedə Ahuhrməzdanın oğulluq məqamına çatmışdı.[3]

Zərdüştlülərin dini hökmlərini şərh edən səddər adlı kitabda yazır: "zərdüşt dininin bütün ardıcılları gərək gün də üç dəfə Günəşə

[1] -Iran Sasanilər dövründə səh164.
[2] -Dinlərin ətraflı tarixi səh 301.
[3] -Iranlılar Sasanilər dövründə 168-ci səh.

ibadət etsinlər. Həmçinin Ayla od da din ardıcıllarının ibadət etməsi vacibdir."[4]

## Roma imperiyasında

Roma imperiyasında da dinin vəziyyəti Irandakı kimi idi. Xristianlıq öz həqiqi mahiyyətini (dəyərini) itirmiş, şirkə, və üçallahlılığa qapanmışdı. Fransa, Britaniya və Ispaniyada da yeganə Allaha sitayiş olhunmurdu.

Hindistanda da müxtəlif dinlər yaılmışdı. Bütpərəstlik isə daha geniş şəkil almışdı.

## Sinfi ixtilaflar və irsi ayrıseçkilik

Iranda camaat silklərə bölünmüşdü və hər silkin özünəməxsus mövqeyi var idi. Hamıdan çox hakim təbəqəsinin silkinə mənsub olanlar üstünlüyə malik idi. görkəmli tarixçi Təbəri yazır: "Silklər arasında o qədər təfavüt var idi ki, hətta Ənuşirəvanın dövründə də oxuyub yazmaq zəhmətkeş və əkinçi silki üçün o azad deyildi. Bu

[4] -(Səddər) 95-ci kitab səh 124.

ayrıseçkilik o dövrün cəmiyyətində elə gözə çarpan, təhqir edici və insansızlığa səbəb olmuşdu ki, hətta Ənuşirəvanın ədalətli və elmsevər olmaıs şayəsi ilə Irana sığınmış Roma filosofları bundan narahat olub Iranı tərk etdilər."[1]

Roma imperiyası və Hindistanda da əhali silklərə bölünürdü. Torpağa sahiblik, ticarət, vergilərdən azad olmaq və bu kimi hüquqların hamısı silkin nümayəndələrinə məxsus idi. O vaxt insanlar irqi baxımdan bir-birindən üstün sayılırdı.

**Islamdan qabaq qadının cəmiyyətdəki rolu**

Ərəblərin nəzərində qadın atasının, ərinin, yaxud da oğlunun şəxsi mülkiyyətinin bir hissəsi kimi sayılırdı. Onlar ldükdən sonra qadını yerdə qalan başqa mal-dövlət kimi irs aparırdılar.[1] Onların qızı olanda xəcalət çəkir və hətta bə'zi qəbilələr öz əlləri ilə qızlarını diri-diri basdırırdılar.[2]

Iranda da qapalı mühitin yaratdığı vəziyyət qadın üçün əlverişli deyildi.

Yunanıstanda qadın şeytandan törənmiş heyvana bənzər əbədi alçaq bir varlıq sayılırdı. Hindistanda da qadın ömrünün axırınadək atasının, ərinin, yaxud övladının himayəsi altında idi və gərək öz ərinə Allah, yaxud ağa deyə müraciət edəydi. Kölələr kimi mülkiyyətə sahib ola bilməz, ərləri öldükdən sonra yenidən ərə gedə bilməzdilər. Çirkin "sati" (yə'ni, dul qadını öz ərinin meyiti ilə birlikdə yandırmaq) adəti o dövrün geniş yayılmış adətlərindən idi.

Yaponiyada da qadınlar ömürlərinin axarınadək atanın, ərin və ya övladın himayəsi altında olurdular. Qızlara irsdən heç bir pay düşmürdü.

Çində ailə başçısı olan atanın öz qadınını, övladlarını kəniz və qul kimi satmağa ixtiyarı

---

[1] -Iran Sasanilər dövründə səh 460.
[1] -Vil Durantın tarixi 11-ci cild, 8-ci səh.

[2]-Nəhl surəsi 59-cu ayə; Vil Durantın tarixi, 11-ci cild, 8-ci səh.

var idi və hətta bə’zi vaxtlar onları öldürə də bilərdi.

Vil Durant qədim Çin şairlərinin birinin adının narahatlığı məzmununda yazdığı şe’rlərdən bir misrasını nəql edir: “Qadın olmaq nə qədər qəmlidir!”

“Yer üzündə qadın kimi dəyəsiz bir şey yoxdur. Qız uşağı dünyaya gəldikdə heç kəsin üzü gülümsəmir...”[1]

O dövrün cəmiyyəti arasında qadının heç bir dəyəri yox idi. Hətta bə’zi vaxtlar qadını çöldə leş ardınca olan çöl donuzlarına atırdılar.[2]

Romalılar da qadını Əhrimənin (zərdüştlərin şər Allahı) və bütün əziyyət verən ruhların təzahürü hesab edirdilər. Onlar qadınları da uşaqlar kimi öz hiayələri altına alırdılar.

Bəli, o dövrün bütün cəmiyyəti hər bir sahədə zülmətə, fəsada və ədalətsizliyə qərq olmuşdu. Bütün dünyada işıqlı və parlaq bir nöqtə gözə çarpmırdı. Fitrət dərinliklərində yaxşılığa meyl olsa da azalmasına o da yalnız bir tərəfdən çirkinliklərin, şəhvətin və ədalətsizlərin, digər tərəfdən isə ehtiyaclıq və azğınlıq qaraltısı nəticəsində itib batmışdı. Buna görə də səadət və paklıq axtaranlar üçün ümid yeri qalmamışdı. Qara buludlar o dövrün cəmiyyətinin üstünü almışdı və elə qorxu doğuran zülmət hakim idi ki, yalnız parlaq bir günəşin doğması ilə o zülməti aradan aparamaq mümkün idi. Ərəbistandakı vəziyyət dünyanın digər ölkələrindən daha çox ağır idi. ərəblər fəsad və çirkinliklərin dərinliklərinə batmaqda hamını üstələmişdilər. Yaxşı olar ki, o dövrün vəziyyətini ən gözəl insan Əli (ə)-ın dilindən eşidək:

“Ey ərəb milləti! Siz bundan qabaq ən pis dinə qulluq edir, ən pis yerlərdə yaşayırdınız. Dağlarda zəhərli ilanlar arasında yaşayaraq çirkin sular içir, xoşagəlməz yeməklər yeyirsiniz. Bir-birinizin qanını tökür,

[1] –Vil Durantın mədəniyyət tarixi 3-cü hissə səh 1063-dən 1068-dək.

[2] –Vil Durantın mədəniyyət tarixi 3-cü hissə səh 1063-dən 1068-dək.

qohumlardan əlaqənizi kəsib bütə ibadət edərək günahlardan çəkinmirdiniz...”[1]

**Islam peyğəmbəri Mühəmməd (ə)-in viladəti**

Mühəmməd peyğəmbər Hicrətdən 53-il qabaq[2] Rəbiül-əvvəl ayının 17-də cümə günü Məkkə şəhərində dünyaya gəlmişdir. Həzrət Ismailin (ə)-ın övladlarından olan atası Abdullah öz uşağını görməzdən qabaq vəfat etmişdi. Anası Aminə öz dövrünün iffətli bir qadınlarından biri idi. Mühəmməd (s)-ə süd verib onu böyütmək üçün Həlimə adlı iffətli bir qadını dayə tuturlar. Bir gün Mühəmməd (s) hələ dörd yaşına çatmamış Həlimədən öz süd qardaşları ilə birlikdə səhraya getmək üçün icazə istədi. Həlimə deyir: “Səhəri gün Mühəmməd (s)-n yuyub, gözlərinə sürmə çəkdibəd-nəzərdən qorunması üçün gözmuncuğunu sapa keçirib boynundan asdım. Ancaq Mühəmməd (s)

[1] -Nəhcul bəlağə 25-ci xütbə.
[2] -Miladi tarixi ilə 570-ci ildə.

gözmuncuğunu boynundan açıb dedi: “Anacaq qorxma Allahım mənimlədir və məni qoruyur.”[1]

Bəli, o, uşaqlıqdan Allahın nəzəri altında idi və daima mələklərin və ona olunan ilhamın köməyi ilə düzgün işlərə yönəlirdi. Mühəmməd (s) uşaqlıqda öz rəftarı və danışığı ilə hamının nəzərini özünə cəlb edirdi. Gəncliyində də o mühitdəki camaatın bulandığı işlərdən kənar idi. onların qəzəlxanlıq məclisində iştiak etmir, şərab içmirdi, bütlərdən uzaq durur və doğru danışırdı. Peyğəmbərliyindən bir neçə il qabaq camaat onu Əmin (əmanətdar, e’tibarlı, doğru danışan) adlandırmışdı. Onun təmiz qəlbi, parlaq fikri və Ilahi əxlaqı var idi. Ilin bir ayının Hira mağarasına gedir, Allahla razi-niyaz edirdi. Ayın axırında evinə qayıtmazdan əvvəl Kə’bəyə gedib 7 dəfə fırlandıqdan (təfav etdikdən) sonra öz evinə qayıdırdı. Qırx yaşında ikən Hira

[1] -Biharul ənvar,cild-15, səh-392.

mağarasında ibadətlə məşğul olduğu zaman peyğəmbərlik məqamına yetişir.

Islam peyğəmbərinə üç il camaatı aşkara Islama də’vət etməsinə icazə verilmədi. Bu müddətdə yalnız bir neçə nəfər ona iman gətirdi. Kişilərdən o Həzrətə ilk iman gətirən Həzrət Əli (ə.s), qadınlardan isə Xədicə (s.ə) idi.[2] Üç ildən sonra camaatı aşkara Islama də’vət etdi. Oolardan qırx nəfəri yığılmışdı. Peyğəmbər (s)-in hazırladığı yeməyin bir nəfərlik olmasına baxmayaraq Allahın qüdrəti ilə o azacıq yemək hamının doyuzdururdu və bu iş hamının heyrətlənməsinə səbəb oldu. Əbuləhəb sözlərinə fikir vermədən dedi: “Mühəmməd cadugərdir.” O gün qohumlar peyğəmbər (s) heç bir söhbət etmədən çıxıb getdilər. Ertəsi gün peyğəmbər onları yenidən də’vət etdi. Yemək yeyilib qurtardıqdan sonra pyeğəmbər ayağa qalxıb buyurdu: “Ey Əbdülməttəlibin övladları! Heç kim öz tayfası üçün məni sizin üçüngətirdiyim şeydən

[2]-Tarixi Təbəri, cild-3, səh-1159.

yaxşısının gətirməyib. Mən sizinüçün dünya və axirət və səadəti gətirmişəm. Allah tərəfindən sizi Ona tərəf çağırmağa mə’mur olmuşam. Sizlərdən hansınız mənə kömək etməklə mənim qardaşım və canişinim olar?” Əli (ə)-dan başqa heç kəs cavab vermədi. O Həzrət əlini Əli (ə)-ın çiyninə qoyub dedi: “Bu, mənim sizin aranızda qardaşım və canişinimdir. Söylədiklərinə qulaq asın və ondan itaət edin.”[1]

Həmçinin bir gün peyğəmbər (s) səfa dağına çıxıb camaatı yanına çağıraraq dedi: “Camaat əgər səhərya axşam sizə düşmən hücum edəcəyini desəm, mənə inanarsınız?” Hamı bir ağızdan dedi ki, bəli. Peyğəmbər (s) buyurdu: “Mən sizi tezliklə nazil olacağı əzabdan xəbardar edirəm.” Əbu-Ləhəb o Həzrətin sözlərinin camaatda tə’sir edəcəyindən qorxub tez sükutu pozaraq dedi: “Bizi elə bundan ötrü bura yığmısan?”

Islam peyğəmbəri öz də’vətini tövhid və yeganə Allaha ibadət etmək şüuarı ilə başladı.

[1] -Tarixi Təbəri 3-cü cild, səh 1171-1173: məcməulbəyan 7-ci cild, 206-cı səh.

Tövhid məsələsini bütün əqidələrin əsası qərar verərək camaata insanın özündən də yaxın olan Allahı tanıtdırdı. O hər cür müşrikliyi, bütpərəstliyi ləğv etməklə Məkkənin mühitində böyük birinqilab edib camaatın fikirlərini öz dininə cəlb etdi. Qüreyş tayfasının onun irəliləməsindən narahat olmasına, onu bu yoldan çəkindirməyə və hətta bə'zi vaxtlar öldürmək üçün tədbir tökməsinə baxmayaraq Allahın köməyi və o həzrətin müqaviməti nəticəsində onların heç bir işgəncə, əziyyət və tədbirləri nəticə vermədi. Camaatın Isması qəbul etməsi və Islama də.vəti gün-gündən genişlənirdi. Hətta Məkkədən kənar yerlərdən gələn camaat da bu Ilahi də'vətə can-başla cavab verirdilər.

Be'sətiin on birinci ilində Mədinə şəhərinin Xəzrəc qəbiləisndən bir neçə nəfər Həcc mərasiminin keçirilməsi üçün Məkkəyə gəlir. Peyğəmbər ondarı Islama də'vət edir. Onlar da qəbul edərək söz verirlər ki, öz şəhərlərinə qayıtdıqdan sonra camaatı Islam dininə də'vət edəcəklər. Onlar Mədinəyə yaymağa başladılar. O birisi ili Mədinə camaatından on iki nəfər Əqəbədə peyğəmbər (s) ilə bey'ət edib daha oğurluq və zina etməyəcəklərinə, Allaha şərik qoşmayacaqlarına, övladlarını öldürməyəcəklərinə, bir kəsə iftira bağlamayacaqlarına və o həzrətin göstəriş verdiyi hər bir işə tabe olacaqlarına söz verdilər. Belə olduqda peyğəmbər (s) Qur'an öyrətmək üçün Məs'əb adlı bir kişinin onlarla birlikdə Mədinəyə göndərdi. Beləliklə Mədinədə böyük bir dəstə o həzrətə iman gətirdi.

**Mühəmməd (s)-in hicrəti**

Peyğəmbər (s) be'sətin on üçüncü ilinə qədər camaatı Məkkədə Islam də'vət edir və Qüreyşin hər bir əziyyəti qarşısında müqavimət göstəririridi. Nəhayət Qüreyşin onun xaincəsinə qətlə yetirmək istədiyindən xəbardar olduqda Allahın əmri ilə Həzrət Əli (ə)-ı öz yerində yatırdıb özü gecə ikən Məkkədən çıxıb bir mağaraya yollandı. Sonra oradan Mədinəyə hicrət etdi.

Peyğəmbər (s)-in hicrəti Islam tarixində yeni bir mərhələ idi və bunun nəticəsində Islamda böyük irəliləyiş oldu. Buna görə də o həzrətin hicrəti müsəlman tarixinin başlanıcı oldu. Peyğəmbər (s)-in Mədinəyə gəlişi ilə Ovs və Xəzrəc qəbilələri Islam tə'limləri sayəsində qardaşcasına yaşamağa başladılar. Onların arasında möhkəm səfa və səmimiyyət birqərar oldu. Həzrət Mühəmməd (s)-in gözəl rəftarı, ruhi və əxlaqi xüsusiyyətləri, habelə pak dininin fitri olmaıs camaatın dəstə-dəstə Islama meyl etməsinə səbəb oldu. Peyğəmbər (s) camaatla birlikdə idi. camaatdan aralanmır, onların xeyrində, şərində özünü şərik bilir, zülm və təcavüzü pisləyərək onun qarşısını alırdı. Qadınların tərəqqisi sahəsində tə'sirli ola bilən bütün amilləri bə'yan edir və Islamdan qabaq onlara olunan bütün zülmlərin qarşısını alırdı. Eyni zamanda onların pozğunçuluq və iffətsizliyinə qarşı mübarizə aparırdı. O,qadınların əsl Islami qanunlar əsasında həqiqi təkamülə nail olmasını istəyirdi. Qulların hüququndan müdafiə edərək onların azadlığı üçün bir sıra geniş və ictimai proqramlar hazırlayırdı. Islam peyğəmbəri (s) elə bir cəmiyyət yaratmışdır ki, orada ağdərili insanla qaradərili insan, varlı ilə kasıb, öyüklə kiçik hamısı bərabər olaraq hamı "insanlıq" xüsusiyyətindən faydalana bilirdilər. O mühitdə daha irqi ayrıseçkilik məsələsi yox idi və üstünlük və fəzilətin ölçüsü elm, təqva, insani və əxlani dəyərlər idi. Indi peyğəmbər (s)-in yüksək tə'limlərindən bir nümunəyə fikir verin: "Cuybər" kasıb və bir az eybəcər bir gənc idi. o, Islam məhəbbəti ilə Mədinəyə gəlib Islamı qəbul etmişdi. Peyğəmbər (s) əvvəl ona məsciddə, sonralar isə peyğəmbər (s)-in əmri ilə tikilən səqifədə (məscidin kənarındakı kiçik otaqlarda) yer verdi. Arabir özü də gəlib ona baş çəkirdi. Bir gün peyğəmbər (s) ona buyurdu: "Yaxşıf olar ki, öz iffətini qorumaqan və yaşayışını qaydaya salmaqdan ötrü bir qadın seçib evlənəsən!" Ceybər dedi: "Atam, anam sənə qurban, mən kasıb və eybəcər bir şəxsəm. Hansı qadın mənimlə evlənməyə razı olar? Özü də adlı-sanlı bir nəsildən deyiləm." Peyğəmbər (s):

"Cuybər! Islamın gəlişi ilə ondan əvvəlki dövrün şərafətləri, cahillikləri və bütün üstünlük me'yarları aradan gedib, məhv olub. Qaradərili və ağdərili insan, ərəb və qeyri-ərəb bunların hamısı Adəmdən olmuşdur. Adəmi də Allah torpaqdan yaradıb. Buna əsasən bu gün qaradərili və ya ağdərili olmaq və bu kimi eylər insanda nöqsan və əgər-əskikliyə səbəb ola bilməz. Allahın yanında ən hörmətli olanınız Allahdan ən çox qorxanınızdır. Elə bu saat Ziyadın evinə get və qızı Zülfanı mənim tərəfimdən özünə istə!"

O, peyğəmbər (s)-in buyurducu kimi etdi. Ancaq ənsarın böyüklərindən olan Ziyad buna inanmayıb dedi: "Biz qızlarımızı öz taylarımıza veririk. Peyğəmbər (s) özü də bunu yaxşı bilir. Sən qayıt get! Mən özüm o Həzrətin hüzuruna gedib onu məsələdən xəbardar edərəm.

Cuybər geri qayıtdı, ancaq qəzəblənərək öz-özünə fəryad edib deyirdi ki, and olsun Allaha ki, nə Qur'an, nə də peyğəmbər qızların sərvət və nəcabətdə öz tayı-bərabəri olan şəxsə verilməsini deməmişdir. Zülfa Cuybərin səsini eşidirdi. Atasını çağırıb soruşdu: "Mgər sən bu cavana nə dedin ki, belə əsəbləşdi?" Ziyad: "O deyir peyğəmbər (s) məni göndərib ki, qızınızı mənə ərə verəsiniz." Zülfa: "Cuybər yalan danışmaz, tez onu geri qaytar və özün də məsələni aydınlaşdırmaq üçün peyğəmbər (s)-in yanına get."

Ziyad qızının dediyi kimi etdi. Cuybərdən üzrxahlıq edərək onu geri qaytardı. Özü isə peyğəmbər (s)-in yanına gedib dedi: "Cuybər sizin tərəfinizdən bizə bir xəbər gətirmişdi. Sizin yadınıza salmaq istərdim ki, biz ənsar qızlarımızı öz tay-bərabərimizdən və qəbiləmizdən olmayan başqa bir şəxslə ərə vermirik." Peyğəmbər: "Cuybər Islamı qəbul etmiş mö'min bir gəncdir. Mö'min kişi isə mö'min qadının tayı və bərabəridir. Öz qızını ona ərə ver!" Ziyad evinə qayıdıb peyğəmbər (s)-in söylədiklərini qızına dedi. Qızı dedi: "Ata, peyğəmbər (s)-in əmrindən boyun qaçırmaq günahdır. Mən öz istəyimlə bu işə hazıram. Elə isə Cuybəri

kürəkənliyə qəbul et!" Ziyad Cuybəri öz qəbiləsinin arasına gətirib Islamın qayda-qanunu ilə öz qızını ona ərə verdi. Hətta qızının başlığını da öz əmlakından verdi. Həmçinin firavan yaşamaları üçün içi bütün ləvazimatlarla dolu bir evi də onlara bağışladı.[1]

Bəli, gözqamaşdıran bu parıltılı qəlbləri isindirən bu nur mənbəyi pak canlarını həmişə işıqlı tövhid yoluna hidayət edəcək nurlu bir çıraq yandırdı. Beləliklə də o dövrün qaranlıqlarından təngə gəlmiş camaatın qaralmış canı pərvanə tək bu parlaq hidayət çırağına tərf qanad açıb Qur'anın gözəl qanunlarına sığınaraq dəstə-dəstə Islama yönəldi.

"Yunis Vilibeh" yazır:[1] "Mühəmməd (s) insanlar üçün islah edilmiş bir din gətirdi. O, Allahın elçisi idi. Allah onu azğın məsihlərin ayıltmaq, bütlərin kökünü kəsmək və iranlıların yeganə Allaha ibadət etməyə də'vət etmək üçün göndərdi. O, müqəddəs olan "Allahı tanımaq" dinini böyük Çin səddindən Ispaniyaya qədər yaydı. Mühəmməd (s)-in dini elə ağlabatan və pakdır ki, onun təbliğində heç bir qılınc və zorakılığa ehtiyac yoxdur. Hamının ürəkdən budinə yönəlməsi üçün qayda-qanunun camaata düzgün başa salınması kifayətdir. Onun dini əsasları rövşən fikirli insanların əqli ilə uyğun gəlir ki, yarım əsrdən də az bir müddət ərzində Islam dini yer kürəsindəki camaatın yarısının qəlbinə daxil olub genişləndi."

[1] -Fürui kafi 5-ci cild. 340-cı səh.
[1] -Muhəmmədin həyatı 177-ci səhifə

# XX DƏRS

# MÜHƏMMƏD (S)-IN-

# ƏVVƏLDƏN TANINMIŞ

# PEYĞƏMBƏR

**Ümid və intizar əsri**

Keçmiş zamanların peyğəmbərləri, xüsusən də Həzrət Musa (ə) və Həzrət Isa (ə) öz ardıcıllarına Islamın zühurunu müjdə vermişdilər. Hətta Islam peyğəmbəri (s)-in bir sıra xüsusiyyətləri onların səmavi kitablarında qeyd olunmuşdu. Bu baxımdan yəhudilər, xristianlar və başqa dinlərin ardıcılları gəmisi dəryada batmış şəxsiqn sahildən gələcək nicata göz dikdiyi kimi Islam dininin intizarını çəkirdilər.[1] Hətta yəhudilərdən bə'zisi öz kitablarında Islam hökumətinin mərkəzi olacağı barədə xəbər vermiş Eyr və Öhüd[2] dağları arasındakı məntəqəyə köçüb Islamın zühurunu gözləyirdi.[3]

---

[1] -Siyrətu Ibn Hişam 1-ci cild, səh 211-dən 226-dək.

[2] -Eyr Mədinənin cənubunda Öhüd isə şimalında yerləşir.

[3] -Rövzeyi kafi səh 308.

Qur'ani-Kərim də Incil və Tövratın Islam peyğəmbərinin gəlişi barədə xəbər verdiklərini təsdikləyərək buyurur:

"O kəslər ki, əllərindəki Tövratda və Incildə yazılmış gördükləri rəsula-ümmi (heç kəsin yanında oxuyub elm öyrənməməsi və ya məkkəli) peyğəmbərə tabe olurlar, (o peyğəmbər) onlara yaxşı işlər görməyi buyurur ki, pis işləri qadağan edər, təmiz ne'mətləri halal, murdar şeyləri haram edər, onların ağır yükünü yüngülləşdirər və üstlərindəki buxovları açar (şəriətn çətin hökmlərini götürər). Ona (o peyğəmbərə) iman gətirən, yardım göstərən və onunla (onun peyğəmbərliyi sayəsində) endirilmiş nurun (Qur'anın) ardınca gedənlər məhz onlar nicat tapanlardılar!"[1]

"Mühəmməd (s) Allahın Peyğəmbəridir. Onunla birlikdə olanlar (mö'minlər) kafirlərə qarşı sərt, bir-birinə (öz aralarında) isə mərhəmətlidirlər. Sən onları (namaz vaxtı) ruku edən, səcdəyə qapanan, Allahdan lütf və riza diləyən görərsən. Onların əlaməti üzlərində olan səcdə nişanəsidir. (Qiyamət günü onlar üzlərindəki mö'minlik nuru, alınlarındakı möhür yeri ilə tanınarlar). Bu onların Tövratdakı vəsfidir. Incildə isə onlar elə bir əkinə bənzədilirlər ki, o artıq cücərtisinin üzə çıxartmış, onu bəsləyib cana-qüvvətə gətirmiş, o da möhkəmlənib gövdəsi üstünə qalxaraq əkinçiləri heyran qoymuşdur. (Allahın bu təşbihi) kafirləri qəzəbləndirmək üçündür. Onlardan iman gətirib yaxşı əməllər edənlərə Allah məğfirət (günahlardan bağışlanma) və böyük mükafat və'd buyurmuşdur."[2]

"Onu da xatırla ki, bir vaxt Məryəm oğlu Isa belə demişdi: "Ey Israil oğulları! Həqiqətən, mən özümdən əvvəl nazil olmuş Tövratı təsdiq edən və məndən sonra gələcək Əhməd adlı bir peyğəmbərlə (sizə) müjdə verən Allahın elçisiyəm! Sonra (Isa, yaxud Mühəmməd (ə)) onlara aşkar mö'cüzələrlə

---

[1] -Ə'raf surəsi 157-ci ayə.

[2] -Fəth surəsi 29-cu ayə.

gəldikdə onlar "bu açıq-aydın sehrdir! "-dedilər."[3]

"Kitab (Tövrat və Incil) verdiyimiz şəxslər onu (Mühəmmədi) öz oğullarını tanıdıqları kimi tanıyırlar. (Buna baxmayaraq) onların bir qismi, şübhəsiz ki, həqiqətən bilə-bilə gizlədir."[1]

Bu aqələrdən başa düşürük ki, keçmiş peyğəmbərlərin camaata Mühəmməd (s)-in gəlişini və xüsusiyyətlərini müjdə vermələri ilə yanaşı bu müjdələ onların dini kitablarında da açıq-aydın söylənilib. Belə ki, Mühəmməd (s)-in və Islamın zühurundan sonra kitab əhli (yəhudi və xristianlar) üçün heç bir şübhə yeri qalmayıb. Çünki əgər yəhudi və xristianların kitablarında belə müjdələr olmasaydı, Mühəmməd (s) kimi ağıllı və düşüncəli şəxsdən öz peyğəmbərliyinin sübutu üçün bütün kitab-əhli qarşısında dayanıb "mənim adım və xüsusiyyətlərim hal-hazırda əlinizdə olan Tövrat və Incildə söylənilib" deməsi məntiqsiz bir söz olardı. Çünki belə olan halda Mühəmməd (s)-in düşmənləri sakit dayanmayacaq və onun peyğəmbərliyini danmaq və belə müjdənin o kitablarda söylənilmədiyini sübut etmək üçün Tövrat və Incilin bütüyn nüsxələrini toplayıb onun yalan dediyini və peyğəmbər olmadığını iddia edəcəkdilər. Tarixc şahiddir ki, onlar Mühəmməd (s) ilə müxalifətçilikdə mümkün olan bütün fəndlərə əl atdılar, hətta onunla müharibəyə qalxdılar. Ancaq belə bir müjdənin onların kitablarında olmadığını sübu etmək üçün heç vaxt belə sadə yola əl atmadılar. Deməli, mə'lum olur ki, müqəddəs kitablarda Islam peyğəmbəri barəsində bir çox müjdələr mövcud olub.

### Bir neçə tarixi şahidlər

1)Islam dini yaranmazdan qabaq Mədinədə iki dəstə camaat yaşayırdı. Bir dəstə Islam peyğəmbərinin gəlişini görmək məqsədi ilə öz ilkin yaşayış yerlərini tərk edib

---

[3] -Səhf surəşsi 6-cı ayə.
[1] -Bəqərə surəsi 146-cı ayə; Ən'am surəsi 20-ci ayə.

Mədinəyə köçüb gələn yəhudilər.[1] Ikinci dəstə isə Yəmən padşahının varisləri olan Ovs və Xəzrəc qəbilələri. Yəmən padşahı Mədinəyə yetişib oranın peyğəmbər (s)-in hicrət edərək oranı Islam hökumətinin mərkəzinə çevirəcəyini eşitdikdə o iki qəbiləyə deyir ki, siz burada qalın Islam peyğəmbəri (s) zühur etdikdə ona kömək edin. Əgər mən də o vaxtacan sağ qalsam ona kömək edəcəyəm.[2]

Onlar da onun əmri ilə orada qaldılar. Getdikcə artaraq gücləndilər. Axırda yəhudilərin malikanələrinə və mal-dövlətlərinə hücum edib qarət edirdilər. Zaman ötdükcə öz dədə-babalarının o şəhərdə qalmasının səbəbini unutdular.

Ancaq onlarla müqayisədə zəif olan yəhudilər Islam peyğəmbərinin zühuru ilə bu təcavzlərdən azad olacaqları ümidi ilə yaşayırdılar. Qur'ani-Kərim yəhudilər barədə buyurur: "Halbuki əvvəlcə (Mühəmmədən

[1] -Rəvzeyi-kafi 308-ci səh.
[2] -Biharul ənvar kitabı 15-ci cild.

qabaq) kafirlərə (ərəb müşriklərinə) qələbə çalmaq üçün ("Tövrat adı çəkilən akirüz-zaman peyğəmbər gəlib bizə yardım edəydi!"-deyə) Allaha yalvarırdılar. Bildikləri (peyğəmbər) gəldikdə isə, (paxıllıq edib) ona inanmadılar. Allah kafirlərə lə'nət eləsin!"[1]

2)Yəhudi alimlərindən olan Ibn Həvaş Islam peyğəmbərini görmək arzusu ilə Şam şəhərini tərk edib Mədinəyə köçür. Ancaq onun sağlığına qədər Mühəmməd (s) hələ peyğəmbərliyə göndərilməmişdi. Buna görə də Ibn Həvaş ömrünün son günlərində yəhudilərə dedi: "Mən Mühəmməd (s)-in peyğəmbərliyini dərk etmək ümidilə Şam şəhərindəki rahat yaşayışımdan keçərək bura gəlib bir tikə çörəklə, xurmaya qane oldum. Təəssüflər olsun ki, öz arzuma çata bilmədim. Ancaq bilin ki, O Məkkədə zühur edib bura hicrət edəcək. O yeməyində bir parça çörək və xurma ilə kifayətlənər. Elə təvözükardır oki, miniyə yəhər qoymadan əyləşər, hökuməti həddən artıq genişlənəcək. O heç

[1] -Bəqərə surəsi 89-cu ayə.

kəsdən qorxmaz və daş olub haqq yolunun qarşısında duran şəxsləri duran şəxsləri öz yolunun ağzından götürəcək."[2]

3)Hicaz vilayətindən olan Zeyd ibn Əmr Ibrahim (ə)-ın pak dininiin axtarışında idi. O, bu məqsədlə Məkkədən Şama və Mosula qədər gəzdi. Ancaq nə qədər axtardısa, istədiyini tapa bilmədi. Nəhayət bir xristian alimi ona dedi: "Sənin axtardığın o pak dindən indi əsər-əlamət qalmayıb. Ancaq elə bu yaxınlarda sənin öz vətənindən bir peyğəmbər çıxacaq ki, o pak dini onun sözlərində və hərəkətlərində tapa bilərsən." Bunu eşidən Zeyd Məkkəyə döndü. Lakin vətəninə çatmamış yolda öldürüldü. Peyğəmbər (s) onu yaxşılıqla xatırladıb buyururdu: "Zeyd Allahın dininə qovuşmaq yolunda dünyadan gedən bir şəxsdir."[1]

4)Xristian alimlərindən Büheyra Mühəmməd (s)-i uşaqlıqda görüb, asimani kitablardan oxuduğu nişanələrdən onu

[2] –Isbatul-huda, 1-ci cild, 84-cü səh; Bihar ul ənvar 15-ci cild 206-cı səh.
[1] –Biharul ənvar 15-ci cild 204-ci səh.

tanıdı. Mühəmməd (s)-i özü ilə səfərə aparan Əbutalibə dedi ki, o, peyğəmbər olacaq. Onu qoruyub saxla və tez vətəninə qaytar.[2]

5)Həmçinin başqa bir xristian alim Nəstur Mühəmməd (s)-i gənc olarkən görüb onun peyğəmbər olacağını müjdə verərək demişdir: "O, həmin axirüzzaman (sonuncu) peyğəmbərdir."[3]

Müqəddəs kitabların Mühəmməd peyğəmbər haqqında qabaqcadan verdiyi xcəbərlərə əsasən islam dininin meydana çıxdığı ilk vaxtlarda bir çoxları könüllü olaraq müsəlmançılığı qəbul etdi.

**Mədinə camaatının Islamı qəbul etməsi**

Elə ki, peyğəmbər (s) Allah tərəfindən camaatı də.əvət etmək əmri aldı, (Islamdan qabaq da mövcud olan) Həcc mərasimi zamanı camaatla görüşərək onları Islama də'vət edirdi. O cümlədən bir gün Minada

[2] –Siyrətu Ibn Hişam 1-ci cild
[3] –Təbəqati Ibn Sə'd 1-ci cild 83-cü səh.

Xəzrəc qəbiləsindən olan bir neçə nəfərlə görüşüb onlara buyurdu: "Siz hansı qəbilədənsiniz?"

-Xəzrəcdən.

-Razısız bir neçə dəqiqə oturub söhbət edək?

-Bəli.

-Sizləri yeganə Allaha doğru də'vət edirəm. Bu zaman peyğəmbər (s) onlara Allahın şirin kəlamlarından olan bir neçə ayə qiraət etdi.

Qur'anın cazibəsi onlara elə tə'sir göstərdi ki, ixtiyprsız olaraq biri-birisinə dedilər: "And olsun ki, həmin yəhudilər onunla bizi qorxutduqları şəxsdir. Məbada bu işdə yəhudilər bizi irəliləsinlər!" Sonra da müsəlman oldular. Mədinəyə qayıtdıqdan sonra da Islamın təbliğinə başladıldar. Peyğəmbər (s)-də Məs'əb ibn Ümeyri Qur'anı öyrətməkdən və camaatı Islama də'vət eməkdən ötrü onları ardınca Mədinəyə yolladı. Məs'əbin Mədinədə Islamı təbliğ etmək sayəsində bir çoxları, o cümlədən Ovs qəbiləsinin rəhbərlərindən olan Useyda müsəlman oldu. Useyda öz qəbiləsinə dedi: "Mühəmməd (s) yəhudilərin həmişə onun gəlişindən xəbər verdikləri şəxsdir." Axırda onun qəbiləsi bütünlüklə müsəlman oldu və beləliklə də Mədinədə Islam dini yayıldı. Məkkə müsəlmanlarından da bir dəstəsi ora köçdülər. Nəhayət peyğəmbər (s) özü də Mədinəyə köçüb orada Islam hökummətinin təməlini qoydu.

**Salmani Farsinin Islamı qəbul etməsi**

Salman iranlı vəəkinçi oğlu idi. ata və anası Zərdüştlük dininə qulluq edirdilər. Onlar Salmanı (o vaxt onun adı Ruzbeh idi) çox istəyirdilər. Öz dini əqidələrini ona öyrədir və onu heç kəslə görüşməyə qoymurdular...

Bir gün atası onu uzaqda yerləşən əkin sahələrinə baş çəkməyə göndərir. Yolda o bir kilsəyə yetişib camaatın o kilsədə namaz və ibadət ilə məşğul olduğunu gördü. Ruzbeh (Salaman) fikrə daldı... Axşama qədər onların yanında oturdu. Axırda belə nəticəyə gəldi ki, onların adəti ata-babasının adətindən

yaxşıdır. Salman kilsədəkilərdən soruşdu ki, bu dinin mərkəzi harada yerləşir? Onlar cavab verdilər ki, Şam şəhərində Atası Ruzbehin gecikməsindən narahat olub onun ardınca bir nəfər adam göndərdi. Ruzbeh evə qayıtdıqda atası ondan soruşdu ki, harada idin?-o, hadisəni söylədi. Atası dedi: "Sənin əcdadlarının dini hamısından yaxşıdır." Ruzbeh dedi: "Mən öz ağlımla onların dininin daha gözəl olduğunu anladım." Atası əsəbləşərək Ruzbehi söydü və onu evdə məhbus etdi. Ruzbeh gizlincə bir nəfərin vasitəsilə xristianlara xəbər çatdırdı ki, Şam tacirləri gəlib işlərini gördükdən sonra öz şəhərlərinə qayıtmaq istədikdə ona xəbər versinlər. O, da gizlicə evdən çıxıb onlarla birgə Şama gedəcək. Elə belə də oldu. Şamada böyük xristian alimlərindən birinin yanına gedib onun qulluqçusu olmasını və yanında elm öyrənim Allahın ibadətinə məşğul olmasını xahiş etdi. Xristian alim onu qəbul etdi. Xristian alim onu qəbul etdi. Həmin alim vəfat etdikdən sonra Ruzbeh onun öz göstərişi ilə o dövrün neçə böyük xristian alimlərinin hüzuruna yetişdi. O, (Şamın ətrafında yaşayan) axırıncı alim vəfat edərkən onu başqa bir alimin hüzuruna yollanmasını istədi. O, alim dedi: "Mən daha başqasını tanımıram. Ancaq bu yaxınlarda Hicazdan bir peyğəmbər çıxacaq. O, öz vətənindən xurma ağacaı ilə örtülmüş bir yerə (Mədinəyə) hicrət edəcək. Bu diyar Hərrəteyn arasında yerləşir. Onun bir sıra xüsusiyyətlərini sənə deyirəm, yadda saxla, o, hörmət əlaməti olaraq ona təqdim olunan hədiyyələri qəbul edir, ancaq kömək məqsədilə verilən sədəqələri, yeməkləri qəbkl etmir. Çiyinlərinin ortasında peyğəmbərlik möhürü və xal vardır.

Əgər ora gedə bilirsən, get!"

Ruzbeh o alimin vəfatından sonra ticarət üçün Ərəbistana yollanan karvandan onu da özləri ilə birlikdə aparmağı xahiş etdi. Onlar qəbul etdilər. Ancaq yolda ona xəyanət edib onu Bəni-Qureyzə yəhudilərindən birinə qul kimi satdılar. Bu yəhudi onu Mədinə ətrafında işlətməyə apardı. Ruzbeh ora yetişdikdə həmin yerin xristian alimin söylədiyi nişanələrlə ona tanış olduğunu başa

düşdü. Buna görə də sahibinin xurma bağında işləməyə başladı. Ancaq daim Mühəmməd (s)-in zühurunu gözləyirdi, Onu axtarırdı. Lakin imkanatı geniş olmadığı üçün bu barədə çox təhqiq apara bilmirdi.

Nəhayət vüsal günü yetişdi. Peyğəmbər (s) öz dostlarından bir neçə nəfərlə birlikdə Mədinə yaxınlığına çıxdı. Ruzbeh bundan xəbər tutub öz-özünə dedi ki, axtardığımı tapıb xristian alimdən eşitdiyimi onunla uyğunlaşdırmaq üçün ən gözəl fürsətdir. Özü ilə bir az yemək götürüb dərhal o Həzrətin yanına gedib dedi: "Bu yemək sədəqədir və kasıblara məxsusdur. Görürəm ki, sizin yanınızdakı adamlar da kasıbdır. Xahiş edirəm bunu məndən qəbul edin." Peyğəmbər (s) onu alıb yanındakılara verdi. Ruzbeh onun hərəkətini diqqətlə izləyirdi. Peyğəmbər (s)-in o yeməkdən yemədiyini gördükdə çox sevindi. Nişanələrdən biri düz çıxmışdı. Bir az keçdikdən sonra yanındakı başqa yeməyi də o həzrətin yanına aparıb dedi: "bu mənim sizə olan hədiyyəmdir, xahiş edirəm bunu da məndən qəbul edin." Peyğəmbər (s) hədiyyəni qəbul edib yeməkdən yedi. Bu hadisəni diqqətlə izləyən Ruzbeh sevindiyindən daha özünə özünə sığınmırdı.

Ruzbeh o həzrəti çiynindəki xalı görmək üçün peyğəmbər (s)-in ətrafına fırlanırdı. Peyğəmbər (s) onun məqsədindən xəbərdar oldu və xalı ona göstərmək üçün köynəyini çiynindən kənara çəkdi. Ruzbeh xalı gördü və Islam dinini qəbul etdi. Onun adını dəyişib Salman qoydular və köləlikdən azad etdilər. O, da başqaları kimi peyğəmbər (s)-in dostlarının qoşulub tez bir zamanda öz dərin imanı ilə və yüksək mə'rifəti ilə peyğəmbər (s)-in ən böyük şagirdlərindən biri oldu.[1]

O dövrün quru və isti cəmiyyətində susuzluqdan giyəri yanmış, həyat və yaşayış suyunun mənbəyini axtaran bütün həqiqət teşnələri müqəddəs kitablardan oxuduqları, yaxud eşitdikləri nişanələri əziz peyğəmbərdə tapdıqda öz ruhlarını o həyat və düşüncə bulağında yuyaraq dəstə-dəstə Islam dinini

---

[1] –Siyrətu-Ibn Hişam 1-ci cild 214-222-ci səh, Biharul Ənvar 22-ci cild 355-368-ci səhifələr.

qəbul edir və Mühəmməd (s)-ə birləşirdilər. Qur'an bu barədə belə buyurur: "Insanların dəstə-dəstə Allahın dininə (Islam) daxil olduqlarını gördüyün zaman..."[2]

Ancaq o həqiqət axtarıcılarının müqabilində bə'zi yəhudi, xristian və başqa dəstələr inadkarlıqları nəticəsində və ya öz məqamlarını itirəcəkləri üzündən o Ilahi varlığın haqq olmasından xəbərdar ola-ola yenə də ona iman gətirmədilər.

Nicat mənbəyini tanıyırdılar, ancaq tərslik üzündən ilğım ilə qəlblərini soyudurdular. Onlar inadkarlıqdan əl çəkmirdilər və nəticədə əbədi fəlakətə düçar olaraq səadətin uzaq düşdülər. Qur'an bu barədə buyurur: "Bildikləri (peyğəmbər) gəldikdə isə (paxıllıq edib) ona inanmadılar. Allah kafirlərə lə'nət eləsin!"[1]

Indi bu barədə iki nümunəni nəzərdən keçirək.

---

[2] –Nəsr surəsi 2-ci cild.

[1] –Bəqərə surəsi 89-cu ayə.

1)Həyy ibn Əxtəbin qızı Səfiyyə deyir: "Elə ki, Mühəmməd (s) mədinəyə hicrət edib "Quba" adlı yerdə dayandı. Atamla əmim Əbu-Yasir səhər dan yeri sökülləndə onun sorağına gedib axşam gün batanda qayıtdılar. Mən sevincək halda onların yanına getdim. Lakin çox yorğun görünürdülər və həmişəkinin əksinə olaraq e'tina etmədilər. Əmim atama deyirdi: "O həmin adamdır?"

-And olsun Allaha ki, həmin adamdır.

-Onu tanıdın?

-Bəli...

-Indi onun barəsində nə fikirləşirsən?

-And olsun Allaha nə qədər sağam, onunla düşmənçilik edəcəyəm![2]

2)Bir gün peyğəmbər (s) Kə'b ibn Əsədə buyurdu: "Məgər (Şamdan Mədinəyə köçmüş böyük alim) Ibn Həvaşın dediklərini unutmusan? Onun dediklərini sənə tə'sir e6tmədi?"

Kə'b dedi: "Yadımdadır. Əgər yəhudilərin danlağı olmasaydı və "Kə'b

---

[2] –Siyrətu Ibn Hişam 2-ci cild 518-ci səh.

ölməkdən qorxur" sözünü deməsəydilər, sənə iman gətirərdim. Ancaq indi yəhudilərin dinində qalmaqla bu danlaqdan uzaq oluram və ölənə qədər həmin dində qalacağam!"[1]

Qur'ani-Kərim öz həyat və səadətinin kökünü çürüdən belə daşürəkli insanları ziyankar adlandıraraq buyurur: "Allahın Öz qullarından istədiyi şəxsə lütf etməsinə (peyğəmbərlik verməsinə) həsədə apararaq. Onun göndərdiyini inkar etməklə (yəhudilərin) vicdanlarını satmaları nə qədər də pisdir! Bununla onlar (özlərinə qarşı) Allahın qəzəbi üstünə bir qəzəb də artırdılar. Kafirləri zəliledici əzab gözləyir!"[2]

[1] –Isbatül-hudat 1-ci cild 350-ci səh.
[2] –Bəqərə surəsi 90-cı ayə.

## XXI DƏRS

## QUR'AN ISLAMIN ƏBƏDI VƏ CAVANŞÜMUL

**MÖ’CÜZƏSIDIR.**

### Peyğəmbərlər və mö’cüzə

Ilahi peyğəmbərlər camaat onların Allah tərəfindən gəldiklərinə yə’qin etsin deyə daima açıq-aydın nişanələr göstərirdilər. Bu baxımdan parlaq ayna və şəffaf bulaqlar kimi pak batinə malik olan şəxslər o nişanələri gördükdə onlara iman gətirirdilər. Necə ki, Fir’on dövrünün sehrbazları Msa (ə)-ın əsanı əjdahaya çevirməsi kimi mö’cüzəsini görüb bu mö’cüzənin bəşər qüdrətindən xaric olduğunu dərk etdikdə ona iman gətirdilər və Fir’onun təhdidindən qorxmadılar. Həmçinin Isa (ə)-ın həvariləri də onun ölüləri Allahın izini ilə diriltməsini öz gözləri ilə gördükdə ona iman gətirirlər. Onlar ölmüş ruhların Isa (ə)-a iman gətirməklə əbədi həyat bəxş etdilər.

Peyğəmbərlərin sonuncusu, hamıdan üstünü və fəzilətlisi, habelə qiyamətə qədər bütün səmavi dinlərin tamamlayıcısı olaraq əbədi din gətirən Islam peyğəmbərin Həzrəti Mühəmməd (s)-də peyğəbərliyə seçildikdə öz dinin həqiqi və oüstün olduğunu sübut etmək açıq-aşkar nişanələr göstərirdi.

### Qur’an əbədi mö’cüzədir.

Beləliklə Islamın əbədiliyini sübut edən Qur’an bəşəriyyətin təfəkkür üfüqlərində parladı. Qur’an bəşər ziyalılarının fikirlərinin yüksəkliklərində və Mühəmməd (s)-in uca dininin qaranlığında həmişə palaq bir məş’əldir. Nə qədər ki, Günəş dünyaya saçır, bu məş’əl də parlayacaq. Bu Qur’an aydın bir Ilahi topludur ki, onun nurları günəş nuru tək bütün əsrlərdə həmişə əbədi olaraq hər kütlənin səfadətinin tə’mini və həyatının davamı üçün labüddür. O topluda camaatın

hidayəti üçün lazım olan hər bir şey bə’yan olunub. Əqidə üsullarını, insanla Allahla arasındakı əlaqələri, habelə bu əlaqələri möhkəmləndirməyin yollarını züm-zümə edən zülal suların incəliyi, göylərə ucalmış dağların möhkəmliyi kimi cazibədar və gözəl surətdə bə’yan edir. Camaatın ictimai vəzifələrini bə’yan edir, davranmaq tərzini öyrədir. Kütlələr arasındakı ixtilafları və uyğun olmayan cəhətləri aradan götürür. Insan üstünlüyünün, qardaşlığın, bərabərlik və tərbiyə tərfdarıdır.

**Misilsiz fəsahət və bəlağət**

Lüğətləri bilmək və kəlmələrdən xəbardar olmaq elə də çətin iş deyil. Ancaq fəsahət və bəlağət üslübüna riəyət edərək onları tənzimlənmək, eləcə də cümlələri oxucu üçün oxunaqlı və başa düşülən tərzdə qurmaq, incə və dəqiq qaydalara və məharətə riayət etmədən mümkün olan iş deyil. Fəsahət və bəlağət fənnində qeyd olunub ki, şifahi və yaxud yazılı nit qin ədəbi normalara uyğun olması üçün məsələyə riayət etmək lazımdır:

1)Sözləri və onların ifadə etdiyi mə’na və ya mə’naları dərindən bilmək.

2)Təffəkür qüvvəsi və zövq incəliyi.

3)Sözü demək və yaxud yazmaq qabiliyyəti.

Yadda saxlamaq lazımdır ki, fəsahət və bəlağətin tamam qaydalarına riayət ediləməsinə baxmayaraq heç kəs yazdığının, yaxud dediyinin bütün zamanlarda üstün olmasını və heç bir şəxsin onun mislini gətirə bilməyəcəyini iddia edə bilməz. Ancaq elm və qüdrətinin sərhəddi olmayan Allah kəlmələri tənzimləyərək Qur’an cümlələrini elə gözəl tərtib etmşdir ki, heç kəs, hətta ən bəlağətli və ən fəsahətli insanların belə onun mislini gətirməyə qüdrəti yoxdur. Qur’anın əbədi yaşamasının və Həzrət Mühəmməd (s)-ın əbədi peyğəmbərlik sənədinin rəmzi də məhz budur. Tarix şahiddir ki, Qur’an ərəb ədəbiyyatının yüksəldiyi bir dvrdə parlamışdır. Indiyə qədər ədəbiyyat aləminin dahilərindən sayılan Imrul-Qeys, Ləbid kimi

adlı-sanlı böyük şairlər, xətiblər gözəl şe’rlər və sözlər söyləyirdilər. Bə’zi vaxtlar şe’rlər o qədər ürəkaçan olurdu ki, onların pərdə və ya zərli lövhə üzərinə yazıb Kə’bənin divarından asırdılar. Ancaq həmin əsrlər parlaq Qur’an günəşinin doğması ilə ulduzlar rənglərini itirib qürub etdilər. Bəlağətlə danışan ərəb Qur’anın bəlağətindən heyrətdə qaldı. Hətta Mühəmməd (s)-ı və onun dinini məhv etmək üçün qılınca əl atan Islam düşmənlərinin sə’ylərinə baxmayaraq onlar da Qur’anın bə’yanında və dilində heç bir səhv tuta bilmədilər.

**Düşmənlərin mühakiməsi**

Həcc mövsümü idi.[1] Camaat hər yerdən Məkkəyə gəlirdi. Qüreyş müşrikləri bərk narahat idi. Onlar qorxurdular ki, Mühəmməd (s)-ın sözləri təzə gələnlərə tə’sir edər. Buna görə də Qüreyşdən bir dəstə Vəlidin başçılığı ilə təzə gələnlərin peyğəmbər (s)-lə görüşməyinin qarşısını almaqdan ötrü ona nalayiq sözlər demək üçün bir yerə yığışdılar. Onlardan biri dedi: “Deyərək ki, Mühəmməd kahindir.” Vəlid dedi: “Inanmayacaqlar. Çünki onun sözləri kahinlərin sözünə bənzəmir.” Başqa birisi dedi: “Deyərik ki, o, dəlidir.” Vəlid dedi: “Heç kəs inanmayacaq. Çünki onun danışığı və rəftarı dəlilərin hərkətinə oxşamır.” Yenə başqa birisi dedi: “Deyərik ki, o, şairdir.” Vəlid dedi: “Buna da inanmayacaqlar. Çünki ərəblər şe’rin bütün növlərindən xəbardardır. Onun sözləri isə əsla şe’rə oxşamır.” Dördüncü şəxs durub dedi: “Onda deyərik ki, o, cadugərdir.” Vəlid dedi: “Cadugarların sap düyün vurmaq, üfürmək və bu kimi başqa xüsusi üslubları var. Mühəmməd isə bu cür işlər görmür.” Nəhayət Vəlid özü məcbur olub dedi: “And olsun Allaha ki, bu kişinin sözünün özünəməxsus şirinliyi var. Onun sözü möhkəm və dərin kökləri olan və barın çoxluğundan budaqları əyilmiş ağaca bənzəyir. Camaata belə deyə bilərik ki, onun sözləri sehrlidir. Çünki o ata ilə övlad, ərlə

[1] –Həcc mərasiminə Islamdan qabaq də əməl olunurdu.

arvad və qardaşla qardaş arasında ayrılıq salır.”[1]

Qeyri-ərəb millətləri Qur’anın fəsahət və bəlağətin ən yüksək həddində olduğunu dərk etmək üçün tarixdə qeyd olunmuş o dövrün və indiki dövrün bu sahədə ixtisaslaşmış ərəb dilçilərinin bu sahədə yazdıqları e’tiraflarına müraciət edə bilərlər. Xoşbəxtlikdən peyğəmbər (s)-in zamanından indiyə qədər bütün dövrlərdə bəlağət və ərəb ədəbiyyatı fənlərinin mütəxəsisləri Qur’anın misilsiz fəsahət və bəlağətinə e’tiraf edərək özlərini onun qarşısında aciz bilmişlər. Müasir ərəb yazıçılarından olan Əbdülfəttah Təbarə yazır: “Hər bir əsrin alim, ədib və yazıçıları Qur’anın ecazkarlığına e’tiraf edərək özlərini onun qarşısında aciz bilmişlər.”

Ərəb dünyasının nəsr və nəzmdə xüsusi iste’dada malik ibn Müqəffə, Cahid ibn Umeyd, Fərəzdəq, Bəşmar, Əbu-Nəvvas, Əbu Təmmam və bu kimi başqa görkəmli insanlar olmuşdur. Ancaq onların hamısı Qur’an qarşısında təslim olaraq Qur’anın bəşər kəlamı deyil, Ilahi vəhy olduğuna e’tiraf etmək məcburiyyətində qalmışlar.[2]

[1] -Vəlidin bu sözdən məqsədi o idi ki, hər təzə müsəlman Islamı qəbul etməklə özünə başqa bir yol tuturdu. Hətta bə’zi vaxtlar öz qohumlarından ayrılıb onların əqidələri ilə müxalifətçilik etməyə məcbur olurdu.

[2] -Ruhuddinil Islami. 30-32-ci səh.

## Misilsiz bir üslub

Misirin müasir filoloqu doktor Taha Hüseyn deyir:[1] “Qur’an nəzm və nəsr həddindən daha yüksəkdir. Çünki bu Qur’an heç bir nəsr və nəzmdə tapılmayan xüsusi keyfiyyətlər malikdir. Deməli, Qur’anı nəsr və ya nəzm adlandırmaq olmaz. Elə isə deməliyik ki, o, Qur’andır, vəssalam.”

Bu yeganəlik, üstünlük Qur’anın xüsusi bə’yanının və üslubunun nəticəsidir. Heç bir əsərdə onun mislini tapmaq mümkün deyil.

## Mövzuların uyğünluğu

[1] -Ruhiddinil Islami.30-32-ci səh.

Hər hansı bir şəxsin məharətli və gözəl nitq sahibi olmasına baxmayaraq yenə də onun müxtəlif yerlərdəki çıxışı bir-biri uyğun gəlməyəcək. Yaxud bir şəxsin yazıçılığa başladığı ilk günlərdə yazdığı əsər arasında böyük fərq hiss olunacaq. Sonradan yazdığı əsər şübhəsiz ki, ilk yazdığı əsərdən üstün olacaq. Ancaq Qur'anın iyirmi üç il ərzində, özü də müxtəlif şəraitdə nazil olmasına, habelə nazil olduğu müddət ərzində uzun çay kimi dərələrdən, daşlardan və çöllərdən axıb keçməsinə baxmayaraq bulaq suyu tək şəffaf qalmışdır.

Qur'an mövzularının üslubunun və bə'yanının uyunluğu son dərəcə heyrətləndiricidir. Qur'anda müxtəlif mövzulardan söz açılmasına baxmayaraq onun üslubunun, yeganəliyi və uyğunluğunu gördükdə insanın heyrəti son həddə çatır. Təbii məsələdir ki, yalnız xüsusi bir sahədə ustalıq həddinə çatan şəxs əgər həmin sahədə bir iş təqdim edərsə, onun bu işi parlaq olacağdır. Ancaq həmin şəxs (usta olmadığı) başqa bir sahələrdə də öz gücünü yoxlamaq istəsə, şübhəsiz ki, işini lazımi səviyyədə təqdim edə bilməyəcək. Ancaq Qur'an hər bir sazədə heyrət həddinə qədər parlayıbdır.

**Qur'anın elmi mö'cüzələri**

Qur'anın öz dediyinə görə ilk və əsl məqsədininin yalnız insanları bu dünyada və axirət dünyasında əsas səadət və xoşbəxtlik yoluna hidayət etmək olmasına baxmayaraq bu ali məqsədlə yanaşı bə'zi vaxtlar Qur'an təbiət, astronomiya və bu kimi digər bəşər elmlərindən bir çox həqiqətlərə toxunmuşdur. Bu isə Qur'anın mö'cüzəliyinə daha bir nişanədir. Çünki tarixin söylədiyi kimi peyğəmbər (s) heç vaxt dərs oxumayıb, eləcə də (ədəbiyyat istisna olmaqla) bəşəriyyət elmindən, maarifindən tamamilə təcrid olmuş və Iran, Roma və Yunanıstan kimi elm mərkəzlərindən uzaq olan bir mühitdə yaşamışdır. Indi isə bu elmi mö'cüzələrdən bir neçə nümunəyə nəzər yetirək:

1)Hidrometrologiya yeni bir elmdir. Keçmişdəkilərin havanın buludlu, küləyli, yağmurlu, yaxud qarlı olması barədəki

anlayışları yalnız güman və hisiyyat çərçivəsində olmuşdur. Ümumiyyətlə xəyal və ehtimaldan yaranan bir anlayış olaraq heç bir elmi əsası olmamışdır. Gəmi kapitanlarının və əkinçilərin hər biri havanın küləkli, yaxud yağmurlu olacağını nişanələr üzündən edirdilər. Ancaq onun necə baş verəcəyindən xəbərsiz idilər. Bu minvalla əsrlər ötüb keçdi. XVII əsrdə termometr XIX əsrdə isə teleqraf, sonra da havanı ölçmək üçün lazım olan digər vəsait kəşf olundu. Alimlər yavaş-yavaş daha geniş təhqiqata başladılar ki, bu da XX əsrin ilk yarısında Norveç alimi Birknisin havanın buludlu olacağını, tufan olacağını, yağış yağacağını bir qayda olaraq qabaqcadanq xəbər verə bilməsi ilə nəticələndi. Ondan sonra bu elmdəki yeni kəşflər (başqa sahələrdəki kimi) daha artmağa başladı və beləliklə buludların yağmurluğuna, yağışın ondan ayrılmasına, dolu yağmurun yaranması və yağmasına habelə ildırıma, şimşəyə, isti yerlərdə qopan tufanlara yer kürəsində tez-tez cərayan edən küləklərə və başqa bu kimi şeylərə aid olan məsələlər müəyyən qədər aydınlaşdı.[1]

Ancaq hava tanıyanlarının külək, yağış və bu kimi şeylər haqqında yenicə kəşf edib əldə etdiklərini Qur'an on dörd əsr bundan qabaq söylənilmişdir. Məsələn artıq sübut olunub ki, mümkündür göy üzü həddən artıq buludla tutulsun, ancaq yağış yağmasın və yaxud yağış yağsa da yağış dənələri o qədər xırda olsun ki, havada qalaraq yerə düşməsin və yaxud ola bilər yüksək hündürlüklərdə yığılmış və küləyin vasitəsi ilə səpələnən qar dənələri ətrafına hava rütubəti yığılsın, sonra da külək nəticəsində bir-birinə birləşmiş yağış dənələri böyüyərək öz ağırlıqları nəticəsində buluddan ayrılıb yerə tökülsün. Halbuki Qur'ani-Kərim on dörd əsr bundan qabaq bunlara işarə edərək buyurmuşdur: "Biz (buludla) yüklənmiş (bitkilərə, ağaclara həayt verən, onları tozlandıran) külək göndərdik, göydən yağmur endirib sizə su verdik..."[1]

---

[1] -Qur'anda külək və yağış səh 19-25.
[1] -Hicr surəsi 22-ci ayə.

2)Təyyarə kəşf edildikdən və hündürlüklərdə uçmaq imkanı yarandıqdan sonra bəşəriyyətin elmi gizli buz iynələrini təşkil etmiş buludlardan da ötüb keçdi. Bu vaxta qədər göylərdə və insanların başı üstündə buzdan təşkil olunmuş dağların olmasından kimsənin xəbəri yox idi.[2] Ancaq Qur'an tam qətiyyətlə deyir: "Allah səmaların daxilindəki buz dağlarından (qar, yağış, yağmur) yağdırır."[3]

3)Planetlərdəki canlı məxluqlar Bəşərin kosmik gəminin köməyi ilə Aya getməsinə baxmayaraq göy planetlərində canlı məxluqların varlığı hələ də nəzəriyyə olaraq qalmaqdadır və yalnız bir çox nişanələr üzündən bə'zi planetlərdə heyvan və ya insan kimi canlı məxluqların olduğu ehtimal verir. Ancaq Qur'an açıq-aydın buyurur: "Göyləri, yeri və oralara yayıb səpələdiyi canlıları yaratmağı Onun qüdrət nişanələrindəndir.

[2] –Qur'anda külək və yağış 140-143-cü səh.
[3] –Nur surəsi 43-cü ayə.

Allah istədiyi vaxt (qiyamət günü) onları bir yerə yığmağa qadirdir!"[1]

4)Yasin surəsinin otuz altıncı ayəsində deyilir: "Yerin yetişdirdiklərindən, onların (insanların) özlərindən və bilmədiklərindən cütlər yaradan Allah pak və müqəddəsdir! (Eyibsiz və nöqsansızdır)."

Toha surəsinin əlli üçüncü ayəsində oxuyuruq:

"O (böyük Allah) ki, yer üzünü sizin üçün döşəmiş, orada sizin üçün yollar salmış, göydən yağmur yağdırmışdır. Biz o yağmurla növbənöv bitkilərdən cütlər yetişdirmişik."

Hələ dahi təfsirçilərə bitkilərin cütlərindən təşkil olunması mə'lum olmayan zamanlarda onları siniflərə, növlərə yauxd surət, maddə və başqa fəlsəfi terminlərə təfsir edirdilər. Ancaq bu gün yeni təhqiqlər əsasında artıq mə'lum olmuşdur ki, dişi və erkək olmaq təkcə insan və heyvana yox, həm də bitkilərə aiddir. Bu dünyanın heyrətləndirici yeniliklərindən biri də

[1] –Şura surəsi 29-cü ayə.

bitkilərin cütlük təşkil edərək tozlanma xüsusiyyətinə malik olmasıdır.

**Qur'an mübarizəyə də'vət edir**

Qur'an təkcə fəsahət və bəlağət cəhətindən deyil, həm də qeyd etdiyimiz kimi bəşərin bütün fikri və ictimai sahələrində hamı üçün mö'cüzədir. Filoloqlar üçün fəsahət və bəlağət cəhətindən, alimlər üçün elm sahəsində və sair... Buna görə də Qur'an bütün ictimayyətə xitab edərək deyir ki, əgər bu kitabın bəşər kəlamı olduğunu deyirsizsə, onda səkkizinci ayə: "Ya Peyğəmbər! De: "Əgər insanlar və cinlər bir yerə yığışıb bu Qur'ana bənzər bir şey gətirmək üçün bir-birinə kömək etsələr, yenə də ona bənzərini gətirə bilməzlər."

Hud surəsi on üçüncü ayə: "Yoxsa (müşriklər) "Onu (Qur'anı) özündən uydurdu!" deiyyrlər? (onlar) de: "Əgər doğru deyirsinizsə onun kimi özünüzdən on surə uydurub gətirin və (bu işdə) Allahdan başqa, kimi bacarırsansa, onu da köməyə çağırın."

Bəqərə surəsi iyirmi üçüncü ayə: "Əgər bəndəmizə (Mühəmmədə) nazil etdiyimizə (Qur'ana) şəkkiniz varsa, siz də (fəsahətdə və bəlağətdə) ona bənzər bir surə gətirin."

Tarix şahiddir ki, o zamandan indiyə qədər heç kəsin mübarizə etmək cür'ət olmayıb. Düzdür, Mühəmməd (s)-in, Səccah, ibn Əbdül-Ovca kimi bə'zi ərəblər bu yolla rəqabətçilik etməyə başladılar. Lakin bacarmayıb öz acizliklərinə e'tiraf etdilər. Peyğəmbər (s)-in dövründə onounla mübarizə edərək müsəlmanlara işgəncə vermək, ornları iqtisadi mühasirəyə almaq, Mühəmməd (s)-in sui qəsdini hazırlamaq və bu kimi çətin yollarla əl atan Islam düşmənləri, Qur'an surələrinə bənzər bir surə gətirmək kimi əziyyətsiz bir işə əsla yaxınlaşqmadılar. Indiki zamanda da Islam dinini məhv entmək üçün milyardlarla pul xərcləyən bə'zi düşmənlər əgər bu xərcəsiz və asan yolla (Qur'an surəsinə bənzər bir surə gətirməklə) Islamla mübarizə edə bilsəydilər, şübhəsiz ki, indiyə qədər bu işi görər və bunu öz qələbələrinə, eləcə də Islamın

məğlubiyyətinə böyük sübut olaraq bütün dünyaya çatdırdılar.

### Xarici alimlərin təəccübü və e'tirafı

Avropa alimləri elmin inkişaf etdiyi əsrdə də Qur'anın mö'cüzələyinə e'tiraf ediblər.

Italiyalı alim bir qadın (Neapol institunun müəllimi) deyir: "Islamın csəmavi kitabı (Qur'an) fövqəladə bir kpitabdır. Onu bənzətmək (yamsılamaq) olşmaz. Onun ərəb ədəbiyyatında misilsiz üslubu vardır. Onun insan ruhunda xüsusi tə'sir onun üstünlüyündən irəli gəlir. Necə ola bilər ki, belə bir kitab Mühəmməd (s) özü yazsın? Halbuki o dərs oxumamış bir ərəb idi. Biz bu kitabda dahi filosofların və siyasətçilərin elmindçn üsütün bir sıra elmlər xəzinəsi görürük. Bu dəlilərə əsasən Qur'an hətta təhsil almış bir şəxsin də əsəri ola bilməz."[1]

Ustad Senays deyir: "Şübhəsiz Qur'an heç bir səhvə yol verilməmiş ümumi və kamil

[1] –Islamın sür'ətili inkişafı. 49-cu səh.

bir qanundur. Deməli, hər bir zamana və məkana layiqdir. Əgər müsəlmanlar layiqincə ondan istifadə etsələr, öz keçmiş şərəflərini yenidən ələ gətirə bilərlər."[2]

Can Vilyam Druper deyir: "Qur'an xəlaqi keyfiyyətləri çox sadalayır. Onun yazılış tərzi ilə tənzimlədir ki, hər bir səhifəsinə baxdıqda hər adamın bəyənəcəyi ən yüksək yazılışı görəcəyik. Kiçik-kiçik hissələrdə nazil olmuş bu xüsusi məğliyə öz-özlüyündə kamala malik olan və bütün insanlar üçün həaytın bir sahzəsində istifadə edilməsi mümkün olan məsələlər, şüarlar və qanunlar toplusudur."[1]

Sonda bu əsirgənilən və həsrətlə dolu xatırlamanı qeyd etmək lazımdır ki, əgər biz Qur'anla daha da yaxınla tanış olub onun yüksək proqramlarını həyata keçirsək, səadət bizə nəsib olacaq. Biz müsəlmanların yüksək və əzəımətli təməli bu səmavi kitabın göstərişlərinə əməl etməkdən əl çəkdiyimiz zaman dağıldı. Islamda yalnız onun adına

[2] –Ən yeni təfsir. 42-ci səh.

[1] –Avropa fişkrinin tərəşqqi tarixi. Landon 1875. 343-cü səh.

kifayətləndiyimizə görə məğlub olduq. Bizim yalnız adamız müsəlmandır ki, bu da məhz bizim yaralı yerimizdir. Itirilmiş səadət və əzəmət o vaxt geri qayıdar ki, əzəmət əyri yoldan döyüb yenidən müsəlman olaraq Qur’anı qəlbimizinvə qəlimizin yüksəkliklərində yerləşdirməklə onu öz hzəyatımız üçün örnək qərar verək. Peyğəmbər (s) buyurmuşdur: “Fitnələr zülmət gecə kimi ətrafınızı bürüdüyü zaman Qur’andan yapışın.”[2]

## XXII DƏRS

[2] –Üsuli kafi; 2-ci cild; 599 səh.

## ISLAM IDEOLOGIYASI.

Islam idelogiyasının əsasını “la ilahə illəllah”-yə’ni Allahdan başqa heç bir tanrı yoxdur, cümləsində cəmləşdirmək olar. Islam ağacının möhkəmrişəli, həmişə yaşıl və bəhərli olmasının sirri də məhz budur. Çünki, əgər Islamı bir ağaca, onun ideolgiyasını isə ağacın kökünə bənzətsək, onda bilməliyik ki, möhkəm və bəhərli olması üçün mütləq onun kökü möhkəm olmalıdır. Islam ideologiyasının əsasının yuxarıdakı şüarda deyildiyi kimi nə qədər möhkəm olduğunu görürük.

## Səadət imana bağlıdır

Əgər bəşərin bütün istəkləri madiyyat haqqında olsaydı və insan öz canında maddi aləmdən başaq bir aləmə ehtiyac hiss etməsəydi, özünə xoşbəxtlik qazanardı, ancavq bu xoşbəxtlik tam şəkildə olmayacaqdı. Lakin görürük ki, bəşəriyyət öz ruhunun dili ilə texnika, sənaye və maddi vəsait çoxaldıqca cəmiyyətin mənəvi ehtiyacıda çoxalır. Cəmiyyətin günaha qərq olması və bir sıra çatışmamazlıqlar bir daha bu həqiqəti təsdiqləyir. Bunun şahidi XX əsrin əvvəllərindən başlayaraq mədəniyyət cəhətdən inqkişaf etmiş ölkələrə gölgə salan bir-birindən parçalanma və böhrandır. Cəmiyyətin ruhi böhranı xüsusən cavanlar barəsində qarşıalınmaz səviyyəyə gəlib çatmışdır. Bu barədə rus psixoloqu Surukin deyir: "Insan maddi mədəniyyət maarifində təkcə diri orqanizm olub heç vaxt tam yaxşılıq, gözəllik və bilik ardınca deyil. Mə'nəvi kamala yetişib ruhi ehtiyaclara tə'min etmək üçün heç bir çıxış yolu nəzərdə tutulmayıb.

Yüksək insan ruhi itiqanadlı şahin kim uca dağların yüksəkliklərində uçmaq arzusundadfr. Buna çatmaq üçün isə insan əli çatmaz bir yerə qədər uçmayınca və ruhi fəzilətlər bulağından doymayınca bu ruh əvvəlki azğınlığında qalacaq. Butun bu pisliklər və arzular etməkliklər baş qaldıran üsyankar qərizələrin nişanələridir. O nicat sahilinə çatmayınca sakit durmayacaq. Nicat sahili isə təkcə məhdud olmayan yeganə qüdrətə, sonsuz elmə və tam kamala malik olan bir varlığa gətirməkdən, eləcə də xəyalda təsəvvür edilən Allahlardan uzaqlaşmaqdan ibarətdir. Qəlblər məhz belə bir qüdrəti yad etməklə və ona həqiqi iman gətirməklə aram olur. Qur'an bu yüksək həqiqəti çox kiçik bir cümlə ilə söyləyərk buyurur: "Bilin ki, qəlblər yalnız Allahı zikr etməklə aram tapar!"[1]

Bəli, qəlblərin aram olması məhz Allahı zikr etməklə mümkündür və yalnız Allaha

[1] -Rəd surəsi, 28-ci ayə.

tərəf yönəlmək insan qərizələrini normallaşdırıb onu xoşbəxtliyə çatdıra bilər. Islam dini insan dəyərini həmin me'yar əsasında ölçərək deyir: "Allah yanında ən hörmətli olanınız Allahdan ən çox qorxanınızdır."[2]

Islamın yeganə məqsədi insanlara həqiqi və mə'nəvi ləzzətləri maddi aləmdən əl çəkib həqiqi səadət yolunda addımlaması üçün insanları alçaq maddiyyat və şəhvət çirkablarından nicat üfüqünə çıxarmaqdan verməkdir. "Ey insapnlar! Peyğəmbər sizi, sizləri dirildəcək bir şeyə (imana, haqqa) də'vət etdiyi zaman Allahın və Onun Peyğəmbərinin də'vətini qəbul edin."[1]

Islam tə'limləri nəticəsində insanların ölmüş ruhu və yatmış iste'dadları dirilərək inkişaf edir. Bu həyat və yaşayış, qanunlar çərçivəsində, eləcə də Islami məqsədlər mövzularında gözə çarpır.

[2] –Hucurat surəsi-13-cü ayə.
[1] –Ənfal surəsi-24-cü ayə.

Indi bu mövzuların bə'zisini nəzərdən keçirək:

1)Islami qardaşlıq.
2)Ümumi nəzarət.
3)Elmin məqamı.
4)Əmək və zəhmət.
5)Ailə qurmaq.

## Islami qardaşlıq

Islami qardaşlıq yüksək insani fəzilətlər əsasında qurulmuşdur. Çünki o, puç və əsassız işlərdən uzaqdır. Islami qardaşlıq hər bir müsəlmanda fədakarlıq fitrətini möhkəmləndirən eləcə də səfa-səmimiyyət və iman ruhunu yaşadan bir həqiqətdir. Insanların həyatın hər bir sahəsində bir-birinin tdərdinə şərik olması haqqında mə'suliyyət hiss etməsi bilavasitə onun əməli nəticələrindəndir. Bu qardaşlığa əsasən müsəlman şəxs öz din qardaşının dərdinə biganə qala bilməz. Islamın təzəcə çiçəkləndiyi dövrdə bu qardaşlıq məsələsi elə gözəl və məharətlə icra olunurdu ki, kasıbla varlı səmimi qəlbdən bir-biri ilə qardaş

olurdular. Imam Sadiq (ə) Islami qardaşlıq məsələsini sadə və geniş məzmunda belə bə'yan edir: "Mö'minlər bir-biri ilə qardaşdır. Onlar eyniylə bir insan bədəninə bənzəyirlər. Əgər bədən üzvülərindən biri ağrısa, digər üzvlər də aram olmayacaq."[1] Yenədə o Həzrət buyurur: "Islami qardaşlıq məsələsi sənin tox, müsəlman qardaşının isə ac olmasına icazə vermir. Özün üçün istədiyi onun üçün də istəməmisən. O, sənə olduğu kimi sən də ona arxa və dayaq ol! O səfər də olarkən sən onun malını və namusunu qoru. Səfərdən qayıtdıqda görüşünə get və onun hörmətini saxla! O, səndən, sən də ondansan.

Ona bir xeyir yetişdikdə bundan ötrü Allaha şükr et, o, çətinliyə düşdükdə isə ona kömək et."[2]

**Ümumi nəzarət**

Allah bizim bəndəmizdə leykositlər yaratmışdır ki, onlar insan bədənini (sağlamlığın düşməni olan) bakteriyaların hücumlarından qorusun və insanın təbiətində heç bir çatışmamazlıq yaranmasın. Bu, müsəlmanların cəmiyyətdə qarşıya çıxan hadisələrə qarşı sayıq göztçilər kimi ayıq olaraq hər zaman mənəviyyatı, düzgünlüyü və həqiqəti şeytansifət şəxləri yalan və batil əlində əsir gördükdə ayağa qalxıb onun köklərini məhv etmələri üçün gözəl örnək ola bilər. Əks tədqirdə cəmiyyətdən qalan yalnız quru bəədn olacaq. Çünki əgər camaat hər bir qanunsuzluğun qarşısında sükut etsə, cəmiyyət sakit bataqlıq kimi qurd-quş mühitinə çevriləcək və tezliklə həyatlarını parlaq zülalı qaralaraq çirkinləşəcək. Deməli, çirkinliklərin onların varlığında tə'sir qoymaması üçün mütləq həmişə coşub daşan dəryaların dalğaları kimi hərəkətdə olub çalışmalıdırlarö

Buna görə də Islam dini canlı bir cəmiyyətin yaranması üçün ümumi nəzarəti müsəlmanların lazımi vəzifələrindən bilir və həmişə onlara xəbərdarlıq edir ki, ictimai vəzifələr fərdi vəzifələrlə bərabərdir,

[1] -Biharul ənvar, 74-cü cild, 268-ci səh.
[2] -Biharul ənvar, 74-cü cild, 243-cü səh.

müsəlmanlar bu böyük vəzifədə də öz borclarını ödəmələdirlər. Qur'an bu sahədə iki parlaq əməli təklifə əmr edir.

1)Yaxşı işlərə də'vət etmək, yə'ni əmr be-mə'ruf.

2)Pis işlərdən çəkindirmək, yə'ni, nəhy əz-munkər.[1]

Imam Baqir (ə) buyurur: Yaxşılıqlara də'vət etmək və pisliklərdən çəkindirmək digər vacib əməllərin hamısının onun üzərində olduğu mə'suliyyətli bir vəzifədir.[2] Müsəlman milləti bu iki böyük sünnəni unutsa, onda öz səadətini də itirəcəkdir. Deməli, Islam məntiqində aşağıda qeyd edəcəyimiz kimi danışıqlar səhv bir fikirdir.

Məni sənin qəbrinə və səni mənim qəbrinə qoymayacaqlar!

-Isa öz dinində, Musa da öz dinində!

-Əgər rüsvay olmaq istəmirsənsə, camaatla ayaqlaş!

---

[1] -Ali-Imran surəsi 110-cu ayə.
[2] -Üsuli kafi 5-ci cild, 55-ci səh.

Unutmalıyıq ki, əmr be-mə'ruf və nəhy əz-munkər hər bir müsəlmanın boynunda olan vacib öir vəzifəsidir və ona əməl etməklə canlı və sağlam bir ictimaiyyət yaratmaq olar.

## Elmin məqamı

Uzaq keçmişlərdə, yə'ni, Islamdan qabaqkı dövrlərdə elm öyrənmək ümumi deyildi və hamının elm öyrənməyə icazəsi və haqqı yox idi. elmi öyrənmək yalnız xüsusi bir dəstəyə, yə'ni hakim zadəgan və varla təbəqəyə məxsus idi. Bu vəziyyət əhalisi siklər üzərində qurulmuş ölkələrdə daha qabarıq şəkildə özünü göstərirdi. Mədəniyyət cəhətindən digər ölkələrdən geri qalan ərəb milləti və Ərəbistan camaatı bu sahədə xüsusilə seçilirdi. Islam dini meydana gələn zaman bütün Hicazda savadlılar yalnız oxuyub-yazmaq bacaranlar həddən artıq az idilər. Belə bir zamanda və belə bir mühitdə Islam dini ilk qaclarından elm öyrənməyi yüksək dəyəndirərək onu vacib həddinə qədər qaldırdı. Bu, Qur'andır ki, öz mə'nəvi və şirin nidası ilə hər bir yerdə elm

öyrənənləri qiymətləndirərək onlara yüksək bir rütbə verdi.[1] Peyğəmbər (s) buyurmuşdur: “Elm öyrənmək hər bir müsəlmana vacibdir. Allah elm öyrənənləri çox sevir.”[2]

Imam Sadiq (ə) buyurmuşdur: “Elmin təhsili vacibdir.”[3] Imam Baqir (ə) buyurmuşdur: “Malın zəkatı onun bir hissəsini Allah yolunda verməkdən ibarət olduğu kimi elmin də zəkatı onu başqalarına öyrətməkdən ibarətdir.”[4]

Islamın tarixinə nəzər saldıqda Islamın elm tərfdarı olduğu açıq-aşkar gözə çarpır. Islamın elm öyrənməyə dair etdiyi tövsiyələr müsəlmanların həmişə, xüsusən də orta əsrlərdə Avropanın savadsızlığa qərq olduğu bir dövrdə elm və digər mədəniyyət sahələrində qabaqcıl olmalarına səbəb oldu. Qeyd etmək lazımdır ki, müsəlmanlar elmi Allaha dərin imanla və mənəviyyata diqqət etməklə yanaşı öyrənirdilər. Onlar elmi təkcə onun dünyəvi mənfəətinə görə öyrənmirdilər. Təəssüflər olsun ki, sonrakı əsrlərdə Islamın parlaq və səadət dolu göstərişləri unuduldu, nəticədə müsəmanlar özləri də unudularaq bəşəriyyətin elmin inkişaf karvanından geri qaldılar.

[1] –Mücadilə surəsi 11-ci ayə.
[2] –Üsuli kafi 1-ci cild 30-cu səh.
[3] –Üsuli kafi 1-ci cild 30-cu səh.
[4] –Üsuli kafi 1-ci cild 41-ci səh.

### Əmək və zəhmət

Əmək və zəhmət təbiətin namuslarındandır. Allah inkişafın sirrini hərəkət və fəaliyyətdə gizlətlmşidir. Baharın gəlişi ilə təbiətin dəyişməsi, çayların axması, bulaqların coşub daşması, quşların özlərinə yuva salması, səhər mehinin nəvazişlə səslənməsi budaqların, güllərin, yarpaqların külək nəticəsində təranəsi, bitkilərin cücərməsi, quşların bir ölkədən başqa ölkəyə köçməsi və bu kimi dəyişikliklərin hamısı insanın tənbəllik etməməyə qalxıb hərəkət, iş və fəaliyyət göstərməyə dair gözxə çarpan bir tövsiyədir. Islam dini məhz təbiətin bu namusuna əsaslanaraq camaatı işə və

çalışmağa çağırmışdır. Əziz və böyük rəhbərimiz Əli (ə) buyurur: "Allah-təala torpağı və suyu olub (lakin bu iki böyük ne'mətdən istifadə etməmək nəticəsidə) kasıblayan şəxsə lə'nət etsin."[1]

Imam Sadiq (ə) buyurmuşdur: "Allah heç bir işi əkinçilik qədər sevmir."[2] Yenə də o Həzrət buyurmuşdur: "Əkinçilər camaatın xəzinəsidir."[3] Əli (ə) buyurmuşdur: "Ticarətin müxtəlif sahələrində işləyin. Allah peşəkar doğru insanı sevir."[4]

Imam Sadiq (ə) buyurmuşdur: "Insanın mənliyinin əzəmət və qədir-qiyməti onun məşğuliyyətidir."[1]

Imam Kazim (ə) buyurmuşdur: "Allahın işləməyən bəndədən xoşu gəlmir."[2]

Beşinci imamımız Həzrət Baqir (ə) bir gün isti havada alnından tər axa-axa (işləmək üçün) Mədinə şəhərindən kənarda əkin

[1] -Vəsailuş-işə 12-ci cild. 24-cü səh.
[2] -Vəsailuş-işə 12-ci cild. 25-ci səh.
[3] -Vəsailuş-işə 13-cü cild. 194-cü səh.
[4] -Vəsailuş-işə 12-ci cild. 4-cü səh
[1] -Vəsailuş-işə 12-ci cild, 3-cü səh.
[2] -Vəsailuş-işə 12-ci cild, 37-ci səh.

sahəsinə getmişdi. Islam baxımından bu cür işi alçaq iş güman edən bir kişi Imama yaxınlaşıb təəccüblü və ürəyi yanan halda deyir: "Siz ki, Qüreyşin böyüklərindən və seçilmiş insanlardansınız. Nəyə görə bu qədər dünyaya qiymət verir. Və belə isti havada tər tökə-tökə bura gəlirsiniz? Əgər bu halda ölsəniz, nə edəcəksiniz?" Imam cavab verir: "Əgər bu halda ölsəm, Allahın əmrinə itaət etdiyim halda ölmüş olaram. Çünki bura öz ailəmin dolanşığını tə'min etmək, sənə və başqalarına əli uzatmamaq üçün gəlmişəm. Insan ondan qormalıdır ki, ölüm onu günaha məşğul olarkən yaxalasın." O kişi Imama dedi: "Istəyirdim sizə nəsihət verim, ancaq özüm ibrət aldım."[3]

Qeyd etmək yerinə düşərdi ki, Islam dini ticarətə, əkinçiliyə və bu kimi başqa işlərə əhəmiyyət verərək onları ibadət sayır.[4] Ancaq bu işlərlə həddən artıq ifrat dərəcəsinə varmağı da müsbət hal sayılmır. Islam

[3] -Vəsailuş-işə 12-ci cild, 10-cu səh.
[4] -Vəsailuş-işə 12-ci cild, 13-cü səh.

gündəlik həyatınızın bir neçə saatını bu işlərlə məşğul olun, yerdə qalan saatlarda isə yaşayışın digər maddi və mə'nəvi sahələrindən istifadə edin.[1] Istirahət edin, öz ailənizin işlərinə yetişin, dini hökmlərinizi və Islami vəzifələrinizi öyrənin, namaz qılın, Qur'an oxuyun, bir-birinizin görüşünə gedin və s.

## Evlənmək və ailə qurmaq

Təbiətin digər namuslarından biri də evlənməkdir. Hətta bitkilər də bar vermək üçün öz növləri ilə evlənməlidir. Bə'zilərinin fikirləşdiyindən fərqli olaraq evlənmək sırf şəxsi bir iş deyil, o həm də ictimai nəticəyə malikdir. Nəsillərin davamı, millət və cəmiyyətin qalması, habelə bə'zi işlərin həyata keçməsi məhz ailə qurmağa bağlıdır. Çünki bə'zi itnsanlar öz insani və ictimai amalının davamını gələcək nəslin öhdəsinə buraxırlar. Evlənməkldə insanın ehtiras qüvvələri normallaşaraq günaşdan qorunur.

[1] -Nəşcül-bəlağə. hikmətli özlər 390-cı söz.

Bəlkə də Allah elə insanların bu ehtiyacı üzündən evlənmənin özülünü onların cinsi fəaliyyətləri üzərində qərar vermişdir. Əgər onun faydalarını bilməsələr də heç olmasa ehtiras qüvvələrinə xatir onun ardınca getsinlər. Ancaq bu ehtiras qüvvələrinin istəyi dini göstərişlərlə idarə edilməlidir. Əks tədqirdə insan əbədi fəlakətə yuvarlanar. Elə buna görə də Islam dini evlənməyə və onun şərtlərinin yüngül tutulmasına çox əhəmiyyət verir.

Qur'ani-Kərim buyurur: "Sizin üçün onlarla ünsiyyət edəsiniz deyə öz cinsinizdən zövcələr xəlq etməsi aranızda dostluq və mərhəmət yaratması da Onun qüdrət əlamətlərindəndir."[1]

Peyğəmbər (s) buyurmuşdur: "Evlənmək və oailə qurmaq mənim sünnəmdir."[2] Yenə də o Həzrət buyurmuşdur: "Əgər din və əxlaqın bəyəndiyiniz bir şəxs sizə elçiliyə sizə

[1] -Rum surəsi-21-ci ayə.
[2] -Vəsailuş-işə-14-cü cild, 7-ci səh.

gəlsə, onunla evlənməyə razı olun. Yoxsa yer üzünü fitnə-fəsad bürüyər."[3]

Imam Sadiq (ə) buyurmuşdur: "Peyğəmbər (s) öz xanımları və qızlarının (mehriyyəsini) başlığını beş yüz dirhəmdən çox qərar vermirdi."[4]

Halbuki, bu məbləğ o dövrün imkanlı ailələri üçün çox az sayılırdı. Bütün bunlar göstərir ki, Islam ehtiras qüvvələrini normallaşdırmaq üçün evlənməyi və onun xərcini yüngül tutulmasını təklif edir. Bundan əlavə Islam həmin sahədə artıq söz-söhbətə cəmiyyətdəki sinfi üstünlüklərə qarşı ciddi mübarizə edərək yersiz adətləri puç bilmişdir. Miqdad qəlbi imanla dolu bir müsəlman idi. Ancaq var-dövləti, adlı-sanlı qəbiləsi yox idi. Zəbaə isə Qüreyş tayfasından olub Islam peyğmbərinin əmisi qızı, Əbdülmüttəlibin nəvəsi idi. bu iki nəfər peyğəmbərin istək və məsləhəti ilə bir-biri ilə evlənirlər. Bu adlı-

[3] -Kafi 5-ci cild. 347-ci səh.
[4] -Kafi 5-ci cild. 376-cı səh.

sanlı qız ömür boyu miqdadın kasıb daxmasının öz məhəbbət hərarəti ilə işıqlandırdı. Imam Sadiq (ə) bu evlənməyin fəlsəfəsini izah edərək buyurur: "Peyğəmbər evlənməyin sinfi ayrı seçkilər çərçivəsindən çıxarılması və başqalarının peyğəmbərdən itaət etməsi üçün bu addımı atdı. O Həzrət bununla camaata bildirmək istəyirdi ki, Allah dərgahında ən üstün şəxs Ondan daha çox qorxandır."[1]

Bunun başqa bir nümunəsini dördüncü imam Həzrət Zeynül-abidin (ə)-ın həaytında görmək olar. Əbdülməlik mərvan Imam Zeynül-abidin (ə) kənizini azad edib onunla evlənməsindən xəbaradar oldu. Onun fikrincə azad olunmuş kənizlə evlənmə Imamın şə'ninə layiq deyildi. Buna görə də imamı danlaq məqsədilə o həzrətə məktub göndərdi. Imam Zeynül-abidin (ə) onun cavabında yazdı: "Məktubun çatdı... Sən qüreyş qadınları ilə evlənməyi mənim üçün şərəf sayırsan? Tamamilə səhvdir. Çünki Islam

[1] -Kafi 5-ci cild. 344-cü səh.

peyğəmbərindən (mən də onun nəslindənəm) üstün bir şəxs yoxdur. Mən öz kənizimlə ona görə evləndim ki, o, dini nöqteyi-nəzərdən pak və heç bir çatışmamazlığı yoxdur. Allah Islamın sayəsində sənin fikirləşdiyin üstünlük və ayrıseçkilikləri ləğv etmişdir. (Üstünlüyün me'yarı iman və təqvadır). Sənin mənə yazdığın bu tə'nələr Islamdan qabaqkı Cahimiyyət dövründə yayılmış və o vaxtın adət-ən'ənələrindən olmuşdur."[1]

[1] –Kafi 5-ci cild, 344-cü səh.

## XXIII DƏRS

## SONUNCU IDEOLOGIYA

## VƏ SONUNCU PEYĞƏMBƏR

Islam dini elə ilk çağlarından sonuncu ideologiya kimi meydana çıxmış, müsəlmanlar da bu həqiqəti düşünərək könüllü şəkildə qəbul etmiş, Islamı peyğəmbərlik və vəhya silsiləsinin son təzahürü və əvvəlki asimani dinlərin tamamlayıcısı kimi qəbul etomşlər. Həmçinin bütün müsəlmanlar Qur'an ayələrinə və bir çox rəvayətlərə əsasən Islam peyğəmbərini bəşəriyyətin son peyğəmbəri kimi tanımışlar. Qur'ani-Kərim bir çox ayəlrdə pak Islam dininin cahanşumulluğunu izah edərək Mühəmməd (s)-ın Allahın sonuncu elçisi olmasını vurğulamışdır.

Mühəmməd aranızdakı kişilərdən heç birinin atası deyildir. Lakin o, Allahın rəsulu və peyğəmbərlərin sonuncusudur. Allah hər şeyi biləndir.[1]

Peyğəmbər (s) Əli (ə) xitab edərək buyurmuşdur: "Sənin mənə olan nisbətin eynilə Harunun Musa (ə)-a olan nisbəti kimidir. (Əgər Harun Musanın qardaşı idisə, mən də səni Islami qadaşlıq qanununa əsasən özümə qardaş seçdim. Əgər Harun Musanın canişini oldusa, sən də mənim canşinim olacaqsan). Yeganə fərq burasındadır ki,

[1] -Əhzab surəsi.

Musa (ə) sonuncu peyğəmbər deyildi, lakin mən sonuncu peyğəmbərəm."[2]

Yenə də Peyğəmbər (s) buyurmuşdur: "Mən peyğəmbərlik binasının axırıncı daşıyam. Peyğəmbərlər mənim gəlişimlə tamamlandı"[1]

Imam Əli (ə) Nəhcül bəlağə kitabında buyurur: "Islam peyğəmbəri (Mühəmməd (s)) ilə vəhy sona yetdi."[2]

Səkkizinci imam Həzrət Rza (ə) buyurmuşdur: "Mühəmməd (s)-in pak dini qiyamətə qədər dəyişilməyəcək və ondan sonra heç bir peyğəmbər gəlməyəcək."[3]

Sadaladıqlarımız onlarla hədisdən kiçik bir nümunədir ki, hər birində peyğəmbərin sonuncu onun pak dininin əbədi olmasına açıq-aydın və tam qətiyyətlə bə'yan olunmuşdur.

---

[2] –Bu hədisi bütün hədisçilər (istər sünni, istərsə də şiə) söyləmişdir. Əl-Qədir 3-cü cild 196-202-ci səh.

[1] –Musnədu Əbu-Davud 247-ci səh.

[2] –Nəhcul bəlağə133-cü xütbə.

[3] –Biharul ənvar 11-ci cild 34-cü səh.

## Islamın cahanşümulluğu

Islam dininin əbədi yaşamasının əsas səbəblərindən biri məhz bütün sahələrdə universal həqiqətləri ehtiva etməsidir.

Islam dini bəşər fitrətinin əsasında qurulub, yaşayışın fərdi, ictimai, maddi, mə'nəvi, əqidəvi, atifi, iqtisadi, hüququ və digər sahələrini əhatə etmiş və bunların hər birinn qanunu ən gözəl üslubla bütün nəsillər və kütlələr üçün hər bir məkan və zamanda açıqlayan ümumi bir topludur. Elə buna görə də Avropa islamşünaslarının hər biri öz təhqiq və düşüncələri səviyyəsində Islam hökmlərinin cahanşümulluğunu e'tiraf etmişdir.[1] Indi isə bu cahanşümulluğun bə'zi sahələrinə nəzər salaq.

## Qur'an və Islamın Allahı

Islamın Allahı bütün bəşəriyyətin Allahıdır. O, hər hansı bir xüsusi qəbilə və ya tayfa tanrısı deyildir ki, müəyyən bir dəstəyə məxsus olsun. Namaz qılarkən deyirik ki,

---

[1] –Islam elmləri və mədəniyyəti kitabı.

həmd olsun Allaha, aləmlərin Rəbbinə.[2] O, hər an və hər bir yerdə hər hansı bir şeyi istədiyi yaradır. Onun zatında heç bir məhdudiyyət yoxdur. Bütün varlıqların ixtiyarı Onun əlindədir.[2] O, göylərdə və yerdə olanları da sizin gizlətdiyiniz və aşkar etdiyiniz şeyləri də bilir. Allah ürəklərdə olanları biləndir![3] Onun vücudunun məhdudiyyəti yoxdur. O, hər yerdə var. Harasa gedib kimnənsə icazə alıb qəbula düşməyə ehtiyacı yoxdur. O hər şeydən bizə yaxındır.[4] O, misilsiz bir həqiqətdir. O, iflasa uğramış məktəblərin tanrısı deyildir ki, bəşər və məxluq yönümlü tanrı olsun. Deməli, məkanı yoxdur. Əksinə, məkanı yoxdur. Əksinə, məkanı O özü yaratmışdır. Zamana da sığmaz, çünki zamanı Onun özü yatarmışdır. Həmişə olub və olacaq. Onun başlanğıcı və sonu yoxdur. Deməli O, misilsizdir.[5] Onun zatı yuxu, yorğunluq,

[2] –Fatihə kitabı 2-ci ayə.
[3] –Mülk surəsi 1-ci ayə.
[4] –Təcabun surəsi 4-12-ci ayələr.
[5] –Qaf surəsi 16-cı ayə.
[6] –Şura surəsi 11-ci ayə.

peşmançılıq, səhv və digər eyblərdən pakdır.[1] Misilsiz və tək olan varlıqdır. Onun övladı, atası, anası, şəriki və köməkçisi yoxdur. Bu həqiqətlər müsəlmanların hər cür şikdən uzaq olmaları üçün gündəlik namazlarında dəfələrlə oxuduqları tovhid (Ixlas) surəsində bə’an olunmuşdur.[2] Islamın Allahı Qur’anın şirin və pak dilindən saydığımız sifətlərə malik olan Allahdır. Geniş mə’nada desək, qüdrətli, əzəmətli, ağıl və bəşər düşüncələrinə sığmayan ehtiyacsız, yüesək, yaxın və mehriban bir Allahdır. Elə yaxındır ki, insan istənilən vaxt Onun dərgahına üz tutub istədiyi hər bir şeyi ondan diləyə bilər. Allah da onun məsləhətinə və xeyrinə olanı ona bəxş edər. O, Özü buyurmuşdur ki, Allah sizə şəfqətli və iərhəmətlidir.[3]

**Islamda ümumi bərabərçilik.**

[1] –Bəqərə surəsi 254-cü ayə.
[2] –Tovhid surəsi.
[3] –Hədid surəsi 9-cu ayə.

Islam baxımından irqi xüsusiyyətlər və ayrı seçkilikləri ləğv olmuş, üstəlik insanların bərabərliyi Islam nəzərində qəti qəbul olunmuş bir həqiqətdir. Qur'an bu barədə buyurur: "Ey insanlar! Biz sizi bir kişi və qadından yaratdıq. Sonra br-birinizi tanıyasınız (kimliyinizi biləsiniz) deyə, sizi xalqlar və qəbilələrə ayırıdq. Allah yanında ən hörmətli olanınız Allahdan ən çox qorxanınızdır. Həqiqətən, Allah bilnədir, xəbardardır."[1]

**Islam və fikir azadlığı**

Islam məntiqi, əsasların və fikir azadlığının tərəfdarıdır. Islamda əqidə məcburiyyəti yoxdur. "Dində məcburiyyət (zorakılıq) yoxdur. Artıq doğruluq (iman) azğınlığından ayırd edildi."[2] Islamda əqidə əsaslarını araşdırmaq hər bir şəxsin vəzifəsidir. Heç kim dəlilsiz və sübutsuz heç bir şeyi qəbul etməməlidir. Əgər bir sıra

[1] –Hücurat surəsi 13-cü ayə.
[2] –Bəqərə surəsi 256-cı ayə.

Islami hökmlər və göstərişlər fanatik, yə'ni, heç bir sorğu-sualsız qəbul olunursa bunun səbəbi həmin hökmlərin (səhvdən uzaq olan) vəhy mənbəsindən yetişməsidir. Bu hökmlər isə peyğəmbərin, yaxud pak imamların vasitəsilə bə'yan olunmuşdur. Islam kor-korana öz ata-babalarının əqidələrinə inananları məzəmmət edərək tövsiyə edib: "(Ey insan!) Bilmədiyin bir şeyin ardınca getmə (bacarmadığın bir işi görmə, bilmədiyin bir sözü demə) Çünki qulaq, göz və ürək bunların hamısı (sahibinin etdiyi əməl, dediyi söz barəsində) sorğu-sual oluncaqdır."[3]

Islam müxalif şəxslərə elmi məclislərdə öz irad və əsaslarını söyləyərək cavab eşitmək hüququ verir. Onlara söylə: "Əgər (bu sözü) doğru deyirsinzsə, dəlilinizi gətirin."[1] Bu səbəbdən çox vaxt Islamın qarşısıqnda duran yəhudi, xristian və başqa bu kimi dəstələr peyğəmbərin və ya pak imamların yanına

[3] –Isra surəsi 36-cı ayə.
[1] –Bəqərə surəsi 111-ci ayə.

gəlib din barəsində mübahisələr edirdilər. Sonrakı əsrlərdə də bu üslüb geniş şəkildə yayılmışdı. Azlıq təşkil edən məzhəblərin nümayəndələri Islam alilərinin məclislərində mübahisə edirdilər.

Doktor Qustav Lobon “Islam mədəniyyəti” adlı əsərində yazır: “...Bağdadda məclislər əkil olunurdu. Bu məclislərdə yəhudi, xristian, hindu, materialist və zərdüşt məzhəblərinin bütün nümayəndələri iştirak edirdilər. Onlar öz fikirlərinə tam azadlıqla söyləyir və hər birinin bə’yanı diqqətlə dinlənilirdi. Sadəcə onlardan yalnız öz mübahisələrində əqli dəlillərə əsaslanmaq tələb olunurdu...”

Doktor Qustav Lobon sonra əlavə edib deyir: “Əgər düzgün fikriləşsəki görərik ki, Avropa hələ min il ağır və vəhşicəsinə müharibələrdən, qərəzsiz düşmənçiliklərdən və rəhimsiz qarğışlardan sonra hələ də bu dərəcədə azadlıq əldə etməyə nail olmamışdır.”

## Islam və təfəkkürlə elm öyrənməyə də’vət

Islam dini düşünməyə böyük əhəmiyyət verir. Ağıl sahiblərinə xitab edərək buyurur: “Həqiqətən, göylərin və yerin yaradılmasında, gecə ilə gündüzün bir-birini əvəz etməsində, içərisində insanlar üçün mənfəətli şeylər olan gəmilərin dənizlər üzməsində, quruyan yer üzünü Allahın göydən yağmur yağdıraraq yenidən diriltməsində, cins-cins heyvanları onun hər tərəfinə yaymasında, küləyin bir səmtdən başqa səmtə əsməsində, göylə yer arasında (Allahın əmrinə tabe) buludların hərəkətində (ağıl və) düşüncə sahibi olan insanlar üçün (Allahın hikmət və qüdrətinə dəlalət edən) əlamətlər vardır...”[1]

“(Ey müsəlmanlar!) Sizdən əvvəl bir çox vaqiələr (ibrətli əhvalatlar) olub keçmişdir. Indi yer üzünü dolaşıb haqqı təkzib edənlərin aqibətinin necə olduğunu görün!”[2]

---

[1] -Bəqərə surəsi 164-cü ayə.
[2] -Ali-Imran surəsi 137-ci ayə.

Islam dini insanın elm və düşüncə sahəsinin əl çatmaz üfüqlərinə əl tapması və öz vücudundan daha gözəl istifadə etməsi üçün dərin və azad fikirləşməyini tələb edir. Buna görə də Islam elmi tərəqqini və bəşəriyyətin xidmətinə verilən ixtiraları yüksək dəyərləndirir. Bu səbəbdən Islam alimləri Islamdan bir neçə əsr sonra ayağa qalxaraq bəşəriyyətin mədəniyyət sahəsini öz elmi zəhmətlərinin zinətləri ilə bəzəyib. Onlarnı adlarını parlaq elm tarixinə əbədi həkk etdilər.[3]

Corci Zeydan "Islam mədəniyyətinin tarixi" kitabında yazır: "Elə ki, Islam mədəniyyəti meydana çıxdı və müsəlmanlara arsında yeni elmlər yayıldı, bir sıra müsəlman alimlər meydana gəldilər ki, onların

[3] -Cabir ibn Həyyan, Fəxr Razi, ibn Sina, Xacəl, Nəsrəddin Tusi kimi alimlər buna misaldır. Hətta Ibn Sinanın kitabları keçən əsrin sonlarına qədər Avropada tədris olunurdu. Doktor qustav Lobone "Ərəb və Islam mədəniyyətinin tarixi" kitabının 710-cu səhifəsində deyir: "Misyə Renon yazır ki, böyük Albert bütün bildiklərini Ibn Sinadan öyrənmişdi."

düşüncələri bə'zi elm sahələrinin binasını qoyan alimlərdən daha üstün idi. Həqiqətdə o elmlər Islam alimlərinin yeni təhqiqləri nəticəsində təzə bir rəng aldı və Islam mədəniyyəti ilə uyğunlaşaraq tərəqqi etdi."[1]

Misyo Liberi yazır: "Əgər Islam tarix səhifələrindən pozulsaydı. Avropanın elmi həyatının yeniləşmə dövrü neçə əsr geri düşərdi."[2]

**Islam və həyat**

Islam baxımından maddi, mə'nəvi, dünyəvi və dini yaşayış arasında heç bir zidiyyət yoxdur.

Islami nöqteyi-nəzərdən dünyada iş ardınca getməyən və çalışmayan şəxslər bəyənilmirlər. Habelə öz şəxsi mənafelərindən başqa öir şeyi düşünməyən şəxslər də Islamın nəzərində pislənmişlər. Altıncı imamımız həzrət Sadiq (ə)

[1] -Islam mədəniyyətinin tarixi-Corci Zeydan 598-ci səh.
[2] -Islam mədəniyyəti. Qustav lobon. Səh –706-715.

buyurmuşdur: “Dünyasını axirətə həvalə edən (yə’ni, ibadət adı ilə həyat fəaliyyətlərindən əl çəkən), eləcə də axirətini dünyasına görə əldən buraxan şəxs bizdən deyil.”[3] Elə isə deyə bilərik ki, Islam müsəlmanların həm dünyada, həm də mə’nəvi aləmdə bərabər hərəkət edərək irəliləməsi üçün bu mövzuya çox ciddi şəkildə diqqət yetirir. Deməli Islamda rahiblik, özünü kənara çəkmək, dünyadan əl üzmək kimi işlər yoxdur. Peyğəmbər (s) buyurmuşdur: “Bizə rahiblik tövsiyə edilməyib. Mənim ümmətimin rahibliyi Allah yolunda cihaddır.”[1]

**Islam hökmləri və zəmanin tərəqqisi**

Həyatın təkmilləşərək dəyişilməsinin və genişlnməsinin, habelə mədəniyyət amillərinin inkişafının Islam hökmlərinin əbədiliyi ilə heç bir zidiyyəti yoxdur. Çünki bir qanunun belə inkişaflar nəticəsində

[3] –Vəsailuş-şiə, 12-ci cild.
[1] –Biharul ənvar.Cild-70. səh-114.

uyğunsuzluğu o vaxt ola bilər ki, o qanun ilkin şərait və xüsusi amillərə bağlı olsun. Məsələn əgər bir qanun desə ki, yazı yazarkən ancaq əldən səfər zamanı isə ancaq ulaqdan istifadə olunmalıdır, onda bu qanun elm və mədəniyyətin inkişafı ilə heç cür ayaqlaşa bilməz. Ancaq əgər bir qanun xüsuosi şəraitə bağlı deyilsə və qanunvericilik zamanı şərait yalnız misal ünvanı ilə qeyd edilibsə, onda yeni şəraitin meydana gəlməsi və mədəniyyət amillərinin inkişafı ilə heç ziddiyyəti ortaya çıxmayacaq. Islam da məhz belədir, yə’ni, təkcə bir əsrin şəraitinə xüsusi diqqət yetirmir. Məsələn Islam deyir ki, öz insani və həyati hüquqlarınızı müdafiə etmək üçün düşmənlərə qarşı qüvvətli olmaq lazımdır. Bu qanunun qılınc, qalxan və at dövründə tə’yin olunmasına baxmayaraq bura da heç də təkcə o dövrün döyüş sursatları nəzərdə tutulmamışdır, yə’ni Islam deməmişdir ki, Islami cihad yalnız qılıncla olmalıdır. Deməli bu qanun bu gündə öz qüvvəsində qalır. Ticarət, alış-veriş və bu kimi digər sahələrdə də eynilə bu cürdür.

Deməli mədəniyyətin, şəraitin və amillərin əhatə dairəsi nə qədər genişlənsə belə yenə də Islam qanunlarının əhatə çərçivəsindən kənara çıxmayacaqdır. Islamın əbədi qalmasının sirlərindən biri də məhz budur.

Görkəmli ingilis filosofu Corc Bernardşov deyir: "Islam dini bəşəriyyətin bütün dövrləri ilə uyğunlaşan və hər bir nəsli özünə cəlb edə bilən yeganə dindir."[1]

**Müasir ideya və rejimlər bizi qane edə bilərmi?**

Bəşəriyyətin elm sahəsindəki nailiyyətlərinə kimsə şübhə edə bilməz. Ancaq alimlər özləri e'tiraf ediblər ki, mə'lumatlarının nisbəti dünyadakı məchulatlarının nisbəti ilə müqayisə ediləsi deyil. Ən əsası odur ki, onlar düşüncəsi məhdud olduğundan dünyanın bütün sirlərindən fitri və əsli ehtiyaclardan xəbardar deyillər. Bundan əlavə başər nə qədər tərəqqi etsə də heç vaxt səhvdən uzaq ola bilməz.

[1] -Islam mədəniyyəti və elmləri 13-cü səh.

Deməli bəşəriyyətin istəkləri sahəsində hər bir dövrdə hər nə əldə olusa, b uyüz faiz xatircəmlik gətirə bilməz. Çünki mühitdəki amillər gözlənilmədən onun fikri və düşyncəsində tə'sir göstərib onu reallıqdan uzaqlaşdıra bilər. Ancaq Islamın əsas proqramları vəhy mənbəyindən olduğuna görə onlarda səhvə yol verilməz və hər bir zaman xatircəmli yol göstərici ola bilər. Əlbəttə, bir şərtlə ki, bu pak qanunlar digər azğın sistemlər sırasına qatılmasın. Əks tədqirdə kamil şəkildə ondan istifadə etmək olmaz.

**Qeybi yardımlar davam edir**

Bə'ziləri belə təsəvvür edirlər ki, peyğəmbər (s)-in sonuncu olmaıs qeyb aləmi ilə əlaqənin kəsilməsi deməkdir. Bu fikir tamamilə səhvdir. Çünki peyğəmbərin sonuncu olmasının mə'nası budur ki, Islam peyğəmbərindən sonra başqa bir peyğəmbər və yeni bir din gəlməyəcək. Bu isə heç də o demək deyil ki, ümumiyyətlə qeyb aləmi ilə əlaqə kəsiləcək. Çünki on iki mə'sum imamın

imamət və rəhbərlik məqamına inanan biz şiələr bu fikirdəyik ki, bu əlaqə mə’sum imamlarımız vasitəsilə həmişə davam edir. Bu isə şiə məzhəbinin üstün cəhətlərindən biridir.

Sədrül-mütəəllihin “Məfatihul-qeyb” kitabında yazır: “Vəhy peyğəmbərlik xəbərinin gətirilməsi üçün göndərlən mələkin nazil olması deməkdir. Peyğəmbərlərin sona çatmaısna baxmayaraq ilham qapısı əsla bağlanmayıb və bağlanmayacaq. Bu yolun bağlanması qeyri-mümkündür.”

**Müasir dünyada Islama necə əməl etmək olar?**

Müasir dünyamızda fəsad və azğınlığın günbəgün artmasına baxmayaraq dağın zirvəsindən yuvarlanan qar toplusu dağın ətəyinə nə qədər yaxınlaşarsa, bir o qədər böyük ziyan vurduğu kimi biz də bilməliyik ki, alicənablıq ağır sınaqlardan çıxdıqdan sonra ələ gəlir. Deməli bizim istiqlaliyyətimiz və şəxsiyyətimiz təlb edir ki, dövrün azğınlıqları ilə mübarizə aparaq.

Ümumiyyətlə mühitin islah edilməsi bizim böyük vəziflərimizdən hesab olunur. Peyğəmbərlər öz yaşayışları ilə dövrün azğınlıqları qarşısında mübarizə etmək dərsinin bizə öyrətmişlər. Onlar əsla mühitin azğın istəklərinin, müxtəlif ehtiraslarının, habelə çirkin məqsədlərin arxasınca getməmişlər. Mühit onları yox, onlar mühiti dəyişmişlər. Islam peyğəmbəri cahiliyyətin azğın adətlərinə qarşı mübarizədə müqavimət göstərdi və bunun nəticəsində də mühiti alt-üst etdi. Sinfi ayrıseçkilik, qadınların təhqiri, bütə sitayiş, qəbilələrarası müharibələr və bir sıra bu kimi azğınlıqlar o dövrün camaatı arasında geniş yayılmış adət-ən’ənələrindən idi. Ancaq Peyğəmbərin müqaviməti nəticəsində bunların hamısı alt-üst oldu. Qüreyşin adlı-sanlı şəxsləri o cümlədən Ütbə Peyğəmbərin bu işindən narahat idi. Buna görə bir yerə yığışıb uzun müzakirlərəndən sonra bu qərara gəldilər ki, onu şirin və’dələrlə, yaxud da təhdidlərlə bu işdən çəkindirsinlər. Peyğəmbər (s) isə onların cavabında buyurdu: “Mən yalnız bu

iş üçün göndərilmişəm. And olsun Allaha, əgər günəşi bir əlimdə, ayı isə digər əlimdə qoysalarda yenə öz yolumdan dönməyəcəyəm, imanımdan əl çəkməyəcək və qələbəyə, yaxud da ölümə qədər müqavimət göstərəcəyəm.”[1]

Indi isə bizdə  o poladürəyli Allah elçisindən ilham olaraq zəmanəni bütün çirkinliklrədən təmizləməliyik, nəinki özümüzü zəmanənin ixtiyarında qoymaqla ondan asılı olmalıyıq.

[1] –Sirətu ibn Hişam 266-295-ci səhifələr.

## XXIV DƏRS

## PEYĞƏMBƏRIN

## CANIŞINLIYI, YAXUD

## IMAMƏT

Nəhayət peyğəmbərin pak ruhu öz əbədi məskəninə qanad açıbuçdu. Mə’lum məsələdir ki, o həzərtin vəfatı ilə sakit Islam dəryasında tufanlar qalxacaq və təlatümə gəlmiş dalğalar coşub daşacaqdır. Öz xeyrini güdənlər bu təlatüm və qarışıqlıqdan daha artıq faydalanacaqlar. Digər tərəfdən də bilirik ik, camaatın ağlı yalnız gözlərində olub həmişə heç nəyin qurbanı olmuşlar. Onlarnı daimi tərbiyəyəvə nəzarət altında olmağa ehtiyacları olmuşdür. Rəhbr olmadan öz təkamülləri ilə məşğul ola bilməzlər.

Indi isə belə bir sual irəli çıxır ki, bu cür cəmiyyətin belə bir şəraitdə Peyğəmbərin çəkdiyi bütün zəhmətlərin qorunub saxlanılmasından ötrü o həzrətin yerinə bütün işləri öz öhdəsinə götürən belə bir rəhbərə ehtiyacı yoxdurmu? Ilahi qanunlardan tam xəbardar olan və camaata həqiqi hidayət yolunu göstərəcək elmi və siyasi bir rəhbər lazım deyilmi?

Şiə məzhəbinin fikrincə Allahın sonsuz lütf və mərhəməti, eləcə də Onun sonsuz hikməti camaatın Peyğəmbərdən sonra da rəhbərsiz qalmamasını lazım bilir. Özü də bu rəhbər müsəlman cəmiyyətinin mə’suliyyətini öz öhdəsinə götürərək hidayət yolunda onlara peyğəmbərdən ilham aldığı öz düzgün elmi və düşüncəsi ilə rəhbərlik etmək üçün gərək mə’sum, elmli, gözəl əxlaqlı, doğru danışın və Allah tərəfindən seçilmiş bir insan olmalıdır. Çünki Islam Peyğəmbərinin zamanındakı cəmiyyətin fikrində olan Allahın Öz fikrindən dönərək mərhəmət nəzərini müsəlmanlardan əsirgəməsinə heç bir əsas yoxdur. Necə ola bilər bədənimizin inkişafı və qorunması üçün minlərlə incəlik və ne’mət yaratmış, alının şor, acı və tozlu tərindən qorunmaq üçün gözlərimizin üstündə qaşlar yaratmış, gözlərin həm

gözəlliyi, həm də qorunması üçün çətirtək kipriklər və bu kimi şeylər bəxş etmiş Allah peyğəmbərdən sonra onun yerinə səlahiyyətli bir canişin tə'yin etməsin? Məgər (Islamın əsas məqsədi olan) gözəl cəmiyyət yaratmaq üçün ən yaxşı rəhbərlərin, tərbiyəçinin və imamın tə'yin edilməsi ictimaiyyətin səadətinin təməli deyilmi? Islam cəmiyyəti quruluşsuz və Ilahi rəhbərsiz səadət və xoşbəxtliyə çata bilərmi? Deməli, əgər Ilahi və Mə'sum rəhbər lazımdırsa, onda necə deyə bilərik ki, bu məsələ Islamda diqqət mərkəzində olmamış və camaat öz başına buraxılmışdır? Bir sözlə Peyğəmbərin göndərilməsini lazım bilən fəlsəfə Allahın Peyğəmbər vasitəsilə onun canişinin də tə'yin edilməsini lazım bilir. Islam Peyğəmbəri ömrünün son anlarında camaata buyurardı ki, camaat, and olsun Allaha ki, sizi Cənnətə (səadətə) yaxınlaşdırıb Cəhənnəmdən (azğınlığdan) uzaqlaşdıran şeylərin hamısını sizin üçün açıqlamışam. Belə olan halda Islam Peyğəmbərinin özündən sonra bilavasitə canişin tə'yin etməməsini necə iddia edə bilərik?

**Təkcə Qur'an kifayətdirmi**

Qur'ani-Kərim hər cür Islami təfəkkürün mənbəyidir. Qur'an bütün Islami elmlərin üzərində qurulmuş böyük bir qayaya və yaxud bütün elm bulaqlarının qaynadığtı bulağa bənzəyir. Başqa dini mənbələrin e'tibarı və nüfuzuda ona bağlıdır. Ancaq bununla belə indi deyəcəyimiz dəlillərə əsasən Islam cəmiyyətinin idarəçiliyində, onun problemlərinin həllində, habelə musəlmanların ehtiaycını ödəmək üçün təkcə Qur'anla kifayətlənmək olmaz:

1)Əvvəla Qur'anın mə'nasının təfsir və izahi ehtiyacı var. Çünki, bütün ayələrin mə'nası heç də insanlıqla ələ gəlmir. Belə olan halda şübşəsiz ki, onun əsl mahiyyətindən xəbərsiz olan və nəzərdə tutulmuş əsl mə'nasını bilməyən rəhbərlər səhvə düçar olacaq və məqsədə nail ola bilməyəcəklər. Elə buna görə də ayələri Allahın istədiyi kimi təfsir və izah etmək üçün ya gərək

Peyğəmbərin özü, ya da bu maddi aləmdən əlavə mə'nəvi aləmlə də əlaqəsi olan canişinlər bu yolda da rəhbərlik etməlidirlər. Əks tədqirdə adi camaat bə'zi vaxtlar ayələri səhv təfsir edəcək və Qur'anın həqiqətindən uzaq olacaqlar.[1]

Aşağıdakı nümunə buna tam bir sübutdur. Bir gün Abbasi xəlifəsi Mö'təsimin hüzuruna Qur'anda tə'yin olunmuş şər'i hədd icra etmək üçün bir oğru gətirirlər. Qur'anın bu barədə hökmü belədir: "Oğrunun əlini kəsin!" Lakin Mö'təsim əlin haradan kəsiləyəcəyini bilmirdi. Buna görə də sünni alimlərinə müraciət etməli oldu. Onlardan biri əlin biləkdən, digəri isə dirsəkdən kəsilməsini söylədi. Ancaq Mö'təsim bununla razılaşdı. Çarəsiz qalıb məsələni məclisdə hazır olan doqquzuncu imamdan soruşmalı oldu. O Həzrət buyurdu: "Oğrunun dörd barmağı kəsilməlidir."

[1] -Islam peyğəmbəri buyurmuşdur: "Qur'anı öz istədiyi kimi təfsir edən şəxs (Qiyamətdə) özünə Cəhənnəmdə yer hazırlayır." (Təfsiri-Safi 1-ci cild 21-ci səh)

-Nəyə görə?

-Çünki Allah Qur'anda buyurur: "Bütün səcdə yerləri Allah məxsusdur."[1] Yə'ni, bədənin yeddi üzvü, o cümlədən səcdədə yerə qoyulan əllərin içi də Allaha məxsusdur və onları kəsmək olmaz. Hamı Imamın buyurduğunu qəbul edib o həzrətin istinadına qane oldu.[2]

Məhz belə təfsir Qur'anın Qur'anla təfsir edilməsidir ki, bu da yalnız peyğəmbərə və Imama məxsusdur. Heç kim, hətta təfsirdə usta olan şəxs də bu cür təfsirin öhdəsindən gələ bilməz. Yalnız imamlara ünsiyyət tapıb onların metodundan istifadə etməklə bunun öhdəsindən gəlmək olar.

2)Digər tərəfdən də düzgün təfsir barəsində dediklərimiz hələ Qur'anın zahiri və hökmlərinə aid idi. Halbuki bu zahiri söz və mə'naların xüsusən də maarif, əqidə və əxlaqi ayələrdə geniş, dərin və yüksək mə'anlar gizlənmişdir. Əziz peyğəmbərimiz

[1] -Cin surəsi 18-ci ayə.

[2] -Nurus-səqələyn təfsiri 5-ci cild, 439-cu səh.

buyurmuşdur: “Qur’anın gözl zahiri və dərin batini vardır.”[1] Həmçinin buyurmuşdur ki, Qur’anın batini, onun da batini, beləliklə, bir-birinin içində yeddi batini vardır.[2]

Ümumiyyətlə böyük təfsirçilərin söylədiyinə əsasən bütün Qur’an ayələrinin batini və əsl mə’nası vardır ki, bunlara da təkcə fikirləşmək və axtarış yolu ilə çatmaq mümkün deyil. heç sözlərin də hamısının mə’nası aydın deyil. Çünki bir çoxunun onu dərk və əməl etməyə qüdrəti çatmır. Yalnız Allah övliyaları və pak insanlar onu dərk edərək ondan bəşəriyyətin problemlərinin və qarşısına çıxan hadisələrin həlli üçün istifadə edib ibrət olar, sonra da onu Allah tərəfindən onlara verilmiş günah və səhvdən olan mə’sumluğu ilə başqalarına öyrədə bilərlər. Bu övliyalar və günahdan mə’sum olan bəndələr isə məhz Allahın Qur’anda “siz ey (Peyğəmbərin) ev əhli! Allah sizdən çirkinliyi yox etmək və sizi tərtəmiz (pak) etmək

[1] –Üsuli-kafi 2-ci cild.
[2] –Təfsiri Safi 1-ci cild 39-cu səh.

istəyir”[3] deyə buyurduğu Peyğəmbər (s) və onun Əhli-beytdir. Hədisdə də buyurulmuşdur ki, Qur’anın həqiqətlərini yalnız onun muxatəbi[4] olan peyğəmbər və Əhli-beyt (ə) dərk edə bilərlər.[1] Qur’anla Əhli-beyt arasındakı bu bağlılığa görədir ki, Peyğəmbər (s) ömrünün son günlərində camaata buyurmuşdur: “Mən sizin aranızda iki əmanət qoyub gedirəm. Biri Allahın kitabı digəri isə öz Əhli-betim. Əgər bu iki əmanətdən möhkəm yapışsanız, heç vaxt yolunuzu azmayacaqsınız.”[2]

3)Qur’ana əməl etmək üçün mə’sum bir zamin lazımdır. Qur’an əsas qanunlar toplusu olduğuna görə ona icra mərhələsinə qoymaq üçün icraedici bir orqan lazımdır. Bu orqana da elə bir şəxs rəhbərlik etməlidir ki, Peyğəmbər kimi mə’sum və Qur’anı tam

[3] –Əhzab surəsi. 33-cü ayə.
[4] –Yə’ni, Cəbrail vəhy gətirdikdə Peyğəmbərin evinə nazil olurdu. Peyğəmbərin Əhli-beyti də onun ailəsi olduğu üçün Qur’anın mə’nasını daha yaxşı bilirdilər.
[1] –Miratul-ənvar təfsiri 16-cı səh.
[2] –Müsnədi ibn hənbəl 3-cü cild, 17-ci səh.

şəkildə başa düşsün. Bu xüsusiyyətlər də yalnız pak imamların vücudunda toplanmışdır. Buna ən gözəl şahid mö'minlər ağası, haqq-ədalət tərəfdarı Əli (ə)-ın bir neçə illik hakimiyyət dövrüdür. O həzrətin öz hakimiyyəti dövründə müxtəlif çətinliklərlə üzləşməsinə baxmayaraq Islamın yüksək və parlaq qanunlarını bircə-bircə icra etdi.

Bu dərsin Imam Sadiq (ə)-ın şagirdlərindən birinin imamın hüzurunda sünni alimi ilə apardğı müzakirə ilə bitiririk.

"Dəməşqli bir kişi Ima Sadiq (ə)-ın hüzuruna gəlib o həzrətin şagirdləri ilə mübahisə etmək istədiyini bildirdi. Imam ən gənc şagirdlərindən olan Hişanı ona göstərdi. Dəməşqli kişi dedi: "Ay oğlan, bu kişinin (imam Sadiq (ə)-ın) imamlığı barədə məndən soruş!" Hişam onun bu cür ədəbsizliyindən qəzəblənərək bədəni titrədi. Ancaq qəzəbini boğub dedi: "Allahı Öz bəndələrinə qarşı çox mehribandır, yoxsa onların özləri?"

-Allah

-Mehriban Allah Öz bəndələri  üçün nə etmişdir?

-Insanları təfriqə və ayrıseçkilikdən qorumaq aralarında vəhdət və birlik yaratmaq üçün, eləcə də dini vəzifələrini bə'yan etməkdən ötrü rəhbər göndərmişdir.

-O rəhbər kimdir?

-Peyğəmbər (s).

-Peyğəmbər vəfat etdikdən sonra kimdir?

-Allahın kitabı (Qur'an) və Peyğəmbərin sünnəsi.

-Allahın kitabı və Peyğəmbərin sünnəsi bu gün müsəlmanlara arasındakı təfriqənin qarşısını ala bilər?

-Bəli.

-Bəs niyə görə ikimizdə müslman ola-ola mənimlə sənin aranda ixtilaf var? Məgər sən elə buixtilafdan ötrü Şamdan buradan gəlmisən?

Dəməşqli kişi sakit olub daha heç bir söz demədi.

Imam Sadiqin (ə) Dəməşqli kişiyə buyurdu: "Nəyə görə danışmırsan?" O cavab verdi ki, daha nə deyim. Əgər desəm aramızda ixtilaf yoxdur, yalan demiş oluram,

yox əgər desəm Allahın kitabı ilə Peyğəmbərin sünnəsi ixtilafı aradan götürür, yenə də yalan demiş oluram. Çünki (bir çox yerlərdə) Allahın kitabı və Peyğəmbərin sünnəsi ixtilafı aradan qaldıra biləcək aydın mə'nanı vermir... Sonra Dəməşqli kişi dedi: "Indi həmin sualı mən Hişamın özündən soruşacağam." Imam buyurdu ki, soruş!

-Hişam, Allah camaata qarşı çox mehribandır, yoxsa camaatın özü?

-Allah.

-O, (Allah), müsəlmanların birliyini qorumaq onları azğınlığdan saxlamaq və haqq ilə batili onlar üçün bə'yan etmək üçün bir adam göndəribmi?

-Peyğəmbərin dövrünü deyirsən, yoxsa indiki dövrü?

-Peyğəmbərin dövründə peyğəmbər özü idi. Indiki dövrü deyirəm.

Hişam Imam Sadiq (ə)-ı göstərərək dedi: "Bu günkü dövrdə burda əyləşən həmin bu kişidir. Camaat hər tərəfdən onun yanınaköçüb gəlirlər. O, bizə göydən (və yerdən) xəbər verir. O, bu elmi ata və babalarından, onlar da Peyğəmbər (s)-dən irs aparmışlar. Mən bu sözü hansı əsasa görə qəbul edim?"

-Indi nə istəyirsən, onda soruş!

-Düz deyirsən, daha heç bir bəhanə qalmadı.

Sonra Imam Sadiq (ə) onun səfərindən, səfər zamanı özündən başqa heç kəsin bilmədiyi işlərdən xəbər verdi. O, Imamın hər şeydən xəbardar olduğunu gördükdə o həzrətin imam olmasına inanaraq ona iman gətirdi."[1]

[1] -Üsuli kafi 1-ci cild. 171-173-cü səh.